Tarixə qızıl hərflərlə
yazılan 33 il



# Qurtuluş

"Babadağ" qəzetinin xüsusi buraxılışı
№ 46-47(052-053)



**MƏN ÖMRÜMÜN QALAN HİSSƏSİNİ DƏ XALQIMA HƏSR EDİRƏM.**

H. ƏLİYEV

# HEYDƏR ƏLİYEV DÜHASI İŞIĞINDA



Həzi ZEYNALLI

Tarix boyu xalqımızın həyatında müxtəlif rol oynayan hadisələrlə zəngin illər və ya əsrlər çox olmuşdur ki, belə çətin vəziyyətlərdən xalqımızı həmişə onun müdrikliyi, dözümlülüyü, vətənpərvərliyi və s. kimi keyfiyyətlər çıxarmışdır. Bu keyfiyyətlərdən başqa xalqımızın qadir olduğu ən böyük keyfiyyət dar gündə, çətin anda öz daxili sıralarından xilaskarını tapa bilib, onun ətrafında sıx birləşə bilmək qüdrətidir. Yola saldığımız XX əsr də Azərbaycan xalqı üçün bir-birindən əhəmiyyətli və taleyüklü hadisələrlə zəngin bir sınaq əsri oldu. Azərbaycan xalqı bu əsrdə də ağır sınaqlardan çıxıb böyük uğur qazandı. Bu uğurlar arasında ən böyük nailiyyət müstəqillik əldə etməsidir, digər ən böyük nailiyyət öz yeni xilaskarını tapa bilməsidir. Belə ki, gəlin o dövrü bir anlıq xatırlayaq. 1991-ci ildə yeni müstəqillik qazanmış xalqımız böyük müsibətlərlə qarşılaşmalı oldu. Erməni qəsbkarları öz himayədarlarının köməyi ilə yeni-yeni torpaqlarımızı işğal etdikcə 100 minlərlə qaçqın ordusu paytaxta doğru irəliləyirdi. Vətənini, torpağını qorumaq iqtidarında olan oğullarımız isə müxtəlif hərbi birləşmələrdə birləşib mübarizə aparsa da ordudakı nizamsızlıq sonda gətirib məğlubiyyətə çıxarırdı. Ən böyük bəla isə ondadır ki, silahlı birləşmələr bizi üzdəniraq siyasi qüvvələrin təsirinə düşmüş və onlar arasında münasibətlər kəskinləşmiş, vətəndaş müharibəsinə gətirib çıxarmışdır. Hakimiyyət faktiki olaraq iflic, xalq isə xaos vəziyyətində idi. Torpaqlarımız bir ucdan itirilir, Azərbaycanımızın parçalanması təhlükəsi günü-gündən reallaşmaq üzrə idi. Bu münasibətlərin tam gərginləşdiyi 1993-cü ilə təsadüf edirdi. Bu dəfə də yalnız xalqımızın düzgün seçimi onu xilas edə bildi. Belə ki, 1993-cü ilin 15 iyununda Heydər Əliyevi hakimiyyətə gətirilməsi xalqımızın ən müdrik, ən uzaqgörən addımlarından biri idi. Məhz bu gün sonralar "Qurtuluş" günü kimi bayram ediləcəkdir. Çünki, bu gün xalqının dahi oğlu H.Əliyev dühasının işığında xalq ağır günlərdən qurtaracaq və yeni xoşbəxt günlərə atılacaqdır. Öz taleyini xalqının xoşbəxt gələcəyinə həsr etmiş bu şəxsiyyətin xalqının yolunda etdiyi xidmətlər hələ, əvvəllər də, hakimiyyətdə olanda bitib-tükənmək bilməmişdir. Tezliklə 2-ci dəfə hakimiyyətə gəldikdən sonra Azərbaycanın başı üzərindəki qara buludlar dağılmağa başladı. Sanki Azərbaycanımıza yeni günəş doğdu. Daxili çəkişmələrə son qoyuldu, müharibə müvəqqəti olsa da dayandırıldı, atəşkəs əldə edildi, xarici siyasət düzgün xətt üzrə tənzimləndi, iqtisadiyyatımız inkişaf etdirildi, Neft strategiyası hazırlanıb həyata keçirildi. Demək olar ki, Azərbaycanın xoşbəxt sabahı üçün gərəkli və mümkün olan bütün işlər görülməyə başlandı. Bu işləri görən isə möhtərəm prezidentimiz H.Əliyevin rəhbərliyi altında xalqımız idi. Deməli, xalq öz sevib-seçdiyinin arxasınca gedir, bu şəxsiyyətin ardınca getməməksə mümkün deyil. Bu insan barəsində qalın-qalın kitablar yazılmış, yeni-yeni sözlər deyilmişdirsə də, hələ onun fəaliyyətinin müəyyən hissəsi sözlə ifadə olunmuşdur. Hələ bundan sonra onun fəaliyyəti barəsində neçə-neçə kitablar yazılıb və tədqiq olunacaqdır. "Qurtuluş" günü isə nəinki Heydər Əliyev şəxsiyyətinin, bütün xalqımızın həyatında böyük, önəmli hadisə oldu. Bu bayram münasibətilə nəinki Azərbaycan xalqı - bu günü bütün Azərbaycan sevərlər bayram edir. Biz də bu bayram münasibətilə, möhtərəm prezidentimiz Heydər Əliyevi, onu sevərləri, ümumilikdə xalqımızı təbrik edirik. Biz inanırıq ki, bu şəxsiyyətin müdrikliyi, uzaqgörənliyi və düzgün siyasəti nəticəsində torpaqlarımız düşmən tapdağından tezliklə azad olunacaq, qaçqınlarımız öz ata-baba yurduna qayıdacaqdır. O günsə uzaqda deyil.

---

**Məlikov Natiq Ağarza oğlu 1959-cu ildə Bakı şəhərində anadan olub. 1981-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Müxtəlif rəhbər vəzifələrdə fəaliyyət göstərib. 2001-ci ilin aprel ayından Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı şəhər şöbəsinin rəisi vəzifəsində işləyir. YAP-ın üzvüdür.**



Məlumdur ki, Azərbaycan kimi təbii sərvətlərlə zəngin, torpağı qızıl olan bir ölkənin kənd təsərrüfatı 1969-cu ilə qədər çox acınacaqlı vəziyyətdə idi. Möhtərəm Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrdə dəyərli işlər görüldü. Nəhəng miqyaslı meliorasiya və irriqasiya işləri inkişaf etdirilir, çoxlu dəryaçalar və hidrotexniki qurğular salınır. Cənab Heydər Əliyev kənd əməkçisinin torpağa məhəbbətini və inamını artırır. Bəli! Bütün sahələrə diqqət və qayğı ilə yanaşan hörmətli Prezidentiiz xalqın etimadını doğrultmaqdadır. Azərbaycan qanadlarını silkələyərək artıq geniş dünya səmasında məğrur uçuşuna başlayıb. Nəhayət, ölkəmizin adı, millətimizin imzası dünya xəritəsində layiqincə görünməkdədir.

Azərbaycan iqtidarına ikinci gəlişi ilə ölkəni xaotik bir girdabdan qurtaran Prezident Heydər Əliyev eyni zamanda quruculuq işlərini də davam etdiməyi yegana xilas yolu gördü. Bağlanan müqavilələr Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu günbəgün artırdı. Azərbaycan yavaş-yavaş bütün Qafqazın iqtisadi və mənəvi mərkəzinə çevrilməkdədir və bunu istər Gürcüstanda, istər Rusiya Qafqazında dərk edirlər.

Qeyd etmək vacibdir ki, Heydər Əliyevin millətimiz və bütün Dünya azərbaycanlılarının birliyi naminə apardığı işlər müstəqilliyimiz yolunda bəşəri əhəmiyyət kəsb edir.

İllərlə öz sərhəddindən kənarda tanınınmayan Azərbaycanı planetin şöhrətinə çevirən qüdrətli şəxsiyyətin, misilsiz ağıl sərkərdəsinin xalqa, Vətənə, sözlə ifadə edilə bilməyəcək sevgisi və sədaqəti qarşısında səcdəyə durmaq, bu sədaqət dəryasının heç olmasa, damlası olmaq hər bir azərbaycanlının arzusudur.

Dövlətimizin başçısı Heydər Əliyev fenomeninin Azərbaycan xalqının taleyində oynadığı rol haqqında nə qədər yazılsa, nə qədər yaradılsa da yenə də dəryada damla kimidir. Dahilər haqqında ona layiq söz demək üçün gərək özün də dahi olasan. Axı onun zəkasının nuru 1969-cu ildən bu günə qədər Azərbaycan xalqının ömür yollarını işıqlandırır. O, dünyamızın 62 ölkəsində məskunlaşmış 50 milyonluq azərbaycanlının vahid lideridir.

33 illik hakimiyyəti dövründə xalqa, Vətənə ləyaqətlə xidmət göstərmək, öz sevimli ölkəsini zəif, aqrar bir ölkədən yüksək inkişaf etmiş böyük kənd təsərrüfatı respublikasına çevirmək, geridə qalmış iqtisadiyyatımızı qabaqcıllar sırasına çıxarmaq, qonşu dövlətlərdən başqa heç yerdə tanınmayan Azərbaycanımızı planetimizin sevgi ibadətgahına çevirmək, üçrəngli milli bayrağımızı dünya bayraqları ilə yanaşı dalğalandırmaq, milli himnimizi şərqdən qərbə, şimaldan cənuba-planetimizin bütün ölkələrində dünya himnləri ilə birgə səsləndirmək hər dövlət başçısının hünəri deyil. Bu, Heydər Əliyev müdrikliyinin, Heydər Əliyev qüdrətinin təntənəsidir.

Möhtərəm prezidentimiz sizin hakimiyyətə ikinci dəfə qayıdışınızın 9 illiyi münasibətilə kollektivimiz adından təbrik edirəm. 15 iyun-"Qurtuluş" günü və 14 iyul siyasi fəaliyyətinin 33 illiyi münasibətilə xalqımızın sevincinə qoşularaq "Babadağ" qəzeti vasitəsinə Prezidentimizə Azərbaycanın gələcəyi naminə böyük işlərdə uğurlar, xalqımıza isə xoşbəxt həyat və həmrəylik arzulayıram.

---

**Hacı Xamis Muradov 1943-cü ildə Qax rayonunda anadan olub. 1966-cı ildə Azərbaycan İncəsənət İnstitutunu, 1971-ci ildə isə Moskva Ali rejissorluq və ssenaristlik məktəbini bitirmişdir. 1966-cı ildən kinostudiyada çalışır. Azərbaycan Dövlət Mükafatı Laureatı, Azərbaycan Respublikasının incəsənət xadimi, 2002-ci ildən C.Cabbarlı adına Azərbaycan Film kinostudiyasının direktorudur.**



70-ci illərdə keçmiş SSRİ-nin bəzi respublikalarında ədəbiyyat və incəsənət günləri keçirilirdi. O dövrdə Azərbaycanda da ədəbiyyat və incəsənət günləri keçirilirdi. Möhtərəm prezidentimiz Heydər Əliyevin göstərişi ilə bu günlər respublikanın rayonlarında da yüksəksəviyyədə qeyd olunurdu. Xüsusilə mədənlyyətimizə, incəsənətimizə onun göstərdiyi qayğı təqdirəlayiqdir. 70-ci illərdə incəsənət adamlarına verdiyi fəxri adlar, onların yüksək qiymətləndirilməsi onun sənət adamlarına böyük qayğısından irəli gəlmişdir. O illərdə möhtərəm prezidentimizin göstərişilə kinostudiyaya lazımi aparatura alındı və istifadəyə verildi.

1993-cü ildə onun yenidən hakimiyyətə qayıdışı, Azərbaycanda gedən qarşıdurmanın qarşısının alınması, atəşkəs elan olunması, Azərbaycanın həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və Azərbaycanın beynəlxalq arenada tanınması birbaşa möhtərəm Prezidentimizin 33 illik fəaliyyətinin nəticəsidir. Onun xalqımıza göstərdiyi qayğısından irəli gəlir.

Hər əsr bir şəxsiyyət yetişdirir. XX əsr də xalqımız üçün Heydər Əliyev şəxsiyyətini yetişdirib. Artıq o öz adını tarixə yazmış, dünyada tanınmış siyasətçilərdən biridir.

Mən də Azərbaycan vətəndaşı kimi bu bayram münasibətilə xalqımızı təbrik edir, Prezidentimizə isə uzun ömür, cansağlığı arzulayıram.

# 15 İYUN "MİLLİ QURTULUŞ" GÜNÜ ŞƏKİDƏ BAYRAM ƏHVAL-RUHİYYƏSİ İLƏ QEYD OLUNUR



**Əşrəf MƏMMƏDOV - Şəki Şəhər İcra Hakimiyyətinin başçısı.**

Deyirlər Ulu Tanrı sevdiyi bəşər övladının düçar olduğu sıxıntıdan, üzləşdiyi bəladan xilas olması üçün hər əsrdə ona bir dahi bəxş edir. Bu baxımdan Azərbaycan xalqı Tanrıya daha yaxın və şükran xalqdır. Çünki Heydər Əliyev kimi dahini bu millətə yüz ildə yox, əsrin üçdə birində bəxş edib. Özü də bir qərinədə iki dəfə.

Ulu Tanrı ilk dəfə onu bizə 1969-cu ildə, ikinci dəfə isə 1993-cü ildə göndərdi.

Heydər Əliyev Azərbaycan tarixinin tək-tək dahilərinə, böyük dövlət xadimlərinə nəsib olan qlobal işlər görmüş, doğma Azərbaycanımız naminə misilsiz, fanatik fəaliyyət göstərmişdir. 70-ci illərdə Azərbaycanda reallaşan geniş miqyaslı sosial-mədəni, iqtisadi tikinti-quruculuq işləri, bütöv milli-mə'nəvi oyanış, dirçəliş, xalqın tarixi potensial imkanlarının, yaddaş enerjisinin müdrik uzaşgörənliklə səfərbər, ümumi inkişaf, intibah yoluna istiqamətləndirilməsi - dərin sosial psixoloji analitik təhlilə, ciddi elmi tədqiqata ehtiyacı olan bu fenomenal fəaliyyət Heydər Əliyevə məxsusdur.

1993-cü ilin 15 iyununda xalqın arzusu, tə'kidi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev azadlıq, müstəqillik yolunda kövrək addımlarını atan Azərbaycan Respublikasını siyasi iflasdan, qlobal məhvolmadan, separatist zərbələrlə parçalanaraq bölüşdürülmə faciəsindən xilas etdi. Ona görə həmin gün hər il "Milli Qurtuluş" günü ümumxalq bayramı kimi qeyd olunur. Bu, təkcə sosial-siyasi qurtuluş yox, həm də bütöv iqtisadi tənəzzülün qarşısının alınması, iqtisadiyyatda, eləcə də Azərbaycan neft sənayesində yeni dövrün başlanğıcı idi. 1969-82-ci illərdə, 14 illik hakimiyyəti ərzində Azərbaycan neft sənayesinin əsaslı şəkiidə yenidən qurulmasına rəhbərlik edən Heydər Əliyev 1993-cü ilin 15 iyunundan başlayaraq qısa müddətdə bu sahənin konseptual, elmi-strateji inkişaf yollarını müəyyənləşdirdi.

Yeni, müstəqillik dövrünün ciddi tələb və təklifləri neft sənayesində qapalı yox, dünyəvi siyasət yeridilməsini gündəliyə çıxarmışdı. Heydər Əliyev vaxt itirmədən bu tarixi zərurəti Azərbaycan xalqının, dövlətinin yaxın və perspektiv, milli, siyasi-strateji maraqları ilə ələqələndirərək beynəlxalq müqaviləyə - "Əsrin müqaviləsi"nə nail oldu. "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın suveren hüquqlarının bərqərar olduğunu, müstəqil dövlət olaraq öz sərvətlərinə tam sahib olduğunu dünyaya bir daha göstərdi. Heydər Əliyevin 1994-cü ildə göstərdiyi, qəbul etdiyi neft strategiyası yoluna indi bütün Xəzər regionu dövlətləri qoşulub. Bu yaxınlarda Türkmənistanda Azərbaycan öz mövqeyini bir daha təsdiqlədi, əsas ölkələrin müsbət münasibətlərinə nail oldu. Bu Heydər Əliyevin siyasi-diplomatik uzaqgörənliyinin daha bir təsdiqidir. Onun dedikləri mərhələ-mərhələ həyata keçir, praktik reallığa qoşulur.

Heydər Əliyev ideyalarının əsas, bütöv, son məqsədi, məramı Azərbaycanın əbədi azadlığıdır.

Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə hakimiyyətə xilaskar qayıdışı, əslində, əsl müstəqillik dövrünün başlanğıcı oldu. "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib Azərbaycanın xilası, əbədi qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi. Bir daha vurğulamaq istəyirəm ki, 18 oktyabrla bünövrəsi qoyulan, 15 iyunla məhvolmadan xilas edilən "Milli Qurtuluş" yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi. 1994-cü ilin mayında atəşkəsə nail olması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə böyük beynəlxalq iqtisadi sazişin - "Əsrin müqaviləsi"nin imzalanması, Milli Ordunun yenidən qurulması, ölkə daxilində dağıdıcı anarxiyaya, hərc-mərcliyə son qoyulması, sosial-siyasi, iqtisadi sabitliyin bərqərar edilməsi, xüsusilə iqtisadi dirçəlişin başlanması, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, böyük İpək Yolunun bərpası istiqamətində həlledici addımlar atılması, Bakı-Tbilisi-Ceyhan əsas neft ixracı xəttinin tam reallaşması - bütün bunlar "Milli Qurtuluş" günü ilə başlayan tarixi uğurların bir hissəsidir. Bəli, indi tam cəsarətlə deyə bilərik ki, Heydər Əliyevin xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqilliyimiz qorundu, Milli Qurtuluş yolumuz davam etdi, əbədi və dönməz xarakter aldı. Onu da məmnuniyyətlə vurğulamaq, səmimiyyətlə bildirmək istəyirəm ki, azad, müstəqil Azərbaycan dövlətini yeni, XXI əsrin ilk günlərindən başlayan böyük yolun öndəri, dahi yolgöstərəni də Heydər Əliyevdir. Bu yolun böyük uğurlara , əbədi xoşbəxtliyə qovuşacağına inanırıq. Buna Heydər Əliyevi özünə prezident seçən bütün Azərbaycan xalqı, dünyanın 50 milyonluq bütün azərbaycanlılan inanır.

O, baharda, 1923-cü ilin 10 mayında doğulub. Bahar yenilik, təzəlik fəslidir. Heydər Əliyev, daim yeriliyə, ümumxalq miqyaslı böyük quruculuq işlərinə, Azərbaycanın ədəbi və dönməz tərəqqisinə, milli-mə'nəvi inkişafına, intibahına can atıb, bu yolda misilsiz uğurlara, tarixi qələbələrə nail olub. Füzuli və Qorqudların mə'nəvi qüdrətinə söykənib, Babək və Xətailərin enməz ucalığına arxalanıb, xalqının ümid və arzularından, azadlıq və milli istiqlal eşqindən güc alıb, Azərbaycanın dahi xilaskarı olub Heydər Əliyev. Xalqımız xoşbəxtdir ki, müdrik prezidentimiz Heydər Əliyev yenə əbədi bahar ömrüylə Azərbaycanı irəli aparır.

Əziz prezidentimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biri də ölkə və onun gələcəyi üçün İlham Əliyev kimi şəxsiyyəti, artıq bütün beynəlxalq aləmdə respublikanı uğurla təmsil etdiyini, onun mənafelərinin göz bəbəyi kimi qoruduğunu nümayiş etdirmiş zəkalı bir siyasi xadimini yetirməsidir. Heydər Əliyev məktəbinin ən ləyaqətli və iste'dadlı nümayəndəsi kimi İlham Əliyev Azərbaycan siyasətində yeni parlaq simadır. Müdriklik isə artıq onun bütün varlığını sarmış bir keyfiyyətdir. Şübhə etməmək olar ki, Azərbaycan gələcəkdə də müdriklik təməli üzərində pərvəriş tapıb ucalacaq. Qoca Şərqin qarşısında səadət və xoşbəxtlik diyarı kimi nur saçacaq.

*"Babadağ" qəzeti vasitəsilə bütün Şəki əhalisi adından və şəxsən öz adımdan 15 iyun - "Milli Qurtuluş" günü və 33 illik siyasi fəaliyyəti münasibətilə xalqımızı təbrik edir, Heydər Əliyev dühasına cansağlığı, yorulmaz fəaliyyətində uğurlar diləyirəm. Xalqın nicat yolu onun əlindədir.*



**İbrahimov Firədun Nadir oğlu 1952-ci ildə Şəki rayonunun Udla kəndində anadan olub. 1972-ci ildə APİ-nin Riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1978-1982-ci illərdə həmin institutun aspiranturasında oxuyub. Sonra Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunun doktoranturasını bitirib.**

**12 monoqrafiyanın, 50-dən çox elmi məqalənin müəllifidir. Uzun illər təhsil sistemində rəhbər vəzifələrdə çalışıb. Hal-hazırda Şəki şəhəri İcra Hakimiyyəti aparatında ictimai təşkilatlar və siyasi partiyalarla iş şö'bəsinin müdiri vəzifəsini icra edir.**

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HEYDƏR ƏLİYEVƏ

Möhtərəm cənab prezident!

Sizi-siyasi müdrikliyi və cəsarəti sayəsində Azərbaycanı xilas etmiş, uzaqgörənliyi, səmərəli və coşqun fəaliyyəti ilə böyük hörmət və ehtiram qazanmış ulu bir sərkərdəni, suverenliyimizin, müstəqilliyimizin əbədi olmasına tə'minat yaratmış, dövlət quruculuğunun və iqtisadi islahatların milli mentalitentimizə uyğun həyata keçirilməsinə xalqımızı səfərbər etmiş, intensiv və incə strategiyalı diplomatik fəaliyyət ustasını, azərbaycançılığı və türkçülüyü şərəfləndirən dahi rəhbərimizi, dünya şöhrətli siyasətçini doğum günü münasibətilə bütün şəkililər adından, şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, Azərbaycanın müstəqilliyi, xoş gələcəyi naminə gördüyünüz böyük işlərdə uğurlar arzulayıram.



**Salyan rayon 12 saylı Yol Distansiyasının rəisi Əfəndiyev Nizami Zahid oğlu. 1956-cı ildə Qazax rayonunda anadan olub. Xarkov Dəmir Yolu İnstitutunu bitirib. Evlidir, 2 övladı var. YAP-ın üzvüdür.**

Möhtərəm prezidentimiz Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının qarantıdır. 1993-cü ildə hakimiyyətə gəlişi xalqın istək və arzusu idi. Çünki Azərbaycanın o vaxt dağılmaq təhlükəsi vardı. Xalqın son ümidi müdrik siyasətçi Heydər Əliyev cənabları idi. Məhz onun səyi nəticəsində Azərbaycanın daxilində gedən çəkişmələrə son qoyuldu. Atəşkəsə nail olundu... 1994-cü ildə Azərbaycanın tarixində müsbət hadisə kimi yadda qalan "Əsrin müqaviləsi" bağlandı. Dövlətimiz günü-gündən çiçəklənir və inkişaf edir. Bütün bunlar yalnız hörmətli prezidentimiz Heydər Əliyev şəxsiyyətinin adı ilə bağlıdır. Mən də xalqımızı "Qurtuluş" günü münasibətilə təbrik edirəm. Xalqımıza isə Heydər Əliyev cənablarının ətrafında sıx birləşməyi və uğurlu gələcəyə inamla addımlamağı arzu edirəm.



**Səbayel rayon Qaz-İstehsalat birliyinin rəisi Əfəndiyev Akif Ələddin oğlu. 1977-ci ildə Şəki qaz- istismar idarəsində çilingər kimi ilk əmək fəaliyyətinə başlayıb. 2000-ci ilə qədər Şəki şəhər Qaz-İstismar idarəsinin rəisi olub. 2000-ci ilin İyun ayından 2001-ci ilin yanvar ayına qədər Gəncə şəhər Qaz İstismar idarəsində rəis işləyib. 2001-ci il fevralın 1-dən Səbayel rayon Qaz İstehsalat Birliyinin rəisidir.**

Müstəqilliyimiz əbədidir, müstəqilliyimiz daimidir. Çünki bu müqəddəs yolumuz "Qurtuluş" günü kimi şərəfli bir gündən özünə başlanğıc götürmüş və bu yol da bizim xalq üçün həmişəlikdir. 1993-cü ildə möhtərəm prezidentimiz Heydər Əliyev cənabları hakimiyyətə yenidən qayıdandan sonra vətəndaş müharibəsinə son qoyuldu. Ordu quruculuğuna başlandı. Azərbaycan yer üzündən silinmək təhlükəsindən qurtardı. Bütün bunlar sevimli prezidentimizə olan ümumxalq məhəbbətini artırdı. Xalq-rəhbər birliyi yarandı. Artıq tarixin bu zillətli günləri geridə qalmış, unudulmamış, əksinə olaraq yaddaşlarda yazılmışdır.

Bu gün yaşadığımız müstəqil Azərbaycan dövləti özünün gələcəyə doğru inkişaf estafetini götürmüş, sabahı inamla açır. Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının səyi və istedadı sayəsində dövlətimizin qüdrəti daha da artmış, dünya dövlətləri tərəfindən nüfuzlu bir dövlət kimi qəbul olunmaqdadır. Tarix 100 illər ərzində nadir hallarda belə şəxsiyyətlər yetirir. Onun qüdrəti bizim qüdrətimizdir. Mən də xalqımıza bu bayram günündə səmimi qəlbdən təbrik edirəm. Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarına daimi mübarizlik arzu edirəm.

# Milyonların ümidi



Mən hələ 1988-ci ildən dünya şöhrətli, bacarıqlı siyasi xadim möhtərəm prezidentimiz cənab Heydər Əliyevin respublikaya rəhbərlik etməsini istəmişəm. Bu istiqamətdə əlimdən gələni etmiş, onun apardığı siyasəti ardıcıl olaraq dəstəkləmişəm. Elə buna görə, həmin ərəfələrdə mənim kimi düşünən ziyalılarla birlikdə təqib və təzyiqlərə məruz qalsaq da, öz mövqeyimizdən çəkilmədik, ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq üçün, müdrik siyasətçimiz cənab Heydər Əliyevə bir qrup ziyalı adından məktub göndərdik. Xalqın iradəsini nəzərə alan prezident ağır məsuliyyəti çiyinlərinə götürərək, ölkədə yaranmış xaos vəziyyətinin qarşısını aldı. Torpaqlarımızı parçalanma təhlükəsindən xilas etdi. Ölkədə əsaslı islahatlar apardı, konstitusiyamız və yeni qanunlar qəbul edildi. "Əsrin müqaviləsi" kimi məşhur ən böyük neft kontraktı da məhz möhtərəm prezidentimizin gərgin əməyi və səyi nəticəsində bağlandı. Xalqımız bunun bəhrəsini tezliklə görəcək. Bu barədə çox danışmaq olar. Amma görülən işlər göz qabağındadır və xalq bunu görür və dəyərləndirir. Azərbaycanın inkişafı naminə gecə-gündüz işləyən Heydər Əliyev Qarabağ məsələsini siyasi yolla həll etməyə çalışır.

İşğala məruz qalmış, minlərlə şəhid



**AĞDAM RAYON İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI HƏSƏN SARIYEV**

vermiş, illərlə göz yaşı axıdan Ağdam daha çox ehtiyyac duyur sülhün qərarına.

Artıq beynəlxalq ictimaiyyətə həqiqətlər bəlli olub, ölkəmiz və xalqımız haqqında erməni lobbisinin təşkil etdiyi təbliğat kompaniyası darmadağın edilib. İnanıram ki, məhz onun rəhbərliyi altında xalqımızın bir nömrəli problemi olan Qarabağ problemi həll ediləcək, işğal olunmuş torpaqlarımız yağı düşmənlərin tapdağından xilas ediləcək və bir milyondan çox qaçqınlarımız dədə-baba torpaqlarına qayıdacaqdır. Xalq möhtərəm prezidentimizə inandığı üçün, ölkədə fəaliyyət göstərən ən böyük partiya məhz YAP-dır. Günü-gündən partiyanın sıraları genişlənməkdədir. Heydər Əliyevin davamçısı kimi isə, onun siyasi məktəbini keçmiş cənab İlham Əliyevi görürəm. Qoy Ulu Yaradan istər ata, istərsə də oğul Əliyevə can sağlığı, uzun ömür, işlərində müvəffəqiyyətlər yetirsin.

# Xalq öz böyük, sınanmış liderinin sayəsində "Milli qurtuluşa" nail oldu



**GƏNCƏ ELEKTRİKŞƏBƏKƏ AÇIQ TİPLİ SƏHMDAR CƏMİYYƏTİN SƏDRİ SALEH MÜRSƏL OĞLU CƏFƏROV**

**- Saleh müəllim, Sizin mülahizələrinizə görə, 15 iyun "Milli qurtuluş günü" Azərbaycan tarixində nə kimi yer tutmaqdadır? Bu tarixi günün əhəmiyyəti nədən ibarətdir?**

- Azərbaycan tarixində əlamətdar, yadda qalan günlər az deyildir. Lakin bu günlərdən ən önəmlisi, ən müqəddəsi 1993-cü ilin 15 iyun günüdür. Məhz bu gün ölkəmiz üçün çox ağır bir məqamda, vətəndaş müharibəsi qığılcımlarının közərdiyi, Respublikamızın "olum, ya ölüm" dilemması qarşısında qaldığı bir vaxtda, xalqımızın təkidi ilə müstəqilliyimizin simvolu, həyatını xalqının yolunda qurban verməyə hazır olan cənab Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldi. Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratı həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması əslində Onun, müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "Ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" - deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi.

Lakin AXC - Müsavat rejimindən Heydər Əliyevə son dərəcə ağır miras qalmışdı. Siyasi oyunlara və hakimiyyət çəkişmələrinə cəlb edilmiş ordu çaş-baş düşüb öz döyüş qabiliyyətini itirmişdi. Naşılıq və səriştəsizlik nəticəsində dövlət aparatı demək olar ki, dağılmış, idarəetmə və nəzarət funksiyalarından məhrum olmuşdu. 1993-cü ilin iyun günlərində Azərbaycan təkcə siyasi, hərbi, iqtisadi deyil, həm də mənəvi böhran içərisində idi. Cəmiyyətdə ümidsizlik və inamsızlıq əhval-ruhiyyəsi kök atmağa başlamışdı.

Heydər Əliyevin qarşısında yalnız ölkəni böhran vəziyyətindən çıxarmaq deyil, həm də xalqın geniş təbəqələrini Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşdirmək, ona ümid və inam aşılamaq, qətiyyət və mübarizlik təlqin etmək vəzifəsi dayanırdı.

O, Azərbaycan xalqının xilaskarı kimi yenidən siyasi əzmi, zəngin dövlətçilik təcrübəsi və siyasi fəhmi ilə tezliklə bu mühüm vəzifələrin öhdəsindən gəlməyə tam qadir olduğunu göstərdi.

Siyasi hakimiyyətə qayıtdığı ilk gündən Heydər Əliyev elə bir dövlət qurmağa başladı ki, bu dövlət həm özünü, həm də vətəndaşlarını qorumağa tam qadir olduğunu dönə-dönə sübut etmişdir.

Bir əsrdə ikinci dəfə milli dövlətçiliyi dağılmaq təhlükəsi qarşısında qalan Azərbaycan xalqı yalnız Heydər Əliyev dühasına arxalanaraq öz dövlətini qorudu, qurdu və möhkəmləndirdi.

Xalq öz böyük, sınanmış liderinin sayəsində "Milli qurtuluşa" nail oldu. Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanı Azərbaycana verdi.

**Gəncəelektrikşəbəkə ATSC-nin istismara, təmirə və satışa nəzarət şöbəsinin rəisi Abbasov Paşa Novruz oğlunun dediklərindən:**

- Bizim Gəncəelektrikşəbəkə Səhmdar Cəmiyyətin rəhbərliyində dekabr ayının 5-də kadr dəyişikliyi olunmuşdur. Bu da əvvəllər Səhmdar Cəmiyyətin rəhbərliyində yol verilən nöqsanlarla əlaqədardır.

Respublikamızın Möhtərəm prezidenti Heydər Əliyevin rəhbərliyi altında, Respublika rəhbərliyinin verdiyi göstərişə əsasən Saleh Cəfərov cəmiyyətə sədr təyin edildi. Respublikamızda gedən iqtisadi, siyasi dirçəlişlə bağlı olaraq Cəmiyyətin sədri təyin olunan Saleh Cəfərova da xüsusi tapşırıq və göstərişlər verilmişdir. Bu tapşırıqlarda Gəncəelektrikşəbəkə ATSC-də Azərbaycan Respublikasının qərb regionu üzrə elektrik enerjisindən düzgün istifadə, onun pul ödənişinin yığımı və istismarının bərpası məsələləri də qeyd olunmuşdur.

Bu istiqamətdə, Saleh Cəfərov cənabları Səhmdar Cəmiyyətin rəhbərliyinə gələn müddətə qədər elektrik enerjisinin pulunun yığımı 1 milyard 200 milyon manat təşkil etmişdir. Bu yığım hər ay sürətlə artırılaraq dekabr ayı ilə müqayisədə 7 milyarddan çox elektrik enerjisinin haqqı yığılmışdır ki, bu da əvvəlki illərlə müqayisədə çox böyük göstəricidir. Bu istiqamətdə aparılan işlər arasında Qərb regionunda olan elektrik naqillərinin bərpası, dirəklərin dəyişdirilməsi, yarımstansiyaların qurulması, əvvəllər istifadə olunan müxtəlif yarımstansiyaların bərpa olunaraq yerlərinə çatdırılması məsələlərinə də çox ciddi diqqət yetirilmişdir. Buna misal olaraq göstərə bilərəm ki, Balakən rayonunun Katex kəndində böyük bir yarımstansiya tikilərək Qərb regionu əhalisinin istifadəsinə verilməsi məsələsi də həll olunmuşdur. Ümumiyyətlə belə bir iri həcmli yarımstansiyanın tikintisi 6-8 ay müddətinə başa gəlir, lakin cəmiyyətin və rayonun daxili imkanlarından səmərəli istifadə edərək bu yarımstansiyanın tikintisi 1 ay müddətinə başa çatdırılmışdır. Möhtərəm prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında regionda yerləşən qaçqın və köçkün qəsəbələrində elektrik enerjisi təminatının bərpası istiqamətində də bir sıra müvəffəqiyyətli addımlar atılmışdır. Bununla belə qeyd etmək istəyirəm ki, Bərdə rayonunun Qızıl Ay çadır şəhərciyində qaçqınlara üçün yarımstansiya quraşdırılmış, bir neçə kilometr elektrik naqilləri çəkilərək qaçqınların istifadəsinə verilmişdir. Qaçqınlar arasından həmin xətlərə xidmət etmək üçün bir neçə nəfər işə götürülmüşdür. Qeyd etmək istəyirəm ki, regionda olan Kəlbəcər rayon əhalisinin yerləşdiyi Xanlar rayonu ərazisində də elektrik enerjisi ilə təmin olunma məsələsi diqqətimizdədir. Bizim sədrimiz, möhtərəm prezidentimiz Heydər Əliyevin qayğısına və diqqətinə uyğun olaraq qaçqın və köçkün ailələrinin daim elektrik enerjisi ilə müvafiq qaydada təchiz olunmasını bərpa etmişdir. Bununla yanaşı regionda yarımstansiyaların təmiri sexləri təşkil edilmişdir ki, bu da öz əhəmiyyətini göstərməyə başlamışdır. Regionda ləğv olunan, yararsız vəziyyətə düşmüş transformatorları dərhal yerində bərpa etmək üçün bir neçə təmir sexləri də təkilib istifadəyə verilmişdir. Rayonlarda regional sexlərin də tikilib istifadəyə verilməsi davam etdirilir. Hörmətli prezidentimiz cənab Heydər Əliyevin 893 saylı 25 mart tarixli sərəncamına əsasən əhali və ticarət- kommersiya, sənaye obyektlərindən elektrik enerjisi istifadəsinin haqqının yığımının artırılması tədbirləri barədə verdiyi sərəncamın yerinə yetirilməsi ilə əlaqədar olaraq hal-hazırda regiona pulsuz olaraq elektrik sayğacları gətirilmiş, rayonlarda kompakt kəndlərin elektrik sayğacları ilə pulsuz olaraq təminatı işinə başlanmış və bu gün də bu işlər Mingəçevir şəhərində, Yevlax, Goranboy, Xanlar, Samux, Şəmkir və s. rayonlarda davam etdirilir.

Bununla yanaşı olaraq regionda elektrik enerjisinin haqqının normal toplanması vəzifəsi qarşımızda qoyulduğuna görə Səhmdar Cəmiyyətin daxili əmrinə əsasən regionda olan iri tutumlu ticarət, xidmət-kommersiya və sənaye obyektlərinin bir qrupu nəzarət qaydasında Səhmdar Cəmiyyətin nəzarətinə götürülmüş və bu qısa zamanda nəzarətdə olan obyektlərdən əldə olunan elektrik enerjisinin haqqı 30 %-dək yüksəlmişdir ki, bunu da yaxşı göstərici hesab etmək olar.

Onu da bildirim ki, əhalidə, ticarət və kommersiya obyektlərində elektrik enerjisindən sui istifadə etmə hallarının qarşısını almaq məqsədi ilə bir neçə qruplar yaradılmış və enerji açılmaları təmin edilmişdir ki, bu da 893 saylı sərəncamın tələblərinə uyğundur. Bununla yanaşı hörmətli prezidentimizin verdiyi sərəncamın təbliğat hissəsinə də başlanılmışdır. Bütün rayon rəhbərləri, rayon İcra Hakimiyyəti orqanları, bələdiyyələrlə sıx iş qurulmuş və bütün bünların nəticəsi kimi enerji haqqının yığımında artıq müvəffəqiyyətlər əldə olunmaqdadır. Sonra qeyd etmək istəyirəm ki cənab Saleh Cəfərovun Cəmiyyətin sədri təyin olunduğu müddətdən etibarən aylıq əmək haqqlarının verilməsi prosesi gedir, hər ay əməkçilər öz əmək haqqlarını alırlar. Bununla yanaşı əməkçilər üçün xüsusi geyimlər gətirilmiş, onların isti paltarlarla və ayaqqabılarla təmin olunması təşkil olunmuşdur.

Görülən işlərin tutumu haqqında saatlarla danışmaq olar. Lakin qısa olaraq bildirmək istəyirəm ki, işlərimizin uğuru istiqamətində bütün labüd və lazımi imkan və tədbirlərdən istifadə olunur. Mənə elə gəlir ki, regionun enerji abonentləri bu irəliləyişləri yaxın gələcəkdə hiss edəcəklər. Çünki, biz bütün işlərimizi dünya şöhrətli prezidentimiz Heydər Əlirza oğlu Əliyevin yeritdiyi iqtisadi siyasətə uyğun qururuq və bundan qürur duyuruq.

# Heydər Əliyev mətanət və dəyanət sahibi olan bütöv şəxsiyyətdir



**İbrahimov Ramiz Kamal oğlu 1951-ci ildə Göyçay rayonunun Ləhçıplaq kəndində anadan olub. 1974-cü ildə AZPİ-nin "hidromelorasiya" fakultəsini bitirib. Uzun müddət melarasiya sistemində işləylb. 2001-ci ilin iyun ayında Göyçay rayon İcra Hakimiyyəti başçısının I müavini vəzifəsinə tə'yin olunub. 1993-cü ildən YAP yaradıcılarından biridir. YAP Göyçay rayon təşkilatatının sədri vəzifəsini icra edir. Ailəlidir, 3 övladı var.**

Heydər Əliyev böyüklüyü, Heydər Əliyev nuru nə zaman çərçivəsində sığır, nə də məkan hüdudlarına... Onun qüdrəti Allahın verdiyi sonsuz müdrikliyə, sınmaz qətiyyətə arxalanır. Heydər Əliyev qüdrəti xalqına sönməz məhəbbətdən, elinə, obasına, vətəninə qırılmaz tellərlə bağlılığından irəli gəlir.

Nəhayət Heydər Əliyev qüdrəti xalqın etimadından, inamından qüvvət alır yenilməzliyə çevrilir. Böyük şəxsiyyətlər dünyaya böyük işlər görmək üçün gəlirlər. Taleyin onların qarşısında irəli sürdüyü vəzifələr nə qədər böyük, nə qədər mürəkkəb olursa, təbiətin onlara verdiyi güc, qüdrət də o qədər sönməz, tükənməz olur.

Bu ilin yanvar ayında dövlət başçısının uzun illərdən bəri apardığı məqsədyönlü siyasəti nəticəsində Respublikamız Avropa Şurasına tam hüquqlu üzvlüyünə qəbul olundu.

Bayrağımız Strassburqda dalğalandı..

Prezidentimizin Paris görüşləri Azərbaycanın gələcəkdə dünya birliyində ən layiqli yerlərdən birini tutacağına əminlik yaradır... Bu hadisə eyni zamanda Heydər Əliyevin rəhbərliyi altında xalqımızın azadlıq, müstəqillik uğrunda apardığı mübarizənin tarixi təntənəsi idi.

Dahi vətənpərvər prezidentimiz Heydər Əliyevin respublikamızda rəhbərliyinin ən müəkkəb dövrü Azərbaycanın müstəqilliyi ilə bağlıdır. Xalqın böyük təkidi ilə hörmətli Prezidentimiz yenidən respublikamızda rəhbərlik etməyə razılıq verdi. 1993-cü ilin təlatümlü yay ayları. Müstəqil Azərbaycan ölüm-dirim dilemması qarşısında idi. Qonşu dövlətlərin ikiüzlü işğalçılıq siyasəti, erməni qanıçənlərin və yerli satqın vəzifəpərəstlərin xislətində Azərbaycanı parçalamağa, dövlətçiliyimizi məhv etməyə yönəlmişdi. Xalqın ölüm-dirim məqamında bu yükün altına ancaq və ancaq nəhəng şəxsiyyət və əsl vətəndaş girə bilərdi. Cənab Heydər Əliyev xalqın vətənpərvərlik hisslərini, müstəqillik, azadlıq, demokratik istəyini çox gözəl duyurdu. Bu istəyi ümumi məcraya yönəldə biləcəyinə əmin olan Heydər Əliyev vətəndaşlığı, vətənpərvərliyi ilə xalqın müstəqillik əzmi qırılmaz tellərlə bir-birinə sarılmışdı. Xalq istəyi, xalq məhəbbəti böyük qüvvədir. Nəhəng şəxsiyyətlərin böyüklüyü ondadır ki, xalqın istəyindən, gücündən düzgün istifadə edə bilər.

Heydər Əliyev ucalığına dəlalət edən xüsusiyyətlərdən biri də odur ki, O, mətanət və dəyanət sahibi olan bütöv şəxsiyyətdir. Həyat və fəaliyyətinin bütün dövrlərində öz doğma torpağına tam varlığı ilə bağlı olan Heydər Əliyevin hakimiyyətdə olduğu bir müddətdə heç kəs Azərbaycan torpağının bir qarışını belə ələ keçirə bilməmişdir. Tarix boyu Azərbaycan torpaqları iddiasında olan erməni millətçiləri müdrik prezidentimiz qarşısında bu mövzunu ağızlarına belə ala bilməmişlər. Lakin, danılmaz faktdır ki, üzü Şah İsmayıldan bəri, o cümlədən, Sovet hakimiyyəti illərində Azərbaycanın başında duran bütün rəhbərlərin dövründə ərazilərimiz az və ya çox dərəcədə əldən verilib.

1988-93-cü illərdə - Heydər Əliyevsiz Azərbaycan daha dəhşətli itkilərə məruz qaldı. Düşmən üstümüzə ayaq aldı, torpaqlarımız işğal edildi, insanlarımız didərgin düşdü, soydaşlarımız həlak oldu, qırıldı. Ən dəhşətlisi isə o oldu ki, ölkədə özbaşınalıq yarandı. Məhz bu vaxt silahlı qruplaşmalar vətəndaş müharibəsi həddinə gətirib çıxardı. Özbaşınalıq və xaos Azərbaycan müstəqilliyini təhlükə altında qoydu. Vətəndaş müharibəsinin dəhşətli alovları artıq közərmişdi. Öz müstəqilliyinə yenicə qovuşan Azərbaycan xalqının müqəddəratı xarici və daxili düşmənlərin nəzarətinə keçməyə başadı. Tarixin belə bir mürəkkəb məqamında xalq yenə də öz xilaskarını axtarıb tapdı, onu - Heydər Əliyevi israrla tələb etdi. O, həmişə olduğu kimi, xalqın çağırışına doğma münasibət bəslədi.

Siyasi hakimiyyətsizliyə, iddialı siyasətbazların naşı eksperimentlərinə, cinayətkar dəstələrin qətl və qarətlərinə, dərəbəyliyə son qoyuldu. Cəbhə bölgəsində atəşkəsə nail olundu.

Ölkəmiz dünya dövlətləri ilə bərabərhüquqlu, geniş miqyaslı beynəlxalq müqavilələr bağlamaqla, milli sərvətimizə sahib durur. Bütün bunlar isə möhtərəm prezidentimizin əvəzolunmaz xidmətlərinin bəhrəsidir.

Yaranmış fürsətdən istifadə edib, "Babadağ" qəzeti vasitəsilə 15 iyun - möhtərəm prezidentimiz Heydər Əliyevin hakimiyyətinin 33 illiyi münasibətilə bütün Göyçay əhalisi adından və şəxsən öz adımdan Prezidentimizi, bütün YAP-çıları və xalqımızı ürəkdən təbrik edirəm və daimi mübarizlik diləyirəm.

**Məmmədov Eldəniz Müzəffər oğlu 1955-ci ildə Göyçay rayonunda anadan olub. 1981-ci ildə Gəncə şəhər Kənd Təsərrüfatı İnstitutunun "zoom mühəndis" fakültəsini bitirib. 1999-cu ildən YAP Göyçay rayon təşkilatının sədr müavini seçilib. 2000-ci ildən Göyçay rayon İcra Hakimiyyəti aparatında siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsində işləyir. Ailəlidir, 3 övladı var.**



15 iyun "Milli Qurtuluş" günü müdrik siyasətçinin, təcrübəli və iradəli dövlət xadiminin hakimiyyətə qayıdışı ölkəmizdə yaranmış ab-havanı dəyişdirdi. Azərbaycan tarixinin Heydər Əliyev dövrü özünün yeni, şərəfli, əzəmətli mərhələsinə daxil oldu. Möhtərəm prezidentimiz Heydər Əliyev Azərbaycan dövlətçiliyinin bütövlüyünü qoruyub saxlaya bildi. Yaralı yerimiz olan Dağlıq Qarabağ probleminin həlli yönümündə prezident Heydər Əliyevin geniş və çoxşaxəli fəaliyyətinin əsas məzmunu münaqişənin beynəlxalq normalara uyğun və dünya ictimiyyətinin yaxından köməyi ilə nizama salınması oldu. Vaxtilə dünya siyasətindən demək olar ki, təcrid olunmuş, informasiya blokadasında saxlanılan, haqqı tapdandığı halda erməni təbliğatı sayəsində üstəlik dünya birliyinin də qınağına tuş gələn ABŞ konqresinin 1992-ci ildə qəbul etdiyi məlum 907-ci düzəlişlə ayrı seçkiliyə məruz qalan Azərbaycan yanız və yalnız Heydər Əliyevin fəal diplomatiyası nəticəsində dünyanın bütün diplomatik dövlətlərin və aparıcı təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətini kökündən dəyişdirməyə nail ola bildi. Azərbaycana, onun problemlərinə dünya birliyinin münasibətindəki təkamül prosesi özünü ATƏT-in Budapeşt və xüsusən də Lissabon sammitlərində qabarıq şəkildə biruzə verdi. Lissabon sammitində ilk dəfə olaraq ATƏT-in 54 üzvündən 53-ü Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi.

Bu gün Azərbaycanın qapıları bütün dünyaya açıqdır. Dövlət başçısının apardığı məqsədyönlü siyasət nəticəsində respublikamız beynəlxalq təşkilatların, birliklərin, iqtisadi və maliyyə qurumlarının üzvüdür. Azərbaycanın BMT, ATƏT kimi nüfuzlu təşkilatlarla əməkdaşlığının dayanıqlı xarakter kəsb etməsi, NATO ilə tərəfdaşlıq əlaqələrinin yaradılması və getdikcə güclənməsi qazandığımız nailiyyətlərin real nəticəsidir. 1994-cü ildə dünyanın 7 ölkəsinin aparıcı neft şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkətinin imzaladığı "Əsrin kontraktı" adını aldı. Bu Azərbaycanın uğurlu neft strategiyasının təməl daşı idi. Bu siyasət təkcə Azərbaycanın deyil, neftlə zəngin olan Xəzər hövzəsinin bütövlükdə dünyaya yenidən təqdim etdi.

Ölkəmizin təbii sərvətlərindən xalqının xoş gələcəyi naminə düzgün istifadə etməyi nümayiş etdirən Heydər Əliyev zəkasının qələbəsidir.

Allahdan dahi rəhbərimiz Heydər Əliyevə möhkəm cansağlığı, uzun ömür, torpaqlarımızın azad edilməsi, millətimizin rifah halının daha da yaxşılaşdırılması naminə fədakar əməyinin müqabilində böyük qüvvə və sağlamlıq diləyirəm.

**Asif Nəbiyev - 1952-ci ildə Göyçay rayonunun Çərəkə kəndində anadan olub. 1972-ci ildə N.Tusi adına APİ-nin "riyaziyyat" fakültəsini bitirib. 1994-cü ildən Göyçay rayon təhsil şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərir.**



Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra istər daxili, istərsə də xarici əlaqələrini bütün sahələrdə inkişaf etdirdi. Bu inkişaf dövrü əsasən hörmətli Prezidentimiz Heydər Əliyevin adı ilə bağlıdır. Möhtərəm Prezidentimizin düzgün və əvəzedilməz siyasi fəaliyyəti nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz layiqli yerini tutmuşdur. 1993-cü ildə cənab Heydər Əliyev hakimiyyətə gələndən sonra bir çox problemlərimiz öz həlli yolunu tapmışdır. Aparılan islahatlar Respublikamızı əsl hüquqi, demokratik, iqtisadi cəhətdən qüdrətli dövlətə çevirməkdədir.

Bu gün bütün dünya ölkələri tərəfindən güclü bir siyasətçi kimi qəbul edilən, ağır dağıntılara məruz qalan iqtisadiyyatımızda inqilabi dəyişikliklərin təməl daşlarını qoyan Prezidentimiz Heydər Əliyev müstəqil dövlətimizin ən inamlı qarantı kimi milyonların dəstəyini qazanmışdır. Bu gün xalqımız prezidentimizin ətrafında sıx birləşərsə, hər bir problemi həll etmək olar.

Mən də, ictimaiyyət təbriklərinə qoşularaq,bütün təhsil işçiləri adından xalqımızı 15 iyun "Milli Qurtuluş günü" və 14 iyul 33 illik siyasi fəaliyyəti münasibətilə təbrik edirəm. Xalqımızın Xilaskarına uzun ömür və cansağlığı arzulayıram.

**İbadov Rəhman Ağall oğlu 1962-ci ildə Göyçay rayon Qaraməryəm kəndində anadan olub. 1987-ci ildə Xalq Təsərrüfatı İnstitutunun "maliyyə-kredit" fakültəsini bitirib. 1990-cı ildə Göyçay rayon Vergilər sistemində çalışıb və hal-hazırda Göyçay rayon Vergilər şö'bəsinin rəisi vəzifəsində işləyir. YAP-ın üzvüdür.**



15 iyun tarixi günü həmişə mənim gözlərim önündə canlanır. İşıq zülmətdən doğulan kimi Heydər Əliyev hakimiyyətə xalqın ən qara günlərində gəldi. Tanrı bu qara günləri işıqlı sabahlarla əvəz etməyi Heydər Əliyev şəxsiyyətində gördü. Belə ki, dövlətimizin gələcəyi möhkəm təməllər üzərində Heydər Əliyev cənablarının böyük və müdrik siyasi fəaliyyətinin əsasında qurulub. Çox əsrlik tarixə, yüksək mədəniyyətə malik olan Azərbaycan xalqı inanırdı ki, onu bu səfalətdən xilas edə biləcək şəxs imdadına yetişəcək. Bu dahi insan, uzaqgörən siyasətçi Heydər Əliyev idi.

Müstəqil Azərbaycan dövlətinin tarixində ilk Konstitusiyanın yaradılması və Konstitusiya əsasında ilk daimi parlamentin, ilk Prezidentimin seçilməsi, ilk dəfə olaraq özünün idarə orqanların, bələdiyyələrin seçilməsi və fəaliyyətini tənzimləyən qanunlar toplusunun qəbulu, üçpilləli məhkəmə sisteminin qurulması, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, polis və prokurorluq haqqında qanunların qəbulu, mətbuatda siyasi senzuranın ləğvi, ümumiyyətlə, demokratik cəmiyyət quruculuğu üçün vacib olan, artıq unutduğumuz, yaxud da adiləşmiş neçə-neçə "ilk"lər, dövlətimizin sivil dövlətlər cərgəsinə qatılmasına, imzamızın imzalar içərisində olmasını səciyyələndirən ən mühüm amillərdir. Hüquqi islahatların ilk addımı olaraq daimi fəaliyyət göstərən Parlamentlərin formalaşdırılması, bu Parlamentin hüquqi dövlət quruculuğu üçün vacib olan qanunvericilik fəaliyyəti ilə məşğul olması sözsüz ki, ən böyük nailiyyətimizdir.

Prezident Heydər Əliyevin böyük sə'yi, fədakarlığı nəticəsində Azərbaycan dövlətçiliyi möhkəmləndirildi, qüdrətli nizami ordu yaradıldı.

Bəli, müdrik rəhbərin ikinci dəfə rəhbərliyə gəlməsi - iyun ayının 15-i bütövlükdə Azərbaycanın "Qurtuluş" günü kimi tarixə düşdü. O gündən e'tibarən gözlənilən bəlaların, faciələrin qarşısı alındı. Dəmir iradəli böyük siyasətçinin müdrikliyi sayəsində qısa müddət ərzində təhlükəli qruplar zərərsizləşdirildi, Azərbaycanda ictimai-siyasi sabitlik yarandı.

İyul ayının 14-ü bizim üçün çox gözəl bir bayramdır. Hörmətli Prezidentimiz, möhtərəm Heydər Əliyevin hakimiyyətinin 33 illiyi tamam olur. Yaranmış fürsətdən istifadə edərək "Babadağ" qəzeti vasitəsilə bu bayram münasibətilə sevimli Prezidentimizi təbrik edir, ona şərəfli və məs'ul işində yeni-yeni uğurlar arzulayıram.

## SƏLYAN RAYON MƏHKƏMƏSİNİN SƏDRİ QULİYEV NİZAMİ



1969-cu ildən xalqımızın möhtəşəm tarixinin son 33 ildən çoxu onun böyük oğlu, müdrik insan, dünya şöhrətli siyasətçi Heydər Əliyevin adı və misilsiz fəaliyyəti ilə bağlıdır.

Məhz onun rəhbərliyi və qayğısı nəticəsində həmin dövrdə respublikamız sosial-iqtisadi cəhətdən yüksək səviyyədə inkişaf etmiş, o vaxtkı İttifaqın ən qabaqcıl respublikalarından biri hesab edilmiş, adı həmişə hörmətlə çəkilmişdir. Müstəqilliyimizin ilk illərində republikamızı gözü götürməyənlər, ərazimizə xaincəsinə göz dikənlər min cür hiylə quraraq Azərbaycanımızı həlli çox çətin olan problemlər qarşısında qoymuşlar. Hətta ölkə ərazisinin parçalanması təhlükəsi yaranmışdır. Respublikamızın o vaxtkı xəyanətkar, sonrakı dövrdə isə bacarıqsız və səriştəsiz rəhbərlərinin səhvləri ucbatından Vətənimizin bu bəlalardan xilas edilməsi üçün heç bir tədbir görülməmişdir. Xalqımızın belə bir ağrılı, qanlı-qadalı günündə onun köməyinə çatan yenə də öz elini, Vətənini misilsiz bir məhəbbətlə sevən övladı Heydər Əliyev oldu. Respublika əhalisinin təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdan hörmətli Prezidentimiz Vətənimizin xilaskarı oldu. Həmin gün tarixə qızıl hərflərlə "Milli Qurtuluş" günü kimi həkk olundu.

Özünün yüksək dühası və siyasi uzaqgörənliyi ilə şöhrət tapmış, adı müasir dünyanın ən görkəmli siyasətçiləri ilə bir sırada çəkilən güclü bir tarixi şəxsiyyət olan möhtərəm Prezidentimizin sə'yi və bacarığı nəticəsində respublikamız parçalanmaq təhlükəsindən xilas oldu. Ərazilərimizin işğal olunmasının qarşısı alındı, uzunmüddətli atəşkəsə nail olundu, respublikamızın daxilində sabitlik tə'min olundu, Respublika əhalisinin azad və təhlükəsiz yaşaması üçün etibarlı şərait yaradıldı.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olunması Azərbaycan xalqının və dövlətinin tarixində çox böyük əhəmiyyətə malik tarixi hadisədir. Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır. Möhtərəm prezidentimizin müdrik və uzaqgörən siyasəti nəticəsində respublikamızın hazırda cəlb olunduğu müharibə, ərazilərimizin 20 faizinin işğal olunması, əhalimizin 1 milyondan artıq hissəsinin qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi barədə həqiqətlərin dünyaya çatdırılması nəticəsində beynəlxalq ictimaiyyətin dövlətimizə olan münasibəti tamamilə dəyişdirilmişdir.

2000-ci ilin yayında ölkəmizdə ilk dəfə olaraq hakimiyyətin bir qolu olan məhkəmələrin beynəlxalq meyarlara uyğun olaraq yazılı test imtahanı və şifahi müsabiqədən keçmək yolu ilə seçilmiş hakimlərdən formalaşdırılması, məhkəmə sisteminin üçpilləliyinin, müstəqilliyinin təmin edilməsi, bu prosesin şəffaf və ictimaiyyətin nümayəndələrinin nəzarəti altında keçirilməsi yeni yaradılmış məhkəmələrə ədalət mühakiməsinin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək binaların ayrılması, hakimlərin sosial müdafiəsinin gücləndirilməsi və s. tədbirlərin görülməsi ölkəmizdə demokratiyanın dönməz xarakter almasına əyani sübutdur.

Ölkəmizin həm daxilində, həm də beynəlxalq aləmdə qazandığı böyük uğurlar xalqımızın misilsiz və dahi oğlu Heydər Əliyevin nailiyyətləridir. Məhz bu reallıqlara və möhtərəm Prezidentimizin böyük dühasına ümid bağlayan beynəlxalq ictimaiyyət ona həm də regionda sülh və əmin-amanlığın təminatçısı kimi baxır.

33 ildir ki, Azərbaycan xalqı bu günün dünyaya bəxş etdiyi dahi, nadir şəxsiyyətin rəhbərliyi altında öz tarixini qurub-yaradır. Bu tarixin ən şanlı səhifəsi isə nə qədər çətin, qanlı-qadalı illər yaşamış olsa da belə, istiqlalımızın əldə edilib, qorunub inkişaf etdirilmişdir. Dünya Azərbaycanlılarının birinci qurultayını, Yeni Azərbaycan Partiyasının ikinci qurultayını uğurla keçirmələri, Milli Olimpiya Komitəsinin sədri, millət vəkili İlham Əliyevin rəhbərliyi və təşkilatçılığı sayəsində idmançılarımızın dünya miqyasında əldə etdikləri qələbələr Heydər Əliyev siyasətinin bəhrələridir.

## Xaçmaz rayon sakini, xeyriyyəçi TƏRLAN MƏCİDOV

***22 mart 1969-cu ildə Siyəzən rayonunun Yenikənd kəndində anadan olub. Orta ixtisas təhsillidir. Bir çox dövlət əhəmiyyətli vəzifədə çalışıb. Hal-hazırda xeyriyyəçidir.***

Xaçmaz rayon sakini, gözəl insan, xeyriyyəçi Tərlan Böyükəmi Məcidov o adamlardandır ki, belələri həmişə xeyirhax işləri, unudulmaz yaxşılıqları ilə ömürlərinin sarayına gündə bir kərpiç hörürlər. Təbabətin "Başqalarına işıq saçaraq, özüm əriyirəm" devizi onun ömrünə, arzularına, əməlinə, gündəlik iş prinsipinə çevrilir. Özünün şəhadət verdiyinə əsasən 22 mart 1964-cü ildə Siyəzən rayonunun Yenikənd kəndində anadan olub. Orta ixtisas təhsilli olmasına baxmayaraq o, həmişə ali duyğular, yüksək hisslərlə yaşamışdır. Qrup yaratmaq işinə yardımçı, imkanı olmayanlara arxa, dayaq olmaq onun bir insan kimi böyük təbiətindən irəli gəlir, şəhid ailələrinə, məcburi köçkün və qaçqınlara yaxın dost, sirdaş yardımçı olan Tərlan Məcidov bütün bu işləri özü üçün böyük savab hesab edir. O, yaxşı dərk edir ki, bu gün xalqın böyük siyasi dəstəyini qazanmaqla ölkəni ağır durumdan çıxarmağa mərdliklə səy göstərən hörmətli Prezidentimiz Heydər Əliyevin köməkçisi olmaq, işinə dəstək vermək hər bir vətən oğlu kimi onun da vətəndaşlıq borcudur. Çünki vətəndaş müharibəsi qazanılan müstəqilliyin bir andaca itiriləcəyi reallığı ilə qarşılaşdığımız ən ağır vaxtda məhz Heydər Əliyev heç kəsin bacarmadığı və bacara bilməyəcəyi şərəfli bir missiyanı öz üzərinə götürmüşdür. Bu reallığı dərk edən və layiqincə qiymətləndirməyi bacaranların ön sırasında olan Tərlan Məcidov öz işində və əməlində də bu dahi insanın şərəfli ömür yoluna öz sevgisini biruzə verir, onun həyat yolunu qızıl bir kitab, böyük həyat məktəbi kimi öyrənir.

Xaçmaz rayonunda Heydər Əliyev adına ideoloji mərkəzin tikilib istifadəyə verilməsinə yaxından maddi və mənəvi köməklik göstərməsi də onun Heydər Əliyev şəxsiyyətinə olan yüksək sevgisinin təzahürüdür. Yaşadığı rayonun abadlıq işlərinə etdiyi köməklikləri o, öz ömrünün mənası hesab edir və haqlı olaraq rayonun simasının yaxşılaşdırılması naminə gördüyü işlərdən zövq alır.

Bütün şərəfli əmək fəaliyyəti möhtərəm Prezidentimiz Heydər Əliyevin hakimiyyəti dövrünə təsadüf edən Tərlan Məcidov Heydər Əliyev məktəbinin ən layiqli məzunlarından biri olması ilə fəxr edir. O, haqlı olaraq fərəh hissi keçirir ki, hazırda respublikamızın beynəlxalq aləmdə nüfuzu və şöhrəti günbəgün artmaqla yanaşı, ölkəmiz bir çox beynəlxalq təşkilatların tamhüquqlu üzvü olub. Heydər Əliyevin fəaliyyəti nəticəsində dünya Azərbaycan həqiqətlərini qəbul etməyə başlayıb. Bəli, bütün bunlar xalqımız üçün taleyüklü məsələlərdir və hər bir azərbaycanlı kimi Tərlan Məcidov da bu qlobal işlərin böyük sükançısı Heydər Əliyevin dəstəkçisi olmağı özünə şərəf bilir. Çünki o, yaxşı bilir ki, məhz böyük idarəçilik təcrübəsi olan Heydər Əliyev zərrə-zərrə bu taleyüklü problemlərin öhdəsindən gələrək, tədricən Azərbaycanda stabilliyin bərpasına nail oldu, xalqa qənim kəsilən ayrı-ayrı düşmən ünsürləri zərərsizləşdirdi, nəhayət gərgin zəhməti bahasına Azərbaycanı bu günkü demokratik hüquqi dövlət vəziyyətinə gətirib çıxartdı.



Tərlan Məcidov kimi insanlarla söhbət etdikcə insan özü də mənəvi cəhətdən saflaşıb-zənginləşir, onun yaradıcılıq, quruculuq duyğuları ehtizaza gəlir. Adam fəxr edir ki, bu cür alicənab, mərd və xeyirxah soydaşı var. Bəlkə də ağır problemlərlə üz-üzə qalmış cəmiyyətimiz məhz belə adamların üzünə dayanıb qalıb.

Biz Tərlan Məcidov haqqında bu qısa sətirləri yazmağı özümüzə ona görə borc bilirik ki, hər bir şəxs öz yaxşı əməlinin təşəkkürünü vaxtında almalıdı. Belə halda o adamın öz işinə, əməlinə hörmət hissi birə beş artır. O, daha da inamlı, mərd və xeyirxah olur. Ümid edirik ki, bu elə belə də olacaq...

## AĞCƏBƏDİ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ BAŞ HƏKİMİ ARİF QULİYEV



**Arif Mustafa oğlu Quliyev 30 aprel 1957-ci ildə anadan olub.**

**1981-ci ildə Tibb İnstitutunun cərrahiyyə fakültəsini bitirib. 1982-ci ildən Ağcəbədi rayon Mərkəzi Xəstəxanasında işləyir. 1994-cü ildən cərrahiyyə şöbəsinin müdiridir. 2000-ci ilin dekabrından baş həkim vəzifəsinə işləyir. 2001-ci ildə rayon YAP təşkilat sədri, bir neçə sorğu nəticəsində alınan nəticəyə görə ilin həkimi adına layiq görülmüşdür.**

**Bu yaxınlarda YUNİSEf və Səhiyyə Nazirliyinin "Ana südü" proqramı işləyib hazırlanmasını yüksək səviyyədə həyata keçirildiyinə görə xəstəxanaya "Körpə dostluq klinikası" xəstəxanası statusu verilib.**

**Neçə dəfə rayon səviyyəsində fəxri diplomlara layiq görülüb.**

**Haqqında "Ömür mənim deyil ki" kitabı dərc olunub. Rayon YAP təşkilatının sədridir.**

- Bu gün hamımızın qəlbində böyük sevinc vardır. Hamımızın sevimlisi, beynəlxalq aləmdə müdrik siyasəti ilə tanınan, böyük şöhrət qazanan Heydər Əlirza oğlu Əliyev xalqımızın böyük oğludur, ümummilli lideridir, dünya şöhrətli siyasi xadimdir. Onun idarəçilik fəaliyyəti əsasən üç dövrü əhatə edir. Onun dövlət quruculuğuna, idarəçilik sənətinə gətirdiyi yeniliklərin əhəmiyyətini, mahiyyətini dərk etmək üçün ən əvvəl Azərbaycana rəhbərlik etdiyi birinci dövrə qədər olan vaxta nəzər salmaq lazımdır. Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi zaman görülən nəhəng işlər bizim gözümüzün qabağında olmuşdur. Heydər Əliyevin fəaliyyətinin Naxçıvan illəri də onun siyasi bioqrafiyasında, xalqımızın dövlətçilik tarixində qısa, lakin parlaq, ibrətamiz dövr olmuşdur.

1993-cü ilin iyun günlərində Azərbaycanda rəhbərliyi yenidən öz üzərinə götürən böyük siyasətçinin, təcrübəli dövlət xadiminin idarəçilik məharəti nəticəsində Azərbaycan, onu təqib edən fəlakətlərdən, məhv olmaq təhlükəsindən, etnik parçalanmadan xilas edildi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna qədəm qoydu.

Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın və dilimizin "Azərbaycan" adı özünə qaytarıldı, gücümüzün və vahidliyimizin əsası olan milli birlik bərpa edildi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin istər birinci dövründəki, istərsə də ikinci, yə'ni müstəqillik dövründəki fəaliyyətinə qiymət verərkən tam inamla deyə bilərik ki, o, zamanın və şəraitin diqtə etdiyi çərçivələrdən xeyli kənara çıxaraq öz dövrünü qabaqlamış, çox vaxt həlli mümkün olmayan problemlərin uğurlu həllinə nail olmuşdur.

Qurtuluş günü Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış və bizim hər birimiz üçün önəmli olan bir gündür. Bu gün qurtuluş qələbəsinin kölgəsi altında inamla sabaha, işıqlı gələcəyimizə doğru addımlayırıq.

Əminəm ki, bu gediş Azərbaycanı illərə, saatlara dönən dəqiqələrin məngənəsində çırpına-çırpına arzuladığımız o xoşbəxt günləri özündə əks etdirən yola gec-tez yönəldəcəkdir. Bəli. Bu çox uzun, həyat yolunun mənbəyi elə məhz "MİLLİ QURTULUŞ GÜNÜ"dür.

# Heydər Əliyevin hakimiyyətə qayıdışı dövlətçiliyimizə inamı artırdı

## YAP SİYASİ ŞURASININ ÜZVÜ, YAP BƏRDƏ RAYON TƏŞKİLATININ SƏDRİ MƏMMƏDOV ŞAHİN KƏRİM OĞLU



**- Şahin müəllim, Siz 1993-cü ildə Azərbaycanda cərəyan edən ictimai-siyasi vəziyyətin canlı şahidi kimi, 15 iyun "Qurtuluş günü"nün Azərbaycan tarixində əhəmiyyətini necə qiymətləndirirsiniz?**

- Azərbaycan çox ağır günlər yaşayıb. İdarəçilik qabiliyyəti olmayan insanlar Azərbaycanı 4-5 il ərzində acınacaqlı vəziyyətə çatdırdılar, dövlətçiliyimizi və milli birliyimizi təhlükə qarşısında qoymuşdular. Əbdulrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Yaqub Məmmədovun, eləcə də Əbülfəz Elçibəyin səriştəsizliyi və məsuliyyətsizliyi nəticəsində Azərbaycan torpaqları itirildi, xalqımız təcavüzə məruz qaldı. Xarici havadarlarının "barmaq" əmrləri ilə hərəkət edən bu rəhbərlər xalqın, dövlətin gələcəyini düşünmür, onun üçün çalışmaq, işləmək nə demək olduğunu dərk etmirdilər. Ölkədə xaos baş alıb gedirdi, əhaliyə çovdar unundan çörək verilir, çörək almaq arzusu ilə növbələrdə dayanan analar əli boş övladı yanına qayıdanda göz yaşları ilə təsəlli tapır, öz övladlarına Vətənə müqəddəsliyindən ağız dolusu danışan valideyinlər artıq özləri Vətənə nifrət edirdilər.

Bütün bunlara göz yuman ayrı-ayrı siyasi təşkilat və partiyalar özlərinin silahlı dəstələrini yaradır və nüfuz dairəsi uğrunda çirkin mübarizə aparırdılar. Gərəksiz və xalqa lazım olmayan, daha doğrusu şəxsi maraqlar uğrunda aparılan mübarizələr və çəkişmələr nəticəsində Azərbaycan torpaqları erməni işğalçılarına təslim edilir, əhali qaçqın və köçkün həyatını yaşamağa vadar edilir. Azərbaycan daxilində baş verən xaos və xarici siyasətdə buraxılan ciddi səhvlər nəticəsində beynəlxalq aləmdə imicsiz dövlət simasınnı qazanmışdır. 1993-cü ildə bütün bunlar öz kulminasiya nöqtəsinə çatmış və son nəticədə vətəndaş müharibəsinə kətirib çıxardı. Belə bir vəziyyətdə xalqımız bütünlüklə ayağa qalxaraq bir daha öz böyüklüyünü nümayiş etdirdi- Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsini təkidlə tələb etdi. Artıq tariximizə qızıl hərflərlə yazılan "Qurtuluş günü"ndə Heydər Əliyev yenidən Bakıya qayıdaraq xalqın iradını yerinə yetirdi və bütün vəhşiliklərə nöqtə qoyuldu. Həmin gündən başlayaraq Azərbaycanda mühüm və vacib məsələlər öz həllini tapmağa başladı. Möhtərəm prezidentimiz həmin dövrlərdə yerlərə səfər etdi, əhali arasında oldu, onların problemləri ilə tanış oldu, vəziyyəti öz gözləri ilə gördü. Səfər zamanı hörmətli prezidentimiz Bərdə rayonunda da olmuş, yerli əhali və qaçqın rayonların əhalisi ilə görüşlər keçirdi. Bu səfər əhalidə gələcəyə, yaxşılığa inam yaratdı, uğurlara səsləyən stimul oldu. Son 9 ildə Azərbaycan bir neçə onilliərin uğurunu əldə etdi. Heydər Əliyev cənablarının gərgin əməyi nəticəsində Azərbaycanın daxili həyatında və eləcədə xarici aləmdə böyük işlərə nail olundu. Qısa zaman kəsiyində Azərbaycanın iqtisadiyyatı dirçəldilərək gücləndirildi, aclığa, səfalətə, xaosa son qoyuldu, güclü ordu quruculuğu prosesinə başlandı. Hörmətli prezidentimizin rəhbərliyi ilə dünyada analoqu olmayan neft müqavilələri imzalandı, Azərbaycan prezidentinin təşəbbüsü ilə beynəlxalq "İpək yolu"nun bərpasına başlandı və "İpək yolu"nun İdarə mərkəzi məhz Azərbaycanda yerləşməsi ölkəmizə olan böyük maraq və diqqətdən xəbər verir.

**- Heydər Əliyev siyasi xəttinə inam nədən irəli gəlir? Ümumiyyətlə bu çətin yolda Sizə ilham verən, ruhlandıran səbəb nədən ibarət idi?**

- 1991-ci ildə Azərbaycan müstəqilliyini əldə etdi, lakin 1918-çi ildə qazalınan müstəqilik kimi, 1993-cü ildə də 1991-ci ildə qazalınan müstəqilllik itirilmə təhlükəsi qarşısında idi. Cənab Heydər Əliyevin hakimiyyətə qayıdışı dövlətçiliyimizə inamı artıraraq xalqı vahid ideya ətrafında səfərbər etdi. İnqilab etmək əsas şərt deyil, əsas onu qorumaqdır. Məhz bu mənada Heydər Əlirza oğlu Əliyev müstəqilliyimizi əbədi, dönməz və sarsılmaz etdi. 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyası Naxçıvanda təsis olunduqdan sonra Bərdə əhalisi birincilər sırasında bu yaranışı sevinclə qarşılayırdı. Hələ 1991-ci ilin noyabr ayının 22-də vertalyot qəzası ilə əlaqədar Bərdə rayon mərkəzində mitinq keçirilən zaman mən bir neçə fəallarla birlikdə Heydər Əliyevin hakimiyyətə gəlməsi üçün imza toplayırdıq. Həmin toplantı zamanı mən, Heydər Əliyev ucalığının bir daha şahidi oldum. Toplantı iştirakçıları yekdil olaraq bizimlə həmfikir olaraq imza atmağa könüllü axışdılar. Beləliklə 1992-ci ilin dekabr ayının 4-də YAP Bərdə rayon təşkilatı qrupu öz iclasını keçirdi və yaxın aylarda YAP Bərdə rayon təşkilatının yaradılması üçün cələcək işlərin planı müəyyənləşdirildi. Bütün bu işlərə görə mənə və təşkilat qrupunun digər üzvlərinə təziqlər və hədələr olunurdu. Hətta mənim qardaşımı həbs etmişdilər ki, mən öz fikrimdən əl çəkim, lakin məndə və eləcə də əhalidə Heydər Əliyevə olan dərin məhəbbət bütün bu qüvvələrə güc gəldi. Bizdə inam var idi. Heydər Əliyevə, onun zəkasına, əqidəsinə, xalqa sadiqlik inamı var idi. Və bu inamın nəticəsi kimi 1993-cü ilin mart ayında YAP-ın Bərdə rayon təşkilatı 1240 nəfər partiya üzvlüyü ilə yaradıldı, təsis olundu. Artıq 1993-cü ilin iyun ayının 15-də Heydər Əliyev cənabları Bakıya qayıtdıqdan sonra əhalinin inamı bir daha təsdiq olundu, əməli işlərdə öz əksini tapdı. Əvvəlki iqtidardan miras qalan iqtisadi tənəzülüm və eləcə də siyasi xaosun nəticələri Heydər Əliyev və xalq birliyinin nəticəsində aradan qaldırılmağa başlandı.

Mənim yadımdadır, o vaxtlar əhalini çörəklə təmin etmək çox çətin idi. Bunun üçün rayonun bütün məsul işçiləri və ziyalıları gecə-gündüz çalışır, bu yolda yorulmaq bilmirdilər. Mən Bərdə rayon İcra Başçısının müavini kimi gecə saat 12-yə, 1-ə qədər çörək zavodunda olur və səhər saat 5-də yenə də zavoda qayıdırdım ki, işlər ləngiməsin, pozulmasın. Cəbhə bölgəsində ağır döyüşlər getdiyindən gecə-gündüz yaralıları qəbul edir, yardım göstərilməsini təşkil edirdim. Döyüşlərdə şəhid olanların sayı bilinmirdi. Bəli, xalqımız Heydər Əliyev inamı ilə şok vəziyyətindən çıxdı və mübarizəyə qoşuldu. Lakin müharibənin davam etdirilməsi yeni şəhidlər demək idi. Məhz Heydər Əliyev uzaqgörənliyi nəticəsində atəşkəs əldə olundu və bütün göz yaşlarına son qoyuldu. Mən, bu gün fəxr edirəm ki, həmin ağır günlərdə mən də əziyyət çəkmişəm, xalqımın, az da olsa, yardımçısı olmuşam. O çətin, ağrılı günlərdə çalışıb, əziyyət çəkməyim mənimqürur yerimdir. Ziyalı, xalqın əziyyətini çəkən adama deyilir. Bu mənada, mən, bir daha bildirirəm ki, xoşbəxtəm ki, bu işlərdə mənim də əməyim var. Çünki, o illər mənim ən əziz xatirəli illərimdir.

**- Şahin müəllim, gələcəkdə YAP-ın siyasi xəttini və bu siyasi xəttdə İlham Əliyevin fəaliyyətini necə qiymətləndirirsiniz?**

-Mən belə deyərdim, bu günün gəncələri göstərdilər ki, dövlətçiliyimizin gələcəyi məhz İlham Əliyevin liderliyi ilə gəncələrimizin əlindədir. Artıq Azərbaycan gəncələrinin liderindən ümümxalq liderə çevrilən İlham Əliyev mahir siyasətçi kimi dövlətimizin həyatında mühüm rol oynamaqdadır və eləcə də Azərbaycanın siyasi səhnəsində özünəməxsus yer tutmuşdur. Yaxın 7 ilə nəzər salsaq, görərik ki, İlham Əliyevin Qaradağ rayon ərazisində gördüyü işlər, qaçqın və göçkünlərlə görüşləri, Milli Məclisə deputat seçilməsi, Onun, ARDNŞ-nin birinçi vitse prezidenti kimi Heydər Əliyevlə bərabər "Əsrin müqaviləsi"nin imzalanmasında diplomatik fəaliyyəti, Milli Olimpiya Komitəsinin prezidenti kimi olimpiya tariximizdə qazandığı uğurlar, Yeni Azərbaycan Partiyasının sədr müavini kimi xalqımız üçün gördüyü xeyirli işlər göz qabağındadır. Xeyirxah işlər cərgəsində Bərdə rayonunda əhalimiz üçün tikilib istifadəyə verilən Avropa standartlarına uyğun idman kompleksidir. Bu idman kompleksinin tikintisi, mən deyərdim ki, Bərdə şəhərində yeni quruculuq işlərinin vüsət almasına səbəb olmuşdur. Bu başlanğıc üçün Bərdə əhalisi cənab İlham Əliyevə minnətdarlığını bildirməkdədir. Avropa Şurasının Parlament Assambleyasında erməni diplomatlarını süquta uğratmaqla, İlham Əliyev erməni diplomatiyasının heç olduğunu sübut etmiş oldu. Bu gün biz İlham Əliyevə yetkin siyasətçi, ağıllı diplomat və gələcəyin lideri kimi baxırıq.

**- Müxalifət qüvvələrinin bu günlərdə "fəallaşması" Sizin fikrinizcə Azərbaycan xalqına nə verə bilər? Ümumi analizlərdən sonra müxalifət qüvvələrinə nə kimi qiymət verərdiniz?**

- Yuxarıda sadalaladığım mənəvi keyfiyyətlərdən, Heydər Əliyev və İlham Əliyevdə olan qürurdan, mənlikdən, əzəmətdən müxalifət liderlərinin hansı birində görə bilərsiniz? Onlar yaddaşlarda nə ilə, hansı əməlləri ilə qalırlar? İndiki müxalifət qüvvələri hakimiyyətdə olduqları dövrlərdə bu xalq üçün nə ediblər? Nazir, icra hakimiyyətinin başçısı, hamısı özlərini prezident kimi aparırdılar. Böyük-kiçik yeri bilinmirdi. İndi isə xaricdən aldıqları qrant hesabına bilmirlər nələrə əl atsınlar. Azərbaycan xalqı qarşısında öz simalarını itirmiş bu qüvvələr indi də xarici qüvvələr qarşısında öz varlıqlarını itirməkdədirlər. Ona görə də Rəsul Quliyevin, İskəndər Həmidovun, Rəhim Qazıyevin və başqalarının bu gün söylədikləri sözlər xülyadır.

Bir faktı deyim ki, YAP-ın II qurultayından sonra Bərdə rayonunda Müsavat partiyasından 16, AMİP-dən 6, AXCP-dən 2 nəfər, cəmi 24 nəfər müxalifət partiyalarından istefa verərək mart ayının 23-də ümumi müraciətlə YAP-ın sıralarına qəbul olunmaq haqqında müraciət etmişdilər. Həmən günü onlar Bərdə rayonunun Qılınclı kəndində keçirilən mitinqdə rəsmi sürətdə bildirdilər ki, İsa Qəmbərin fəaliyyəti Azərbaycanda sabitliyin pozulmasına və Azərbaycan dövlətinə qarşı yönəldiyi üçün onun imza atdığı partiya biletini gəzdirmək istəmirik.

**-"Qurtuluş günü" münasibəti ilə əlaqədar olaraq Azərbaycan xalqına və Prezidentimizə ürək sözləriniz.**

- Mən "Milli qurtuluş günü" münasibəti ilə Azərbaycan xalqını və şəxsən Prezidentimizi təbrik edirəm. Çünki, bu gün qəlblə ruhun qovuşduğu, uzun illər davam edən xalq həsrətinin son günü idi. Azərbaycan torpaqlarının bütövlüyünün qorunması, beynəlxalq aləmdə Azərbaycanın tanınması və çiçəklənməsi yolları məhz "Qurtuluş günü"ndən özünə başlanğıc götürmüşdür.

Mən YAP Bərdə rayon təşkilatının sədri kimi daim Heydər Əliyev siyasi xəttinin təbliğatçısı olmuşam və olmağımdan da qürur duyuram.

# Bənzərsiz lider



**Zeynal ZEYNALOV -Masallı rayon məhkəməsinin sədr müavini.**



Cənab prezidentimizin hər bir addımı, verdiyi sərəncamlar xalqımızın həyatında xoş günlər gətirir. Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı ərəfəsində ölkəmizdə ictimai-siyasi proseslər öz axarından çıxmış, xaotik vəziyyət yaranmışdır, sanki hakimiyyətsizlik hökm sürürdü, müstəqilliyimiz təhlükə altında idi. Vətəndaş müharibəsi gözlənilirdi. Azərbaycan iqtisadiyyatı bərbad hala düşmüşdü, elmimiz, təhsilimiz, mədəniyyətimiz geridə qalırdı, təcavüzkar ermənilərin torpaq iddiası səngimirdi, zorla cəlb olunduğumuz müharibə Azərbaycanımızın iqtisadi, sosial, siyasi və mədəni durumunu daha da ağırlaşdırırdı. Heydər Əliyev cənabları hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanı bu bəladanxiias etdi. Ermənistan hökuməti ilə atəşkəs əldə olundu, siyasi sabitlik bərpa olundu. Müdrik bir siyasi xadim kimi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu, imicini yüksəltdi. Qısa bir müddətdə ölkəmiz iqtisadi böhran girdabından xilas oldu. O səbəbdən Prezidentimizin hakimiyyətə dönümünü xalqımız milli iftixarla "Milli Qurtuluş" günü kimi qeyd etdi.

Milli azadlığa nail olmuşuq, müstəqil dövlətçiliyimiz var, azad, müstəqil ölkədə yaşayırıq. Bunu qiymətləndirmək, gücləndirmək lazımdır. Bunun üçün əsas şərtlərdən biri insanlarda yüksək mə'nəvi keyfiyyətləri tərbiyə etmək, inkişaf etdirmək, millətimizdə yüksək mə'nəviyyatı tə'min etməkdir. Təəssüf ki, bu sahədə bizim həyatımızda böyük nöqsanlar, bizi narahat edən hallar var. Rüşvətxorluq, dövlətin, millətin malını dağıtmaq, qarət etmək, vəzifədən sui istifadə etmək, korrupsiya, cəmiyyətimizi zəhərləyən cürbəcür belə hallar mövcuddur. Müdriklərimiz demişkən, qanun hökm sürməyən ölkədə ədalət ola bilməz, ona görə də Azərbaycan Prezidentimin tələbi ciddidir: "Heç bir vəzifəli şəxs qanundan kənara çıxa bilməz, istər Baş Nazir olsun, istər nazir, istər İcra Hakimiyyətinin başçısı olsun - fərqi yoxdur".

Azərbaycan diplomatik dövlət quruculuğu yolundadır. Prezident fərmanları, qəbul edilmiş qanunları öyrənməli, onların həyatda tətbiqinə nail olmalıyıq. Biz ən əvvəl öz hüquqlarımızı bilməliyik. Bu sahədə bütün ağırlıq təkcə hüquq-mühafizə orqanlarına deyil, cəmiyyətin bütün təbəqələrinin üzərinə düşür. Bütün təşkilatlar bu önəmli məsələni yerinə yetirmək üçün var gücü ilə sə'y göstərməlidir.

"Babadağ" qəzeti vasitəsilə 15 iyun - "Milli Qurtuluş" günü münasibətilə bütün Azərbaycan xalqını təbrik edir, Azərbaycan Respublikasının prezidenti Heydər Əlirza oğlu Əliyevə dövlətçiliyimizin inkişafı yolunda uğurlar diləyirəm.

---

**Astara rayon YAP təşkilatının sədri Həmzəyev Əliheydər Alı oğlu. 1957-ci ildə Astara rayonunun Mini kəndində anadan olub.**

1992-ci il 21 noyabrda YAP-ın yaranması, artıq Azərbaycanın ictimai-siyasi həyatının inkişafından xəbər verirdi. Hörmətli prezidentimiz Heydər Əliyev cənablarının hakimiyyətə 2-ci dəfə gəlişi xalq tərəfindən hörmətlə qarşılandı. Prezidentimizin müdrikliyi, uzaqgörən siyasəti nəticəsində dövlətimiz günü-gündən inkişaf edir, möhkəmlənir. Cənab prezidentimizin əsasən 1969-cu ildən bu günümüzə kimi Azərbaycanın bütün sahələrində - istər kənd təsərrüfatı, istər elm, mədəniyyət, tikinti, sənaye, neft istehsalında misilsiz nailiyyətlərin, uğurları, yalnız Heydər Əliyev rəhbərlik etdiyi zamanın payına düşmüşdür. Azərbaycan xalqı unutmamalıdır ki, tarixi "İpək yolu"nun bərpası, əsrin müqavilələri kimi nəhəng işlərin baş memarı, Azərbaycanda sabitliyi yaradan, atəşkəsə nail olan, Azərbaycanın müstəqilliyini dönməz edən, sarsılmaz edən, onu dünyanın adlı-sanlı ölkələri sırasına çıxaran yenilməz rəhbərimiz Heydər Əliyev şəxsiyyətidir.

Prezidentimizin layiqli davamçısı olan YAP-nın sədrinin 1-ci müavini, ADNŞ-nin birinci vitse-prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti, Avropa Şurasında Azərbaycan Parlamenti nümayəndə heyətinin başçısı cənab İlham Əlijevin son



dövrlərdə göstərdiyi xidmətlər ona əsl mənada böyük xalq məhəbbəti qazandırmışdır.

İlham Əliyev "Əsrin Müqaviləsi"ni imzalanmasında, xarici neft şirkətlərinin Azərbaycana sərmayə qoymasında, Azərbaycan neftinin şöhrətlənməsində dəyərli işlər görüb və bu gün də görür.

Milli Olimpiya Komitəsinin prezidenti kimi Azərbaycanda idmanın kütləviliyi və idmançılarımızın son illərdə qazandığı uğurlar onun adı ilə bağlıdır.

Biz bu gün İlham Əliyevin xidmətlərindən danışarkən Avropa Şurasında Azərbaycanı təmsil edən nümayəndə heyətinin başçısı kimi qazandığı uğurlardan da söhbət açmalıyıq.

Parlament nümayədə heyətimiz İ.Əliyevin rəhbərliyi ilə ermənilərin iç üzünü açıb göstərmək və Azərhaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq sahəsində yorulmaq bilmədən məqsədyönlü iş aparır. Cənab İlham Əliyevin bütün bu gördüyü işləri nəzərə alsaq, onu Möhtərəm prezidentimiz Heydər Əliyevdən sonra prezident olduğunu görə biləcəyik. Bu gün isə 15 iyun - Prezidentin qayıdış günüdür. Fürsətdən istifadə edib, qəzetiniz vasitəsilə "Milli Qurtuluş" günü münasibətilə xalqımızı təbrik edirəm və cənab Heydər Əliyevə uzun ömür, cansağlığı arzu edirəm.

---

**Hacı Məhəmməd Əhməd oğlu Vəliyev 1953-cü ildə Goranboy rayonunda anadan olub. 1975-ci ildə Gəncə şəhər Kənd Təsərrüfatı İnstitutunun "kənd təsərrüfatının mexanikləşdirilməsi" fakültəsini bitirib. 2000-ci ildən Göyçay şəhər bələdiyyəsinin sədri vəzifəsində işləyir. YAP-ın üzvüdür.**



Bu gün Azərbaycan Respublikasının müdrik rəhbəri, möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının ömür tarixindən daha bir səhifəsi geridə qaldı. Bu gün xalqımızın bayram sevinci ilə qeyd etdiyi, respublika ictimaiyyətinin əlamətdar tarix kimi qarşıladığı əziz bir gündür. Mənə verilmiş bu imkandan istifadə edib müdrik şəxsiyyət Heydər Əliyev cənablarının bütün fəaliyyəti dövründə qazandığı diplomatik qələbələrdən, ictimai-siyasi uğurlardan söhbət açsam təbii ki, azlıq edər. Artıq mənə bir həqiqət aydındır ki, Heydər Əliyevin xalqımıza göstərdiyi yol xoşbəxtlik, firavanlıq və səadət yoludur. Azərbaycan xalqı əsrlər boyu bu yolla inamla irəliləyəcək. Bu yoldan geri qalanlar və uğuruna inanmayanlar tarixin sınağında çoxdan uduzmuş insanlardır.

15 iyun möhtərəm prezidentimizin hakimiyyətə yenidən qayıdışının 9 illiyi münasibətilə müdrik Prezidentimiz Heydər Əliyevi təbrik edirəm. Xalqımızın ümid yeri olan xilaskar dövlətə başçılığımıza qarşıdan gələn illərində cansağlığı, könül xoşluğu, siyasi fəaliyyətində uğurlar arzulayıram.

---

**Həsənov Hüseyn Həsənqulu oğlu 1950-ci ildə Göyçay rayonunda anadan olub. 1973-cü ildə BDU-nun "şərqşünaslıq" fakültəsini bitirlb. 1993-cü ildən Göyçay rayon Əhalinin Sosial Müdafiə Mərkəzinin direktoru vəzifəsində işləylr. YAP-ın üzvüdür.**

Xalqımızın sevimli oğlu, böyük tarixi şəxsiyyət, müdrik rəhbər, dünya siyasət aləmində bənzərsiz liderlər olan möhtərəm prezidentimiz cənab Heydər Əliyevin misilsiz xidmətləri barədə danışmaq mənim üçün çox xoşdur.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ilə iqtisadiyyatımızın inkişafına və digər sahələrdə kapital qoyuluşuna şərait yaratdı. Xarici şirkətlər məhz dövlət başçısına arxalanıb Azərbaycana sərmayə qoymağa başladılar. Bu sərmayələrin qoyulması, böyük şirkətlərin Azərbaycana cəlb edilməsi bu xalqa lazım idi. Hörmətli prezidentimizin bu xidmətlərini görməmək sadəcə Azərbaycan xalqına düşmən kəsilməkdir.

İnkaredilməz həqiqətdir ki, bu dövlətin qurucusu, me'marı, dövlətçilik ən'ənələrinin banisi möhtərəm Prezidentimiz Zati-Aliləri Heydər Əliyevdir. Onun həyatı sözün əsl mə'nasında xalqçılıq, dövlətçilik haqqında elimdir. Bu elmi öyrənmək, onu zərrə-zərrə mənimsəmək bizim hər birimizin - bütün azərbaycanlıların ümdə vəzifəsi, başlıca həyat prinsipi olmalıdır.

"Milli Qurtuluş" gününün yaradıcısı olan bütün Azərbaycan xalqını və möhtərəm prezidentimizi bu ümumxalq bayram münasibətilə ürəkdən təbrik edirəm.

Kollektivimiz adından "Babadağ" qəzetinin əməkdaşlarına təşəkkür edirəm.

---



**Hətəmov İkram Tapdıq oğlu. 1958-ci ildə Goranboy rayonunda anadan olub. Goranboy rayon Suvarma Sistemləri idarəsinin müdiridir. Ailəlidir 4 övladı var.**

Azərbaycan xalqı əzmkar, möhkəm, qətiyyətli və dözümlü xalqdır. Xalqımız bu kimi müsbət keyfiyyətlərilə həmişə başqa xalqlardan seçilib. Xalq sarsılmaz gücünü, qüdrətini o vaxt göstərir ki, onun rəhbəri də güclü olsun. Bizim xalqın da Heydər Əliyev kimi müdrik, ağıllı cəsarətli uzaqgörən oğlu olduğu üçün heç vaxt yenilməyib, yenilməyəcək də... Möhtərəm prezidentimizin istər daxili, istər xarici siyasəti xalq tərəfindən müsbət qarşılanır. Azərbaycan günü-gündən inkişaf edir. Prezidentimizin ikinci dəfə hakimiyyətə qayıdışı xalqımıza çox şeylər verdi. Və inanırıq ki, torpaqlarımızı sülh və əminamanlıq yolu ilə geri qaytaracaq. "Qurtuluş" günü münasibətilə xalqımıza firavanlıq, bolluq və H;Əliyev cənablarına möhkəm iradə və uzun ömür arzu edirəm.

# Təhsilin ziyası xalqın bütün sahələrərinə işıq saçır

Novruzov Tacəddin Şəmsəddin oğlu 1962-ci ildə Kürdəmir rayon Çarlı kəndində anadan olub.

1983-cü ildə Həsən Bəy Zərdabi adına Gəncə şəhər Pedaqoji İnstitutunun "fizika-riyaziyyat" fakültəsini bitirib. Həmin ildən pedaqoji fəaliyyətə başlayıb. 2001-ci il iyun ayının 8-dən Kürdəmir rayon təhsil şö'bəsinin müdiri vəzifəsində işləyir.



Müdriklərimiz çox gözəl deyiblər ki, zaman bütün tarixi hadisələrə zərgər dəqiqliyi ilə qiymət verir. Bu baxımdan Möhtərəm Prezidentimiz Heydər Əliyevin quruculuq fəaliyyətinin son 30 ili Azərbaycanın həyatı ilə qırılmaz tellərlə bağlıdır.

1969-70-ci illərdə ölkə rəhbərinin cəmiyyətdə demokratik ab-hava yaratması və xalqa səmimi ünsiyyətdə olmağa sə'y göstərməsi cənab Heydər Əliyevin öz torpağına, Vətəninə bağlılığının bariz nümunəsidir. Ölkə rəhbərinin xalqa açıq-aşkar söhbəti, beləliklə də sadə adamların öz fikrinin müstəqil surətdə çəkinmədən söyləməsi və nöqsanların, neqativ halların aşkarlıq şəraitində yüksək tribunalardan deyilməsi ilə bu günkü demokratiyaya, bu günkü müstəqilliyə, söz azadlığına körpü salırdı. Həmin illərin intibah idarəçiliyinin Möhtərəm Prezidentimizin uzaqgörənliyi, siyasi kredosunun milli dirçəlişimizə uzanan telləri kimi xarakterizə etmək yerinə düşər. Cənab Heydər Əliyev xalqı aktiv həyata səsləyirdi. Böyük siyasətçi xalqın nicat yolunu fəal mübrizədə görürdü.

Möhtərəm prezidentimiz hakimiyyətə gəldikdən sonra Azərbaycanda ilk dəfə olaraq təhsil sisteminə dövlət səviyyəsində qayğı, kökündən yaxşılaşdı. Azərbaycanın şəhər, rayon, qəsəbə və uzaq kəndlərində yüzlərlə o vaxtın müasir tələblərinə cavab verən orta məktəb binaları istifadəyə verildi. Hörmətli prezidentmiz Heydər Əliyevin uzaqgörən siyasəti və vətənpərvərlik niyyəti sayəsində Azərbaycanın təhsil sistemi çox yüksək səviyyəyə çataraq dünyanın qabaqcıl elm mərkəzinə çevrilmişdir. Prezidentimizin təhsilə qayğısı təsadüfi xarakter daşımır. Çünki, təhsili xalqın ziyası kimi, onun inkişafının lokomotivi kimi məs'uliyyətli sahə sayır. Təhsilin ziyası xalqın bütün sahələrərinə işıq saçır.

Artıq üçüncü ildir ki, ölkə prezidenti cənab Heydər Əliyevin 1999-cu il 15 iyunda imzaladığı "Azərbaycan respublikasının təhsil sahəsində islahat proqramı" müvəffəqiyyətlə yerinə yetirilir. Məktəblərdə bazis tədris planları əsasında siniflər kamputerləşdirilmiş, şagirdlərin meyl-maraq və qabiliyyətlərini nəzərə almaqla təhsil sahələri müəyyənləşdirilmişdir. Bu da təhsildə inzibati amillik metodlarına son qoyulmasına, iste'dadlı şagirdlərin aşkara çıxarılmasına əlverişli şərait yaratmışdır. İndi müəllim və şagirdlər arasında yaranmış qarşılıqlı hörmət və əməkdaşlıq tə'limin keyfiyyətini yüksəlişinə, aparılan tərbiyə işlərində öz tə'sirini göstərmişdir. İndi şagirdlər tədris prosesində passiv müşahidəçi kimi deyil, onun əsas simasına çevrilmişdir. Məktəbdə təhsilin humanistləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər nəticəsində məktəblilərin müstəqilliyi, sərbəstliyi artmış, iste'dadlı şagirdlərin aşkara çıxarılması üçün imkanlar yaratmışdır. Rayonda il ərzində "ilin ən yaxşı müəllimi", "ilin ən yaxşı şagirdi", "ilin ən yaxşı tərbiyəçisi, "ilin ən yaxşı tə'lim-tərbiyə mütəxəssisi" və digər müsabiqələrdə keçirilmiş və müsabiqəyə bu ilin aprel ayında yekun vurulmuşdur.

Ölkə prezidentinin həyat və fəaliyyəti müəllimlərimiz tərəfindən maraqla öyrənilir. Bu məqsədlə rayonun bütün ümumtəhsil məktəblərində "Heydər Əliyev irsini öyrənmək" kursu üzrə məşğələlər təşkil edilmiş, burada Heydər Əliyevin həyat və fəaliyyətini müasir idarəetmə metodları haqqında baxışları, daxili və xarici siyasəti sahəsində həyata keçirdiyi tədbirlər haqqında dinləyicilərə ətraflı mə'lumat verilir. Rayonumuzun bütün tədris müəssisələrində Heydər Əliyev irsinə aid sərgilər, stendlər təşkil edilmiş, inşa yazı müsabiqələri keçirilmişdir. 1991-93-cü ilin birinci yarısına kimi respublikamızda yaranmış özbaşınalıq, xaos, hakimiyyətsizlik şəraiti rayon təhsil müəssisələrinə də ciddi ziyan vururdu. Xalq cəbhəsi dövründə hazırlanmış təhsil qanunu əslində kağız üzərində qalmış, icrasını tə'min etmək mümkün olmamışdır.

Bu gün Azərbaycan ziyalılar ölkəsi kimi tanınır. Buna hamımız sevinməliyik. Bu sevinci isə bizə XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi nadir şəxsiyyət, dünya şöhrətli siyasətçi, təcrübəli dövlət başçısı, sevimli prezidentimiz Heydər Əliyev bəxş edib. Bəli, fərəhlə deyə bilərəm ki, 30 ildən çoxdur ki, Heydər Əliyev zəkasının nuru Azərbaycan xalqının ömür yolunu işıqlandırır. Bu işıqlı yol milli tariximizi həm yazır, həm də yaradır.



Müasir dövrdə Heydər Əliyev haqqında söz demək tariximiz haqqında danışmaq deməkdir. Sözün həqiqi mə'nasında Heydər Əliyev həm müasir siyasətçimiz, həm də tarixi salnaməmizdir.

Bu gün Azərbaycanın təhsil sistemində geniş islahatlar aparılır, tədris proqramı dünyanın inkişaf etmiş ölkələrin səviyyəsinə uyğun tərtib olunur. Bu da tələbə və şagirdlərin dərin elmi biliklərə yiyələnməsinə böyük tə'sir göstərir.

Möhtərəm Prezidentimizin atalıq qayğısı hesabına məktəbimizə hər cür qayğı göstərilir. Təhsil nazirimiz Misir Mərdanov daim bizimlə maraqlanır, ehtiyac və tələblərimizi öyrənir. Sözün həqiqi mə'nasında prezidentimiz cənab Heydər Əliyevə olan inam və məhəbbətimizi öz əməli işimizlə, şagirdlərə öyrətdiyimiz zəngin elmi biliklərə, Vətənə, xalqa nümunəvi xidmət göstərməyi bacara bilən tərbiyə etdiyimiz övladlarımızla, sabahın layiqli vətəndaşları ilə doğrultmağa çalışırıq.

Kürdəmir rayon təhsil şö'bəsinin pedaqoji kollektivi adından və şəxsən öz adımdan möhtərəm Prezidentimiz cənab Heydər Əliyevin anadan olmasının 79 illiyi, hakimiyyətə yenidən qayıdışının 9 illiyi münasibətilə və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə Prezidentimizi təbrik edir, ona uzun ömür, cansağlığı, dövlətimizin, müstəqilliyimizin möhkəmlənməsi, torpaqlarımızın bütövlüyünün tə'min edilməsi, milli iqtisadiyyatımızın inkişafı və Azərbaycan xalqının rifah halının yüksəldilməsi yolunda uğurlar arzulayıram.

---

**Şəmkir Rayon Çinarlı Bələdiyyəsinin sədri Zeynalov Zeynalabdin Abbas oğlu 1954-cü ildə anadan olub. Azərbaycan Pedaqoji İnstitutunun mühəndis-mexanik fakültəsini bitirib. Ailəlidir, 4 övladı var. YAP-ın üzvüdür.**



Ölkənin ən çətin günlərində dünya şöhrətli siyasətçi Heydər Əliyevin böyük siyasətə qayıdışı, xalqın istəyi və arzusu ilə yenidən ölkə rəhbərliyinə gəlişi Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, özbaşınalığa son qoydu. Böyük şəxsiyyətin siyasi müdrikliyi, uzaqgörən siyasəti sayəsində artıq əldən getməkdə olan dövlət müstəqilliyimiz, milli azadlığımız qorunub saxlandı.

Ölkənin təhlükəsizlik konsepsiyası yaradılmış, onun başlıca təminat mexanizmləri olan ordu formalaşmış, Azərbaycanın beynəlxalq və regional təhlükəsizlik sisteminə qoşulması istiqamətində mühüm tədbirlər görülmüşdür. Ölkənin milli mənafelərinə və təhlükəsizlik tələblərinə cavab verən xarici siyasət formalaşdırılmış, Azərbaycan dövlətlərarası, beynəlxalq, regional və ikitərəfli münasibətlər sisteminə qoşulmuşdur. Prezidentimiz tarixi şəxsiyyətdir. 15 iyun - "Qurtuluş günü"də Onun hakimiyyətə gəlməsi təkcə xalqın deyil, həm də zamanın tələbi idi.

Biz də bu gün münasibəti ilə Ulu Tanrıdan ona uzun ömür arzulayırıq.

---

**Xanlar rayon Çaykənd qızıl balıq artırma zavodunun direktoru Quliyev Fikrət Manaf oğlu 1931-ci ildə anadan olubdur. Ailəlidir, iki övladı var. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının İqtisadiyyat fakültəsini bitiribdir. YAP-ın üzvüdür.**



Möhtərşəm prezidentimiz H.Əliyev haqqında günlərlə danışmaq olar. Müdrik ağsaqqalımız, dahi liderimiz haqqında nə qədər yazılar, kitablar yazılsa da, filmlər çəkilsə də yenə də azdır. Çünki onun respublikamıza birinci dəfə rəhbərlik etdiyi dövrdə, ikinci qayıdışından sonra gördüyü işlərin gərginliklərini, həyəcanlarını heç nəyə sığışdırmaq mümkün deyil. O, hər bir addımında səni, məni, onu, bizi düşünür. Ona görə də hər bir vətəndaş bu torpaqda yaşayırsa, çörəyini yeyirsə, suyunu içirsə, vətəndaşlıq borcunu yerinə yetirmək naminə Respublikada yaranan çətinlikləri dəf etməkdə möhtərəm prezidentimizə kömək etməlidir. Artıq Heydər Əliyev siyasi fəaliyyətdə öz layiqli yerini tutan Azərbaycanın erməni qəsbkarları tərəfindən işğala məruz qaldığını bütün dünyaya sübut etdirmişdir. 14 iyul - prezidentimizin siyasi fəaliyyətinin 33 illiyi münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı arzulayıram.

---

**Şəmkir rayon 17 saylı zona tibbi sosial ekspert komissiyasının sədri Məmmədov Rəhim Nəbi oğlu 1953 ildə anadan olubdur. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitiribdir. Ailəlidir, 3 övladı var. YAP-ın üzvüdür.**



Xalqımıza Qartal vüqarlı, dağ əzəmətli, möhtərəm prezidentimizin ətrafında sıx birləşməyi arzu edirəm, çünki Azərbaycan respublikasının inkişafı, müstəqilliyinin təminatı cənab H.Əliyevdir. Azərbaycan Respublikasının dövlət quruculuğu yolunda xalqımız cənab Heydər Əliyevə minnətdar olmalıdır.

"Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının xilas yoludur və bu artıq özünü göstərir. Nəticələrdə göz qabağındadır. "Əsrin müqaviləsi" çox böyük tarixi bir məqamdır, bunu möhtərəm prezidentimiz, onun müdrik, böyük siyasəti həll etdi. Və elə bilirəm ki, "Əsrin müqaviləsi" Azərbaycan xalqına ancaq firavanlıq, iqtisadi bolluq bəxş edəcək, məişətdə, yaşayışda, həyat tərzində inkişafa çıxaracaq.

Möhtərəm prezidentimizin hakimiyyətə qayıdışının 9 illiyi münasibətilə təbrik edir, ona can sağlığı arzu edir, onun daxili və xarici siyasətini bəyənir və dəstəkləyirik.

# MÜSTƏQİL AZƏRBAYCANIMIZ HEYDƏR ƏLİYEV DÜHASINDA DÜNYAYA BOYLANIR

**Məhərrəmov Əlrəmzi Bağı oğlu 1953-cü ilin iyun ayının 26-da İsmayıllıda anadan olub. 1976-cı ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirib. 1976-cı ildən səhiyyə sistemində çalışır. 1996-cı ildən İsmayıllı rayon Mərkəzi Xəstəxanasının baş həkim vəzifəsində işləyir. 1995-ci ildən YAP-ın üzvüdür.**



Möhtəşəm dağlar öz buz zirvəsilə, sıldırımlı yarğanları ilə şöhrətlidirsə, ölkə də, xalq da öz böyük şəxsiyyətləri ilə tarixin səhifələrini bəzəyir. Fərəhlidir ki, XX əsrin sonlarında ikinci dəfə müstəqillik qazanmış Azərbaycan dövlətinin varlığı cənab prezident Heydər Əliyev dühası ilə bağlıdır. 1991-ci ildən özünün müstəqillik aktını qəbul edən Azərbaycan çox qısa müddətdə öz varlığını itirmək təhlükəsilə üzləşdi. 1993-cü ildə artıq ölkədə xaos, "bespredel" və nəhayət, vətəndaş müharibəsi kimi dəhşətli faciə reallaşmışdı. Azərbaycan artıq parçalanaraq, dilimlənərək bir dövlət kimi məhv olmaq dəhşətilə üzləşmişdi. Azərbaycan xalqı "olum" və ya "ölüm" dilemması qarşısında özünün xilaskar oğlu, alovlu vətənpərvəri, dahi şəxsiyyəti, müdrik siyasətçisi cənab Heydər Əliyev dühasına üz tutdu. Və şükürlər olsun ki, yanılmadı xalqımız. Xalqın sabaha olan inamı itməkdə idi. Belə çətin bir dövrdə Azərbaycan xalqı üzünü Naxçıvana tutaraq Heydər Əliyevi təkidlə Bakıya dəvət etdi. Ölkəsinə, doğma Vətəninə rəhbərlik etmək üçün öz doğma xalqından mandat alan cənab Heydər Əliyev 1993-cü ildə Azərbaycan Prezidenti seçildi. Bununla da Azərbaycanda demokratik seçkilərin əsası qoyuldu. Yeni Konstitusiya qəbul edildi, müstəqil demokratik dövlətin inkişafı üçün geniş imkanlar yarandı.

Cənab Heydər Əliyev prezident seçildikdən sonra istər xarici, istərsə də daxili düşmənlərə qarşı mübarizə apararaq ölkəmizin ərazi bütövlüyünü qoruyub saxlaya bildi. Cəbhə xəttində atəşkəsə nail olundu, evlərə Vətən oğullarının cənazəsi ilə tabutlar gəlmədi, analar, qızlar, gəlinlər gözüyaşlı qalmadı.

Heydər Əliyevin böyüklüyü özünü burada göstərdi. O, xalqın sağlam qüvvəsindən müdrikcəsinə istifadə edərək onu müstəqilliyin qorunması məqsədinə yönəltməyə nail oldu. Taleyüklü problemin həlli çözümündə iki mühüm amil - Heydər Əliyev dəyanəti və əqidəsi ilə xalqın öz rəhbərinə inamı və sonsuz məhəbbəti kimi mənəvi tellər xilaskarlıq nöqtəsində birləşdi. Bir sözlə, Müstəqil Azərbaycan Heydər Əliyev dühasında yenidən doğulur, qurulur və möhkəmlənir. Müstəqil Azərbaycan Heydər Əliyev işığında müasir dünyaya boylanır.

İnanıram ki, qədirbilən xalqımız Heydər Əliyev siyasətinin işığında, öz müdrik rəhbəri ilə birlikdə yaşadığımız əsrin sonunda əldə etdiyi nailiyyətləri qoruyub saxlayacaq, üçüncü minillikdə daha böyük uğurlar qazanaraq bu şanlı tarixin yeni-yeni parlaq səhifələrini yazacaq.

Kollektivimiz adından möhtərəm prezidentimiz Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışının doqquz illiyi və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə təbrik edir, Azərbaycan xalqına daimi azadlıq və firavan həyat arzulayıram.



**Hacıyev Cümşüd Bəhərçin oğlu 1948-ci ildə İsmayıllı rayonunun Baqqal qəsəbəsində anadan olub. 1972-ci ildə Ç.İldırım adına Politexnik İnstitunun "Avtomatika" fakültəsini bitirib. Dəfələrlə rayon və şəhər sovetinin deputatı olub. Rəhbər vəzifələrdə çalışıb. 1974-1999-cu illərdə İsmayıllı rayon İstehsalat Kombinatının direktoru vəzifəsində çalışıb. 1999-cu ildən İsmayıllı şəhər Bələdiyyəsinin sədri vəzifəsində işləyir. YAP-ın üzvüdür.**

Xalqına, Vətəninə xidmətdə keçirdiyi narahat, təlatümlü, mənalı ömrünün 79-cu baharına qədəm qoymuş, dünya şöhrətli müdrik prezidentimiz cənab Heydər Əliyev səmada parlayan günəş kimi aramsız olaraq bir xalqın taleyini isidir. Anadan olmasının 79-cu ildönümünü qeyd etdiyimiz Heydər Əliyevin fenomen ömrünün bütün təfərrüatını canlandırmaq mümkün olsaydı, bəlli olardı ki, onun hər bir anı nümunə və örnəkdir. Bunun üçün yalnız tarixi hadisələrin bir qismini xatırlamaq da kifayətdir.

XX əsrin sonunda Azərbaycanın ictimai-siyasi həyatı xüsusilə ağırlaşdı. Sovet imperiyasının süqutundan sonra müstəqillik qazanmış ölkə mütəmadi olaraq xarici və daxili müdaxiləyə məruz qaldı. Xarici ölkələrdəki erməni diasporundan və onların havadarlarından rəvac alan Ermənistanın işğalçı silahlı qüvvələri Azərbaycan torpaqlarının xeyli hissəsini zəbt etdi. Yalnız öz şəxsi mənafelərini düşünən o vaxtkı dövlət rəhbərləri isə xalqın və vətənin problemlərini həll etməyə qadir deyildi. Belə ağır və mürəkkəb şəraitdə xalq öz müdrik oğluna - Heydər Əliyevə üz tutaraq onu yenidən respublikaya rəhbərlik etməyə dəvət etdi. Ağır şəraitdə Heydər Əliyev dağılmaq üzrə olan ölkənin sükanını ələ aldı. Və qətiyyətlə dövlət idarəçiliyinə başladı. Az vaxt ərzində hər şey dəyişdi. Ölkədə siyasi sabitlik yarandı. Atəşkəsə nail olundu, islahatlar keçirildi. Prezidentin Amerika, Rusiya, Çin Xalq Respublikası, İraq, Fransa, Orta Asiya və s. dövlətlərə mütəmadi səfərləri, Lissabon zirvə görüşündəki diplomatik addımları xarici siyasətdə Azərbaycana uğurlar qazandırdı. Qanlı müharibəni dayandırmaq, sülhə nail olmaq, ölkə-ölkə, şəhər-şəhər gəzərək, Qarabağ həqiqətlərini, erməni məkrinin tarixi köklərini bütün dünyaya ən yüksək tribunalardan bəyan etmək və onun həlli yolundakı məqsədinə addım-addım yaxınlaşmaqla o, əslində böyük bir ordunu görə bilməyəcəyi işi görür.

Son illərdə respublikamızda demokratik əsasda təşkil edilərək yeni qurum kimi fəaliyyət göstərən bələdiyyələrin yaradılması da möhtərəm prezidentimizin fəaliyyəti ilə bağlıdır. Məlum olduğu kimi Azərbaycan dövlətçiliyinin tarixində yerli özünü idarə orqanları olmamışdır. Bu məsələ ilk dəfə möhtərəm prezidentimizin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanaraq 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunub, Azərbaycan respublikasının Konstitusiyasında öz əksini tapmışdır.

Qısa müddət ərzində ilk addımlarını atan bələdiyyələrin qarşılaşdığı bəzi problemlər öz həllini tapacaq və daha geniş miqyaslı tədbirlər planı ilə fəaliyyət göstərəcək.

Bələdiyyənin üzvləri və şəxsən mən YAP-ın üzvüyəm. Bələdiyyənin üzvləri bütün mədəni-kütləvi tədbirlərdə, əlamətdar tarixi günlərin qeyd olunmasında əhali ilə birgə olur və əlindən gələn köməyi əsirgəmir.

**15 iyun - "Qurtuluş günü" və 14 iyul siyasi fəaliyyətinin 33 illiyi münasibətilə möhtərəm prezidentimiz Heydər Əliyevi və xalqımızı ürəkdən təbrik edirəm. Prezidentimizə böyük səbr, müvəffəqiyyət, xalqımıza həmrəylik arzulayıram.**

**Sultanov Oktay Nəcəf oğlu 1955-ci ildə İsmayıllı şəhərində anadan olub. 1981-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirib. 1985-ci ildən İsmayıllı rayon təcili yardım şöbəsinin müdiri vəzifəsində işləyir. 2000-ci ildən YAP-ın üzvüdür.**

Mən fəxr edirəm ki, Azərbaycan dövləti və xalqımız üçün strateji əhəmiyyətli hesab olunan idarəyə rəhbərlik edirəm. Bizim gördüyümüz işlər hər gün xalqın gözü qarşısındadır. Qeyd etmək istəyirəm ki, təcili yardım səhiyyənin ön cəbhəsidir. Təcili yardım stansiyasında işləyən səhiyyə işçilari digərlərindən fərqli olaraq fanatik olurlar, xalqa ürəkdən xidmət edirlər. Təcili yardımın özünəməxsus iş üslubu vardır. Burada soyuqqanlı, daşürəkli işçi heç vaxt çalışa bilməz. Və mən hər dəqiqə necə böyük məsuliyyətli və-



zifə icra etdiyimi bütün varlığımla hiss edirəm, xalqa xidmət edən isə heç vaxt yorulmaz.

Mən 2000-ci ildən YAP-ın üzvüyəm. 1993-cü ildən üzü bəri xalqın və dövlətin həqiqi rəhbəri Heydər Əliyev cənablarının apardığı siyasət xoşbəxt sabaha inam yaratdı.

Bir həkim kimi prezidentimizə ilk növbədə uzun ömür, cansağlığı arzu edirəm. Möhtərəm Heydər Əliyevin Azərbaycan səhiyyəsinə olan diqqəti, qayğısı, xüsusi nəzarəti bütün səhiyyə işçiləri tərəfindən alqışlanır. Mən deyərdim ki, o, bütün xalqın sağlamlığı keşiyində dayanmışdır.

Dövlətin sağalmaz yaralarına məlhəm olan, xalqın hər bir problemini həll etməyə çalışan, qələbələrdə ümid çırağı yandıran Heydər Əliyev ilahi qüvvəyə malik şəfaətçi, ən böyük həkimdir.

Cənab Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışının 9 illiyini kollektivimiz və bütün səhiyyə işçiləri rəğbətlə qarşılayırlar.

15 iyun - "Qurtuluş" günü münasibətilə xalqımızı təbrik edirəm. Xalqımızın yeganə ümid yeri olan xilaskar dövlət başçımıza ömrünün qarşıdan gələn illərində də cansağlığı könül xoşluğu, uğurlar arzulayıram.



**Həbibov Murad Alıcan oğlu 1952-ci ildə İsmayıllı şəhərində anadan olub. 1975-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun Sanitariya və gigiyena fakültəsini bitirib. 1986-cı il sentyabr ayının 1-dən İsmayıllı rayon Mərkəzi Xəstəxanasında Klinik labarotoriyasının müdiri vəzifəsində işləyir. 1995-ci ildən İsmayıllı rayon Mərkəzi Xəstəxanasının YAP ilk təşkilatının sədridir. 2001-ci ilin Noyabr ayının 28-dən YAP rayon təşkilatının üzvüdür.**

Ölkəmizdə yaşamaq və yaratmaq inamını insanlara bəxş edən, onları dövlətimizin milli mənafeləri uğrunda mübarizəyə səfərbər edən yeganə siyasi qüvvə vardır ki, o da Cənab Heydər Əliyevin sədr olduğu YAP-dır.

Partiya quruculuğuna, bu sahədə aparılan işlərin daim təkmilləşdirilməsinin vacibliyinə xüsusi önəm verən möhtərəm Prezidentimizin müdrik və uzaqgörən siyasəti nəticəsində bu gün YAP ölkənin ən böyük və nüfuzlu siyasi təşkilatı olaraq dövlətçiliyimizin qorunması və inkişafı etdirilməsi kimi şərefli bir funksiyanı daşıyır.

YAP bu gün öz adını və məramını tam doğruldur. Təsis olunduğu ilk gündən etibarən, qüdrətli və demokratik Azərbaycan dövlətinin yaradılmasını qarşısına məqsəd qoyan YAP-ın əldə etdiyi bütün nailiyyətlər müstəqil Azərbaycan dövlətinin qurucusu, YAP-nın yaradıcısı, respublikanın möhtərəm prezidenti, YAP-ın sədri cənab Heydər Əliyevin adı ilə bağlıdır.

İsmayıllı Rayon Mərkəzi Xəstəxanasında 1995-ci ildə YAP-ın üzvü 21 nəfərdən ibarət idi. Lakin 2001-ci ilin hesabat dövründə bu göstərici 237 nəfərə çatmışdır. Hal-hazırda da işə qəbul olunan gənc tibb işçilərinin sayəsində bu göstərici artmaqdadır.

İsmayıllı rayon Mərkəzi Xəstəxanasının həkimi və YAP ilk təşkilatının sədri kimi kollektivimiz adından bütün YAP-çıları və xalqımızın Qurtuluş bayramı münasibətilə təbrik edirəm.

İnanıram ki, Azərbaycanın üç rəngli bayrağı ilə bərabər YAP-ın al bayrağı da işğaldan təmizlənmiş torpaqlarımızda dalğalanacaq!

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN XALQININ XOŞBƏXT GƏLƏCƏYİNİN YEGANƏ QARANTIDIR



Qocayev Əlisahib Əlimusa oğlu 1957-ci ildə Şamaxı rayonunun Şərədil kəndində anadan olub. 1985-ci ildə Neft Kimya Akademiyasının "mühəndis-iqtisadiyyat" fakültəsini bitirib. Tikinti sahəsində, suvarma sistemlərl idarəsində baş iqtisadçı, 1991-ci ilin iyul ayının 4-dən Ağsu rayon 21 saylı təmir-tikinti idarəsində baş mühasib, sonra 1996-cı ildən Gəncə şəhər Məişət Xidməti Kollecinin Ağsu şö'bəsində iqtisadiyyat kofedrasında müəllim işləyir. 2000-ci ildən isə YAP Ağsu rayon təşkilatının icra aparatının rəhbəridir.

Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının Azərbaycan xalqının rifahı naminə göstərdiyi əvəz olunmaz xidmətlər hər bir azərbaycanlıya gözəl məlumdur. Onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının ümumxalq partiyasına çevrilməsində də onun rolu əvəzolunmazdır. Mən bu partiyamn təşkilatçılarından biri kimi möhtərəm pezidentimiz Heydər Əliyev və Yeni Azərbaycan Partiyası haqqında söz deməmişdən əvvəl Ağsu rayonunda bu partiyanın özəyini təşkil edənlər və partiyanın bu günki fəaliyyəti haqqında bir neçə kəlmə söz demək istəyirəm. Rayonumuzda YAP -nın təşkil olunmasında Ağsu rayon icra hakimiyyətinin başçısı Azər Səfərovun, YAP Ağsu rayon təşkilatının sədri Pənahov Böyükkişi müəllimin və digərlərinin fəaliyyəti böyük olmuşdur. Məhz onların və digər YAP üzvlərinin zəhməti bahasına bu gün rayonumuzda 70-dən artıq YAP-ın qərargahı və 2000-dən artıq üzvü vardır. Bütün Ağsu camaatı möhtərəm prezidentimizin düzgün, müdrik siyasətini dəstəkləyir və dəstəkləyəcəkdir. Biz hamımız bilirik ki, Heydər Əliyev Azərbaycan xalqının xoşbəxt gələcəyinin yeganə qarantıdır.

Möhtərəm pezidentimiz cənab Heydər Əliyevin rəhbərliyi ilə xoş niyyət, sağlam istək və arzularla yaranmış Yeni Azərbaycan Partiyası özünün bütün fəaliyyətini respublikamızm suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, hüquqi, demokratik, sağlam mənəviyyat, təmiz əxlaq uğrunda mübarizəyə yönəltməlidir. Xalqın güzaranının yaxşılaşdırılması üçün bütün imkanlarından istifadə edilməlidir. O cümlədən Azərbaycanın zəngin təbii sərvətləri xalqın xidmətinə verilməlidir.

Azərbaycan qloballaşan dünyaya inteqrasiya olunmalıdır.




1992-ci ilin Noyabr ayınıda Azərbaycanın mütərəqqi qüvvələri Heydər Əliyevin ətrafında birləşərək, YAP-ın yaradılması Azərbaycanın müasir tarixində çox mühüm hadisə - Azərbaycan cəmiyyətinin həyatının yeni mərhələsinin başlanğıcını qoyan və ölkəmizin inkişaf yollarını müəyyənləşdirən tarixi hadisə oldu.

Hərc- mərclikdən və qanunsuzluqdan, siyasi və hərbi məğlubiyyətlərdən, iqtisadi dağıntıdan və özbaşınalıqdan, hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün savadsızlığından yorulmuş Azərbaycan cəmiyyəti yerini yeni partiyanın yaradılmasmda gördü, Heydər Əliyevin ətrafında birləşdi. Çünki xalq innırdı ki, ölkəmizi böhrandan yalnız Heydər Əliyev çıxara bilər, Azərbaycanı parçalanmaqdan və müstəqilliyinin itirilməsindən o xilas edəcəkdir.

Məhz belə də oldu. Azərbaycanın son 9 ildəki tarixi sübut etdi ki, Azərbaycan xalqı düzgün seçim etmmişdir.

Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azəərbaycanda quruculuq, müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi yüksəliş, cəmiyyət həyatının bütün sahələrində islahatlar dövrü başlandı. Azərbaycan qətiyyətlə demokratiya yolunu tutdu.

Əvvəlki rəhbərliyin qoyduğu senzura ləğv edildi. İndi ölkədə söz azadlığı və hər bir demokratik dövlətə xas olan bütün başqa azadlıqlar mövcuddur.



Azərbaycanda siyasi islahatlar uğurla həyata keçirilir. Tam inamla demək olar ki, son 9 il ərzində Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsi sahəsinədə elə nəticələrə nail olmuşdur ki, demokratik dövlətlərin bir çoxu bunların neçə illiklər ərzində əldə etmişlər.

Siyasi sahədəki islahatlar iqtisadiyyatda aparılan islahatlarla müşaət olunur. 1993-cü ildə dövlətimizin başçısı iqtisadiyyatın inkişafının bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan başlıca istiqamətlərini müəyyənləşdirirdi. Son illər ərzində Azəabaycan cəimyyəti bu xəttin düzgünlüyünə əmin oldu.

YAP -Azəabaycan cəmiyyətinin bütün təbəqələrini birləşdirən ümumxalq partiyasıdır.

Bu partiyada yaşlı nəslin müdrikliyi gənclərin enerjisi ilə qovuşur. Ölkənin son illər ərzində qazandığı bütün uğurlarda məhz YAP-nın üzvləri başlıca rol oynamışlar.

YAP-ın II qurultayından sonra partiyanın təşkilatlanma işi daha da genişlənmiş, nəinki rayon təşkilatlarında hətta ərazi ilk partiya təşkilatlarının yüksək səviyyəli qərargahları istifadəyə verilir. Partiyanın qarşıdan gələn seçki ərəfəsində təbliğatların genişdirilməsi üçün həmin qərargahlar nəinki partiya üzvlərinə bütün ictimaiyyət nümayəndələri üçün açıq qapıya çevrilib.

Belə işgüzar tədbirlər Ağsu rayonunda da həyata keçirilməkdədir. Partiya qərargahlarınm istifadəyə verilməsi nəinki partiya üzvlərinin, hətta ictimaiyyət nümayəndələrinin ümidgahına çevrilir. Çünki, hər hansı bir problem həlli məqsədilə qərargaha üz tutan ictimaiyyət nümayəndələri ümidsiz geri qayıtmır. Bu da dövlətə və dövlətçiliyə olan imkani bir daha artırır.

Xalqının, Vətəninin firəvanlığını həyat amalına çevirmiş Heydər Əliyev qara qüvvələrin bütün maneələrini aşaraq,Azərbaycanı fəlakətdən keçirib dünya birliklərinin nüfuzu üzvlüyünə çatdırdı.

Yaşlı, orta və gənclər arasındakı qarşılıqlı münasibətləri hörmət, yardım, qayğı əsasında qurmağımız partiyanın rəhbər orqanlarının təşkili zamanı həvəs və bacarıqlarla yanaşı, yaş nisbətinin də nəzərə alınmısı rayon təşkilatının ideya-siyasi və təşkilati işinin səmərəsini artırmışdır.

Çalışacağıq ki, bundan sonra da möhtərəm prezidentimiz Heydər Əliyevin göstərdiyi ictimai-siyasi və ideoloji xətt üzrə tənzimləyək. Ümumiyyətlə daha rəhbərimiz Heydər Əliyev məktəbinin davamçısı kimi xalqımızı "Qurtuluş" bayramı münasibətilə Ağsu camaatı adından təbrik edirəm. Gördüyünüz kimi bu bayram Ağsuda da böyük təntənə ilə qeyd olunur. Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarını da xalqımızın "Milli Qurtuluş" günü və siyasi fəaliyyətinin 33 illiyi münasibətiilə təbrik edirəm. Ona uzun ömür, cansağlığı arzulayıram.

Sizin qəzetinizin kollektivinə xoş niyyətli təşəbbüsünə, görə təşəkkür edirəm.

---



**Quliyeva Nuranə Aslan qızı 1989-cu ildə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının fortepiano şöbəsini bitirmişdir. O, 1988-ci ildən hal-hazıra kimi Xanlar şəhər musiqi məktəbinin pedoqoji kollektivinə rəhbərlik edir. 1997-ci ildən YAP-ın üzvüdür. 2001-ci ildən Xanlar şəhər uşaq musiqi məktəbi YAP-təşkilatının sədridir, qurultay nümayəndəsidir.**

Müstəqil Azərbaycan Dövlətinin başçısı, görkəmli dövlət xadimi, YAP-nın sədri, dünya şöhrətli siyasi xadim, sülhpərvər insan, demokratiya, humanizm prinsiplərinə sədaqətli şəxs olan cənab Heydər Əlirza oğlu Əliyevi anadan olmasının79 illiyi və hakimiyyətə qayıtmağının 9 illiyi münasibətilə Xanlar şəhər uşaq musiqi məktəbinin kollektivi adından təbrik edir və ona uzun ömür, can sağlığı arzu edirik. Onun daxili və xarici siyasətini bəyənir və dəstəkləyir, şərəfli çətin işdə müvəffəqiyyət diləyirik.

---

**Xanlar rayonu Kooperativ Cəmiyyəti İdarə heyətinin sədri Rüstəmov Saleh Polad oğlu 1959-cu ildə Göyçə mahalının Qaraiman kəndində anadan olub. Az.KTA-nın meyvə-tərəvəz və üzümçülük fakültəsini bitirib. Ailəlidir, üç övladı var. YAP-ın üzvüdür.**

Möhtərəm prezidentimiz Heydər Əliyev haqqında günlərlə danışmaq olar. Müdrik ağsaqqalımız dahi liderimiz haqqında nə qədər yazılar, kitablar yazılsa da, filmlər çəkilsə də, yenə də azdır. Çünki, onun respublikaya birinci dəfə rəhbərlik etdiyi dövrdə ikinci qayıdışından sonra gördüyü işlərin gərginliklərini, həyəcanlarını heç nəyə sığışdırmaq mümkün deyil. Hər bir addımında səni, məni və bizi düşünür. Ona görə də hər bir vətəndaş bu torpaqda yaşayırsa, çörəyini yeyirsə, suyunu içirsə, vətəndaşlıq borcunu yerinə yetirmək naminə Respublikada yaranan çətinlikləri dəf etməkdə möhtərəm prezidentimizə kömək etməlidir.

Artıq Heydər Əliyev siyasi aləmdə öz layiqli yerini tutan Azərbaycanın erməni qəsbkarları tərə-



findən işğala məruz qaldığını bütün dünyaya sübut etmişdir. Mən möhtərəm prezidentimiz haqqında onu deyə bilərəm ki, 1992-ci ildə məxfi işlə əlaqədar olaraq Krasnodar vilayətinin Krasnodar şəhərində olmuşam. Krasnodar şəhərinin Mebel fabrikinin direktoru Luşkeeviçlə görüşüm oldu və elə bu anda xəbər çatdı ki, Şuşanı işğal etdilər. Bu may ayının 8-i idi. Yoldaş Luşkeeviç bir neçə ziyalıların yanında belə bir fikir işlətdi ki, neçə ki, Heydər Əliyev dar çərçivədə Naxçıvan MR-dadır, bu sizin son faciəniz deyil. Hələ sizi bundan da güclü faciələr gözləyir. Siz başa düşməlisiniz ki, Heydər Əliyev kimi şəxsiyyət Naxçıvan kimi xırda bir respublikada dar çərçivəyə sığışa bilməz. Siz yaxşı fikirləşin. Azərbaycan xalqı yaxşı fikirləşsin ki, Azərbaycana Heydər Əliyev kimi dahi bir şəxsiyyət lazımdır. Sizi bu fəlakətdən ancaq o qurtara bilər. Bunu 1992-ci ildə tamamilə kənar bir şəxsdən, yəni rus mənşəli bir insandan eşitdim. Mən bir ziyalı kimi prezidentimizə həyatda uzun ömür, can sağlığı arzu edirəm.

# Təhsilimizdəki uğurlar Heydər Əliyevin adı ilə bağlıdır

Maqsud Hacıyev Şəmkir rayon təhsil şöbəsinin müdiri

Respublikada xüsusi çəkisi olan Şəmkir rayonunun çoxminli müəllim və şagird kollektivləri adından hörmətli prezidentimizin 79yaşı tamamlanması və hakimiyyətə yenidən qayıdışının 9 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm, ona cansağlığı arzulayıram.



Arzu edirəm ki, öz təşəbbüsü ilə üzərinə götürdüyü bu çətin, ağır, lakin şərəfli fəaliyyətini on illərlə davam etdirsin.

Fürsətdən istifadə edib xalqımızın atası, millətimizin xilaskarı və aparıcısı kimi cənab Heydər Əliyev haqqında mən də gə öz fikrimi bildirmək istərdim.

Onun 79 yaşı tamam oldu.

- O, varlığını, bütün həyatını insanlara, xalqına, millətinə, milyonlarla azərbaycanlının yaşayıb yaratmasına, işıqlı gələcəyinə həsr edib.

Özü istəməsə də, xalqı ona hələ çox yaşadacaq.

- Onun yaşadılması Azərbaycanın müstəqil yaşaması, sürətlə inkişaf etməsi, yüksəlib, möhkəmlənməsi, şöhrətlənməsi deməkdir;

Təsadüfi deyil ki, yaşa dolmuş minlərlə ahıllarla yanaşı - "Allah, mənim ömrümdən kəs, onun ömrünə cala" deyən cavanlarımız, gənclərimiz də az deyil. Xalqın qəlbindən axıb dilinə gələn bu böyük və əzəmətli xeyir-dua onu hələ çox yaşadacaqdır.

Tariximizə həkk edib, yaddaşımızda əbədiləşdirdiyimiz peyğəmbərlərdən heç birinin millət yolunda onun qədər əməyi və nailiyyəti olmamışdır.

Bəşəri insanlardan, hətta tarixin görkəmli dahilərindən də fərqli olaraq, o, yaşadıqca müdrikləşir, zənginləşir.

- Ona, xalqımız, tarixdə rastlaşdığı ən çətin anlarda, millətin olubolmaması məsələsinin həlli məqamında, ilahi tərəfindən xilaskar kimi baxır. Siyasi fəaliyyətinin 33 illiyi və hakimiyyətə yenidən qayıdışının 9 illiyi münasibətilə prezidentimizi təbrik edir, xalqımıza prezidentimizin ətafında sıx birləşməyi arzulayıram.



**Tovuz rayon meşə mühafizə və bərpası müəssisəsinin müdiri Nağıyev Fərman Hüseyn oğlu 1939-cu ildə Tovuz rayon Əmrikçırdaxan kəndində ziyalı ailəsində dünyaya göz açıbdır. Ailəlidir, altı övlad atasıdır. YAP Rayon təşkilatının sədridir.**

Müəssisədə 20 nəfər YAP üzvü fəaliyyət göstərir. Meşə təsərrüfatı 30600 Ha-dır. Təsərrüfatda taxıl əkilir, qoyunçuluqla məşğul olunur, istehsal olunan məhsullar müəssisənin öz işçilərinə ucuz qiymətə satılır və şəhid ailəsi, qaçqın və köçgünlərə köməklik edilir. 2001-ci ildə 60 ha yeni ağac əkilibdir, yəni ağac sortlarından akasiya, qoz, palıd, sərv, körüc sortları möhtərəm prezidentimizin şərəfinə əkilmişdir. 2002-ci ildə isə 100 ha təzə şitillik ağaclar əkilibdir. Tovuz meşələri müəssisə təsərrüfatı ciddi qorunur. İşlərində fəal iştirak edən meşəçilərdən Bəhlul Musayev, Şahnigar Əsgərov və s. göstərmək olar. Mən və mənim işçi kollektivim belə başa düşürlər ki, Azərbaycanın xilası möhtərəm prezidentimiz Heydər Əliyevin əlindədir. Əgər o Azərbaycana rəhbərlik etməsəydi bəlkə də Azərbaycan adlı dövlət bu gün yer kürrəsindəki dövlətlərin siyahısından silinmişdi. Bəlkə də ayrı-ayrı tayfalara və regionlara başçılıq edirdilər. Ulu Tanrı bu xalqa rəhm etdi. Tanrının bu xalqa yazığı gəldi və bu insanı Azərbaycana nazil etdi. Bunu hamımız bilirik. Uşaqdan böyüyə kimi onu istəyənlər də, istəməyənlər də gördülər ki, hansı əziyyətlər bahasına Heydər Əliyev Azərbaycanı bütün əziyyətdən qurtardı. Biz hamımız ona minnətdar olmalıyıq. Heydər Əliyev 30 ildən artıqdır ki, bu ölkədə rəhbərlik edir. Biz bu insanı 50-100 ildən sonra dərk edəcəyik. XX əsrin sonlarında XXI əsrin əvvəllərində Heydər Əliyev kimi nəhəng bir insan, dahi siyasətçi, Azərbaycan dövlətini idarə edib. Biz hamımız ona uzun ömür, cansağlığı və işlərində müvəffəqiyyətlər arzu edirik.

**Başirov Fərman Zakir oğlu 1944-cü ildə İsmayıllı şəhərində anadan olub. 1969-cu ildə APİnin Fizika fakültəsini bitirib. Elə o vaxtdan təhsil sistemində işləyib. 1989-cu ildən İsmayıllı rayon təhsil şöbəsinin müdiri vəzifəsində çalışır. 1993-cü ildən İsmayıllı Rayon YAP ilk təşkilat sədridir. Hər 2 qrultayın iştirakçısı olub.**



Azərbaycan xalqının taleyində xilaskarlıq simvolutək yaşayan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımız üçün əsl bayrama çevrildi. Azərbaycan xalqı 1993-1998-ci illərdə öz layiqli övladını Prezident kürsüsündə əyləşdirdi. Və şübhəsiz ki, Heydər Əliyevi ölkə rəhbəri seçməkdə heç də yanılmamışdır. İsmayıllı rayonunda eləcə də respublikamızın digər təhsil ocaqlarında təhsilin dünya standatlarına uyğunlaşdırılması Heydər Əliyevin gənc nəslin təlim-tərbiyəsinə göstərdiyi böyük qayğıdır.

2001-ci ildə İsmayıllı rayon təhsil şöbəsi qazandığı uğurlara görə respublika təhsil nazirliyinin 2-ci dərəcəli diplomuna layiq görülüb. Belə ki, cari dərs ilində rayonda 90 ümumtəhsil məktəb fəaliyyət göstərmişdir ki, onlardan 45-i orta, 23-ü əsas, 22-si ibtidai məktəbdir.

Tələbə qəbulu Dövlət Komissiyasının statistik məlumatına əsasən 2000-2001-ci il tədris ilinin yekunlarına görə, rayon üzrə 170 nəfər respublikanın müxtəlif ali məktəblərinə, 19 nəfər Bakı Ümumqoşunlar məktəbinə, 10 nəfər özəl ali məktəblərə daxil olmuşdur.

Rayon abuturuyentlərinin imtahan fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarı olmuş, rayonun 2 nəfər məzunu 600- dən, 42 nəfəri isə 500-dən çox bal toplayaraq ali məktəblərə qəbul olunmuşdur.

2001-2002-ci tədris ilində rayonun məktəblərinin ayrı-ayrı fənlər üzrə respublika turunda iştirakı daha uğurlu olmuşdur. Respublika turunda iştirak etmiş 19 şagirddən 2 nəfəri I, 2 nəfəri II, 5 nəfəri III, 2 nəfəri isə IV yeri tutmuşlar. Rayon məktəbləri respublika üzrə keçirilən inşa yazı müsabiqələrində də yüksək nəticələr göstərmişlər. Cari dərs ilində "XX əsrdə Azərbaycanı necə görmək istəyirəm" inşa müsabiqəsində 3 şagird I yerə, Ümumittifaq Poçt İttifaqının keçirdiyi inşa yazı müsabiqəsində şəhər I saylı orta məktəbin şagirdi 1-ci yerə çıxmışdır. Milli Təhlükəsizlik Nazirliyinin və Təhsil Nazirliyinin Zaqatalada keçirdiyi inşa müsabiqəsində Aşağı Gülyan orta məktəbin şagirdi Fidan Orucova 1-ci yerə layiq görülmüşdür.

Rayonun məktəbli idmançıları da müxtəlif yarışlarda fərqlənmişlər. Şəhər 3 saylı orta məktəbin "Cəsurlar" komandası Kürdəmir şəhərində keçirilən zona yarışında II, Bakı şəhərində keçirilmiş respublika final yarışında IV yeri, "Şahin" hərbi-idman komandası isə Göyçay şəhərində keçirilmiş zona turunda I, respublika turunda isə III yeri tutmuşdur.

Cari dərs ilində istedadlı şagirdlərin aşkar edilib üzə çıxarılması və onların istedadlarının inkişaf etdirilməsi sahəsində də məqsədyönlü işin nəticəsidir ki, məktəblilər müxtəlif "baxış müsabiqə" və yarışlarda da fərqlənmişlər. Şəhər 2 saylı orta məktəbin bədii fəaliyyət kollektivi Göyçay şəhərində keçirilmiş respublika zona yarışında 1-ci yerə çıxaraq diplomla təltif olunmuşdur.

Rayonun 3 nəfər müəllimi respublika Təhsil Nazirliyinin keçirdiyi pedoqoji mühazirələrdə III yerə - Yusifova Rəfiqə, Haqverdiyev Hikmət, Mürsəliyev Balamirzə layiq bilinmiş, Gülyan kənd orta məktəbin tarix müəllimi İxtiyar Şabanov ilin qalibi kimi yüksək ada layiq görülmüşdür. Son məlumata görə, "Amerika uşaqların gözü ilə" foto müsabiqəsində Lahıc qəsəbə orta məktəbin 2 şagirdi I dərəcəli diploma layiq görülmüş və hər birinə 250.000 manat məbləğində pul mükafatı verilmişdir.

2001-2002-ci ilin tədris ilinin tədrisdə keyfiyyət ili elan edilməsi də bizim qarşımızda mühüm və şərəfli vəzifələr qoyub. Bu istiqamətdə tədbirlər planı həyata keçirilib. Təbii ki, bu günkü müstəqillik şəraitində gələcəyin gənc qurucularını yetişdirmək şərəfli işdir. Bu vəzifəni hər şeydən əvvəl Möhtərəm Prezidentimiz bizə tövsiyə edib. Onu həyata keçirmək bizim mənəvi borcumuzdur. Bu yolda xalqımıza və Möhtərəm Prezidentimizə uğurlar arzulayıram. Mən öz kollektivimiz adından 15 iyun "Qurtuluş günü" və 14 iyul siyasi fəaliyyətinin 33 illiyi münasibətilə xalqımızı və çağdaş milli varlığımızın qarantı, sevimli Prezidentimizi təbrik edir, işıqlı gələcəyə apardığı ardıcıl mübarizəsində yeni-yeni qələbə müjdələri arzu edirəm.

Mənə söz verildiyi üçün "Babadağ" qəzeti redaksiyasına öz təşəkkürümü bildirirəm.

**Samux şəhər bələdyyəsinin sədri Cəfərov Xətaim Cəfər oğlu 1950-ci ildə anadan olubdur. Azərbaycan İnşaat Mühəndisləri İnstitunun Mülkü Sənaye binalarını iqtisadiyyatı fakültəsini bitiribdir. Ailəlidir, 5 övladı var.**



Mən və mənim üzvülərim belə hesab edirik ki, Heydər Əliyev varlığı özünü mənəviyyat baxımından da tənzimləyir. Kəskin mənəvi iztirablarla, yüksək xoş əhvalların növbələnməsi, bununla izah olunur. Çünki Heydər Əliyev zəkasına, dünya görüşünə verilən qiymət doğma xalqının adınadır. Qəbahətlər siyahısının uzunluğu insanını hərəkət azadlığını məhdudlaşdırır, "qəbahətli" adamların sayını artırır, təmizlərin sayını azaldır, nəticə etibarı ilə eybəcərlərin dəyirmanına su tökür. Sayı barmaqla təyin edilən təmizlərin sırasında Heydər Əliyev fenomenində əqidəsi, düz vicdanı təmiz, şəxsiyyətli, ləyaqətli olanlar daha aydın seçirlər. Heydər Əliyev 1993-cü ildə dövlətimizi separatizmin quduz dişlərindən çeynənməkdən xilas etmiş siyasi xadimimizdir. Biz bələdiyyə işçiləri möhtərəm Heydər Əliyevə uzun ömür, cansağlığı arzu edirik və bizim arzumuz budur ki, erməni tapdağı altında olan 20% torpaqlarımızın geri alınsın, qaçqın və göçkünlərimiz öz el-obalarına qayıtsınlar. Prezidentimizi 15 iyun "Qurtuluş" günü və 14 iyul siyasi fəaliyyətinin 33 illiyi münasibətilə təbrik edirəm.

**Xanlar rayon Çaykənd inzibati ərazi vahidliyi üzrə icra nümayəndəsinin sədri Alıyev Məzahim Museyib oğlu 1960-cı ildə anadan olubdur. Ayləlidir. 4 övladı var Ali təhsillidir. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Aqranomiya fakultəsini bitiribdir. YAP-ın üzvüdür və ilk partiya təşkilatının sədridir.**



Bizim yeganə Prezidentimiz Heydər Əliyevdir. Qarşıdan gələn prezident seçkilərində bütün Çaykənd sakinləri Heydər Əliyevə səs verəcəkdir. Prezidentimizə həyatda uzun ömür cansağlığı, ona bütün işlərində müvəffəqiyyətlər arzu edirəm. Mən Çaykənd icra nümayəndəsi kimiarzum budur ki erməni tapdağı altında olan 20%-iz torpaqlarımız sülh yolu ilə geri alınsın qaçqın və köçkünlərimiz öz el obalarına qayıtmasınlar. Biz Çaykənd sakinləri Möhtərəm Prezidentimizin daxili və xarici siyasəti bəyənirik və onu dəstəkləməyə həmişə hazırıq.

# Heydər Əliyevin hakimiyyət zirvəsinə yüksəlməsi tarixi qanunauygunluqdur



**Əsədova Qızbəs Zülfüqar qızı 1916-cı ildə Azərbaycanın dilbər guşələrindən biri olan Laçın rayonunun Abdullar kəndində anadan olub. Əvvəlcə tibb məktəbini, 1937-ci ildə isə indiki Azərbaycan Tibb Universitetini əla qiymətlərlə bitirib. Universiteti bitirdikdən sonra Laçın rayon xəstəxanasında baş həkim işləyib. Müxtəlif yerlərdə çalışmış, indiyədək 20 orden və medallarla, 100-ə qədər fəxri fərmanlarla təltif edilib. 1982-ci ildən Yasamal rayon Müharibə və Əmək Veteranları Şurasının sədri və Əbilov Mədəniyyət Mərkəzində "İsmət" nəcib qızlar klubunun sədri, 1950-ci ildən indiyədək Yasamal rayonundakı 3 saylı şəhər poliklinikasının baş həkimidir. Eyni zamanda respublikamızın əməkdar həkimidir. YAP-ın üzvüdür.**

Əvvəlki illəri xatırlasaq , 1993-cü ildə Azərbaycan xalqı tarixində ən ağır günlərini yaşayırdı. Xalq heç bilmirdi kimin arxasınca getsin. Azərbaycan xalqı son anda seçimini düzgün etdi və xalqın böyük oğlu Heydər Əliyev şəxsiyyətini istəməsi ikinci dəfə hakimiyyətə qayıdışına səbəb oldu. Möhtərəm prezidentimiz Heydər Əliyev cənabları Bakıya gələn kimi qısa müddətdə ciddi addımlar atdı və yürütdüyü dəqiq siyasət sayəsində Azərbaycanın daxilində və xaricində bədnam əməlləri olan insanların məkrli siyasətinin üstündən xətt çəkdi. Prezidentimizin uzaqgörən siyasəti nəticəsində sürətlə aparılan islahatlar dünyanın demokratik dünyəvi dövlətinin təməli qoyulmuşdur.

Səhiyyədə də aparılan islahatlar öz bəhrəsini verməkdədir. Xalqımız öz böyük liderinin rəhbərliyi altında demokratiyaya doğru inkişaf edir. Heydər Əliyev cənablarının gördüyü işləri danışmaqnan, saymaqnan qurtarmaq olmaz. Ən başlıcası atəşkəsə nail olundu və xarici neft şirkətlərinin Azərbaycana sərmayə qoyması ən mühüm hadisədir. Mən prezidentimizi "Qurtuluş" günü və 33 illik siyasi fəaliyyəti münasibətilə təbrik edirəm. Azərbaycanda həmişə sülh və əminamanlıq, xoş firavan yaşayış olsun. Hörmətli prezidentimiz Heydər Əliyev şəxsiyyətinə isə dünyada ən böyük nemət olan cansağlığı arzu edirəm.

**Abbasov Mehrab 1935-ci ildə 1 iyulda Lerik rayonunda anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra rabitəyə sıravi mantyor kimi gəlmiş 1955-ci ildə 1 ay işləmiş, 1955-ci ildən 1957-ci ilə kimi rabitədə texnik, 1957-ci ildə Rabitə nazirinin xətti ilə Lvov politexnik institutuna qəbul olunub. 3 il orda təhsilimi işləyərək qiyabi davam etdirib. Lvovda zavodda çilingər işləyib, həm də təhsilini davam etdirib. 1994-cü il noyabr ayından Biləsuvar rayon mətbuat yayımı şöbəsinin müdiri işləyir.**



1993-cü ilin sonunda Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O vaxtdan bəri çox böyük nailiyyətlər qazanılıb. İlk növbədə atəşkəsə nail olundu və nizami ordu yarandı. Başqa sahələrdə beynəlxalq əməkdaşlıq yaradıldı. Azərbaycan Respublikasının Avropa şurasına tamhüquqlu üzv qəbul edilməsi xalqımızın hyatında böyük tarixi hadisdir və bu hadisə bilavasitə Heydər Əliyevin apardığı doğru, düzgün, daxili və xarici siyasətin nəticəsidir. Ümumiyyətlə, Heydər Əliyev kimi dahi siyasətçinin rəhbərlik etdiyi dövlət məğlub edilə bilməz.

İyun ayının 15-i bizim üçün çox gözəl bir bayramdır. Bizim kolektivimiz bu günü həmişə əmək töhfələri ilə qarşılayır. "Babadağ" qəzeti vasitəsilə kollektivimiz adından Möhtərəm Prezidentimizi "Qurtuluş" gününü təbrik edir, ona ən şərəfli və məsul işində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayırıq.



**Paşayev Allahverdi Rəsul oğlu 1956-cı ildə Şəki şəhərində anadan olub. 1977-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun sənaye və mülki-tikinti fakültəsini bitirib. Hal-hazırda Şəki şəhər Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəisi vəzifəsində işləyir. YAP-ın üzvüdür.**

Müstəqillik zirvəsinə o xalq nəsib olub ki, həmin dövrdə xalqın başında duran, ona yol göstərən şəxs öz siyasəti, ağlı və zəkası ilə digərlərindən üstün olsun. Ən başlıcası isə xalqına sədaqətli olsun. Müstəqqillik bu və ya digər obyektiv tarixi səbəb və şəraitdən asılı olaraq əldə oluna bilər. Lakin, elan olunmuş müstəqilliyi qorumaq və möhkəmləndirib, əbədiləşdirmək hər bir xalqa nəsib olmamışdır. Müstəqilliyin keşməkeşli dövrü də məhz həmin mərhələdən başlayır. İqtisadi, siyasi ərazi maraqları olan xarici ölkələr öz kəşfiyyat orqanlarını məhz bu mərhələdə hərəkətə gətirir, öz mənfur niyyətlərinə nail olmaq məqsədilə iradələri zəif olan, şəxsi marağı, ümummilli marqlardan üstün tutan, bu yolda vətəninə, xalqına xəyanət etməkdən belə çəkinməyən, ayrı-ayrı nankor qüvvələri müxtəlif şirniklən-dirmə metodları ilə ələ almaq yad mənafeyə və mövqeyə xidmət etməyə sövq edirlər. Azərbaycan xalqı da müstəqilliyə gedən yolda bu kimi maneələrdən yan keçə bilmədi. Bu maneələr daha kəskin və ciddi şəkildə özünü biruzə verdi. 1993-cü ilin iyununda artıq başlanmış vətəndaş müharibəsi, Azərbaycanın suiqəsdlər, dövlət nümayəndələrinə qarşı terror aktları, dövlət çevrilişlərinə cəhdlər və s. Azərbaycanın yaxın tarixinə qara hərflərlə həkk olunan bu acı və təəssüf doğuran dəhşətli hadisələrin qarşısını almaq, dəf etmək yenilməz cəsarət, dönməz inam, tükənməz ağıl, uzaqgörən siyasətin sahibi dahi şəxsiyyət möhtərəm Heydər Əliyevə nəsib oldu.

Azərbaycan xalqının və onun müstəqil dövlətçiliyinin keşməkeşli və təhlükəli dövrü arxada qalmışdır. Son on il ərzində ölkə daxilində düşmən qüvvələr tərəfindən təşkil olunan və biri digərinin ardınca planlı şəkildə, mütəşəkkil formada törənən, dövlət çevrilişlərinə cəhdlər, dövlət və hakimiyyət nümayəndələrinə qarşı terror aktları kimi Azərbaycan xalqının nəinki, müstəqil dövlətçiliyini, onun mövcudluğunu belə təhlükədə qoyan faciələrdən hifz etmək yolunda həyatını əsirgəməyən müdrik prezidentimiz Heydər əliyev cənabları nankor qüvvələrin qarşısından, nəinki çəkilmədi, əksinə xalqımızın, o cümlədən siyasi həyatımızda yetişməkdə olan gənc nəslin polad mənəviyyatına arxalanaraq bu qüvvələr üzərində tam qələbə çaldı.

Prezidentimizin xalqın xoşbəxtliyi naminə, inkişafı naminə gördüyü işlər saysız-hesabsızdır.

Mən də kollektivimiz adından Heydər Əliyev dühasına cansağlığı, yorulmaz fəaliyyətində uğurlar arzulayıram.

"Milli Qurtuluş" günü münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

**Mahmudov Akif Məmməd oğlu 1952-ci ildə Şəki şəhərinin Aşağı Şabalıd kəndində anadan olub. 1971-ci ildə Şəki Pedaqoji Texnikumunu, 1980-cı ildə isə Azərbaycan Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakultəsini bitirib. Uzun müddətdir ki, şəhərin qabaqcıl məktəbində doğma dilimizi və ədəbiyyatımızı tədris edir.**



Çox hörmətli, möhtərəm prezidentimiz Heydər Əlirza oğlu!

Sizi qarşıdan gələn müqəddəs doğum gününüz və ikinci dəfə hakimiyyətə gəlişinizin doqquzuncu ildönümü münasibəti ilə şəxsən öz adımdan və ailəmiz adından səmim qəlbdən təbrik edir, sizə və ailənizə uzun ömür, ən şirin nemət olan cansağlığı arzulayıram.

Möhtərəm Prezidentimiz!

Sizin yürütdüyünüz şəffaf xarici və daxili siyasətiniz sayəsində Doğma Azərbaycanımız durmadan irəliləyir, yeni-yeni zəfərlərlə uğurlu sabaha addımlayır. Bu yaxınlarda on illiyini qeyd etdiyimiz müstəqil Azərbaycan Respublikası son illər daha böyük uğurlar qazanmaqdadır.

Lakin onu da bilirik ki, bu müstəqillik bizə asan başa gəlməmişdir. Heç kimə bir sirr deyil ki, əsrlərlə süfrəmizin başında əyləşdirdiyimiz, halal çörəyimizi yedirdiyimiz mənfur qonşularımız bu gün bizimlə torpaq iddiasına girərək torpaqlarımızın 20%-dən çoxunu işğal ediblər. İnanırıq ki, sizin sülh yolu ilə torpaqlarımızın azad olunması uğrunda apardığınız siyasət öz bəhrəsini verəcək və bu gün çox da uzaqda deyil.

Biz yaxşı başa düşürük ki, başımıza gətirilən bu müsibətlərdən bizi yalnız siz, möhtərəm cənab Heydər Əliyev xilas edə bilərsiniz. Çünki milyonlarla Azərbaycan vətəndaşı sizin şəffaf siyasətinizi ürəkdən bəyənir və dəstəkləyir.

Cənab Prezident!

Siz, həm də bizlərə ümüd və inam verən İlham Əliyev kimi oğul böyütdüyünüz üçün də fəxr edə bilərsiniz. Müasir gənclərin iftixarı olan İlham Əliyev cənab Heyər Əliyevin layiqli davamçısı olacağına inam Azərbaycan xalqının daha böyük uğurlu gələcəyindən xəbər verir. Ulu Tanrı sizlərə və sayənizdə bütün Azərbaycan xalqına yar olsun!

# Heydər Əliyevin siyasi fəaliyyəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı

**Məmmədov Yusif Əhməd oğlu Azər Ələkbərov adına Respublika İncəsənət Gimnaziyasının direktoru.**



Azərbaycan respublikasının XX əsrdə ikinci dəfə qazandığı müstəqilliyindən 10 ildən artıq vaxt keçir. Əgər ilk müstəqilliyimizi Məmməd Əmin Rəsulzadənin adı ilə bağlayırıqsa, ikinci müstəqilliyimiz dünya şöhrətli siyasətçi XX və XXI əsrin fenomen şəxsiyyəti, bütün dünya dövlətlərini, özü də sivil dövlətləri Azərbaycanla hesablaşmağa vadar edən cənab Heydər Əliyevin adı ilə bağlıdır. Çünki, müstəqilliyi qorumaq onu qazanmaqdan qat-qat çətindir. Lakin Heydər Əliyev bunun öhdəsindən bacarıqla gəldi. Bu yolda çox çətinliklərlə üzləşdi, öz sağlamlığını, rahatlığını belə itirməkdən çəkinmədi. Həm daxili, həm də xarici düşmənlərin müdaxiləsi belə onun mübarizə əzmini qırmadı. Azərbaycan onun sayəsində düşdüyü iflic vəziyyətdən çıxış yolu tapdı. Ölkə daxilində artıq vətəndaş müharibəsi həddinə gətirib çıxaran qeyri-sabitliyi yatırıb, silahlı qarşıdurmanın qarşısını aldı. Azərbaycanın demək olar ki, kəsilmiş olan bütün beynəlxalq əlaqələrini bərpa etdi. Müharibə olan bir ölkəyə beynəlxalq maliyyə təşkilatlarının, xarici investorların maraq göstərməsi absurd bir gümandır. Lakin Heydər Əliyev dühasının böyüklüyü bu gümanı həqiqətə çevirdi.

15 iyun - "Qurtuluş günü" Heydər Əliyevin Azərbaycana, Bakıya gəlişi bütün dünyanın Azərbaycana istiqamətlənən hücumunun qarşısına çəkilən bir sədd oldu. Bu, Heydər Əliyev şəxsiyyətinin, Heydər Əliyev müdrikliyinin qələbəsi idi. Və əlbəttə, Azərbaycanı, xalqını sevən hər bir azərbaycanlı 10 il bundan əvvəlki Azərbaycanla bu günkü Azərbaycanı müqayisə etməlidir. Həm də ağılla, vicdanla.

Bu gün yaranmış olan qayda-qanuna, əldə etdiyi uğurlara, nail olduğu sabitliyə, müstəqilliyinin qorunub saxlanmasına görə Azərbaycan xalqı yalnız möhtərəm prezidentimiz Heydər Əliyevə borcludur.

Ona görə də mənə verilmiş fürsətdən istifadə edib "Babadağ" qəzeti vasitəsilə kollektivimiz adından Möhtərəm Prezidentimizin ad gününü - 79 illiyi, hakimiyyətə ikinci qayıdışının 9 illiyi və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə səmim qəlbdən təbrik edirəm. Həyata keçirdiyi taleyüklü məsələlərin həllində Prezidentimizə uğurlar və müvəffəqiyyətlər arzulayıram.

**Xaçmaz şəhər bələdiyyəsinin sədri Vahid Məmmədov**



Bələdiyyələr idarə etmə orqanı kimi qısa müddət ərzində rayonda böyük xidmətləri olub. Bələdiyyə yarandığı gündən rayonda qocalara, kimsəsiz uşaqlara və qaçqın soydaşlarımıza yardımlar göstərilib. Son illərdə respublikamızda yeni qurum kimi fəaliyyət göstərən bələdiyyələrin yaradılması hörmətli prezidentimizin gərgin əməyinin nəticəsidir. Möhtərəm prezidentimizin Heydər Əliyev cənablarının hakimiyyətə 2-ci dəfə gəlişi Azərbaycanı Sivil dövlətlər sırasında görməkdən xəbər verirdi. Bunun geniş təzahürüdür ki, dövlətimiz qısa müddətdə inkişaf etməyə başladı. Biz inanırıq ki, müdrik siyasətçi, möhtərəm prezidentimiz Heydər Əliyev cənabları yaxın günlərdə Qarabağ məsələsini həll edəcək, qaçqın və köçgünlərimiz öz dədə-baba torpaqlarına qayıdacaq. Mən də sonda "Milli Qurtuluş" günü münasibətilə xalqımızı və başda cənab prezident Heydər Əliyev olmaqla təbrik edirəm və prezidentimizə uzun ömür, cansağlığı arzu edirəm.

**Əhmədov Zakir 1949-cu il mayın 26-da Lənkəran şəhərində anadan olmuşdu. Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna qəbul olunmuş, 1971-ci ildə bitirmiş və həmin ildən də Lənkəran şəhərində Su Tikinti Trestində 1995-ci ilədək müdir işləmişdir. 1995-ci ildən İcra Hakimiyyətində Sənaye Nəqliyyatının rabitə şöbəsində şöbə müdiri, 1998-ci ildən, indiyədək İcra başçısının müavini, 2001-ci ilin noyabr ayından Lənkəran şəhər YAP təşkilatının sədridir. Ailəlidir.**



1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi onun müdrikliyi və uzaqgörənliyi, Müstəqil Azərbaycanın demokratik, iqtisadi cəhətdən güclü dövlətə çevrilməsinə şərait yaratdı. Müdrik siyasəti və təcrübəli dövlətçilik bacarığı ilə cənab Heydər Əliyev uğurlu neft strategiyasını həyata keçirərək, dövlətin bütün vacib atributlarını qurdu. Atəşkəs şəraitində nizami ordu quraraq dövlətin müdafiəsini gücləndirdi. Demokratik Parlament seçkiləri keçirərək, Müstəqil azərbaycanın ilk milli Konstitusiyasını qəbul edərək Azərbaycanın zəngin sərvətlərini xalqın istifadəsinə yönəldə bilmişdir. Fərəhli haldır ki, xalqın uzun illər ülvi arzusu artıq reallaşır. Heydər Əliyev işığı dünyanı bürüyür. Azərbaycan xalqı doğrudan da xoşbəxtdir ki, beləbir əzəmətli prezidenti var. "Milli Qurtuluş" günü prezidentimizin hakimiyyətə yenidən qayıdışı ilə bağlıdır. İndi xalqımız bu günü bayram edir. Mən prezidentimizə apardığı mübarizədə yeni-yeni qələbələr arzu edirəm.

**Qasımzadə Seymur Allahyar oğlu 1962-ci ildə Şəki şəhərində anadan olub. 1984-cü ildə ADU-nun "tətbiqi-riyaziyyat" fakültəsini bitirib. 1991-92-ci illər ərzində Şəki şəhərində informatika fənni üzrə dərs deyib. Hal-hazırda Şəki seismoloji rəsədxanada mühəndis vəzifəsində işləyir.**



Əvəzsiz lider Heydər Əliyevin Azərbaycan xalqının taleyində rolu müstəsna dərəcədə böyükdür, əvəzedilməzdir, danılmazdır. Möhtərəm Prezidentimiz Heydər Əliyev Azərbaycanı fəlakətlərdən, etnik parçalanmadan xilas etmiş böyük şəxsiyyət, xalqımızın xilaskarı, müstəqilliyimizin qarantıdır. Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi nadir tarixi şəxsiyyət, əzəmətli dövlət başçısıdır.

Görkəmli dövlət başçısı və siyasi xadim olan möhtərəm prezidentimiz Heydər Əliyev cənabları tərəfindən möhkəm təməli qoyulan doğma Azərbaycanımız öz müstəqilliyinin dönməzliyini, əbədiliyini, sarsılmazlığını təmin edərək, uğrla öz işıqlı gələcəyinə doğru irəliləyir. Bu yolda möhtərəm prezidentimizə uğurlar diləyirəm.

15 iyun "Milli Qurtuluş" günüdür. Xalqımızı bu əlamətdar gün münasibətilə təbrik edirəm.

**Xanlar rayon Meşə Mühafizəsi və Bərpası müəssisəsinin direktoru Allahverdiyev Şahin ümid oğlu. 1961-ciildə Laçın rayonunda anadan olubdur. Novoçerkask Melirorasiya Mühəndisləri İnstitutunun Meşə Təsərrüfatı Mühəndisi fakültəsini bitiribdir. Ailəlidir iki övladı var.**



Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, həm də bütün türk dünyasının fəxr edə biləcəyji siyasətçidir. O xalqımızın nicat yolu və gələcək xoşbəxtliyinin qarantıdır. Möhtərəm prezidentimizin ikinci dəfə siyasi hakimiyyətə qayıtması xalqımızın böük sevincinə səbəb oldu. Vətəndaş müharibəsinin qarşısı alındı. Ölkədə siyasi sabitlik, orduda nizam intizam yaradıldı. Bir sözlə Tanrı Heydər Əliyevi xalqımıza xilaskar kimi xəlq edib. Möhtərəm prezidentimiz yenidən hakimiyyətə qayıtdığı gün, Azərbaycan adlı bir dövlətin yeni tarixinin ilk canlı səhifəsi, yazısıdır. Və mənə elə gəlir ki, bu günü nəinki xalqımız, bütün türk dünyası bayram etməlidir. İnanıram ki, bundan sonra Türk dünyasında Heydər Əliyev kimi siyasətçi yetişməmişdir. O, fenomenal yaddaşa geniş dünya görüşünə malik bir liderdir. Bizlər üçün sevindirici, fəxr edici haldır ki, dünya diplomatları onda olan enerjiyə, biliyə natiqliki məharətinə həsəd aparırlar. Prezidentimizin siyasi fəaliyyətinin 33 ilinin tamam olması və hakimiyyətə yenidən qayıdışının 9 illiyi münasibətilə təbrik edirəm. .

**Şəmkir rayon 23 saylı Yol İstismar İdarəsinin rəisi Həsənov Məzahir Məsim oğlu 1956-cı ildə anadan olub. Azərbaycan İnşaat Mühşndisləri İnistitutunun inşaatçı fakultəsini bitiribdir. Ailəlidir, 2 övladı var. YAP -ın üzvüdür.**



Müstəqilliyimizin əbədi və daimidir. Çünki, bu müqəddəs yolumuz Qurtuluş günü kimi şərəfli bir gündən başlayır. Artıq tarixin zillətli günləri geridə qalmış, unudulmamış, əksinə, yolddaşlarda yazılmışdır. Bu gün yaddaşımız müstəqil Azərbaycan dövləti özünün gələcəyə doğru inkişaf estafetini götürmüş, sabaha inamla baxır. Möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının səyi və istedadı sayəsində dövlətimizin qüdrəti daha da artmış, dünya dövlətləri tərəfindən nifuzlu bir dövlət kimi qəbul olunmaqdadır. Biz Şəmkirlilər xalqımıza Heydər Əliyev ətrafında sıx birləşməyi və uğurlu gələcəyə inamla addımlamağı arzu edirəm.

# Müstəqil Azərbaycanın böyük gələcəyi var

**Yardımlı rayon İH-nın Aqrar məsələlər üzrə müavini Süleymanov Siyasət Süleyman oğlu. 1956-cı il 20 oktyabr Yardımlı rayonunun Telavar kəndində anadan olub. 1981-ci ildə Gəncə Kənd Təsərrüfatı İnstitutuna qəbul olunub. İlk əmək fəaliyyətinə Rusiyada başlayıb. Sonra Azərbaycana gəlib, müxtəlif yerlərdə çalışıb. 1999-cu ildən icra başçısının aqrar məsələlər üzrə müavinidir.**



Azərbaycan müstəqillik qazandıqdan sonra bir çox maneələrlə qarşılaşdı. Möhtərəm Prezidentimiz xalqın böyük oğlu Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi xalqda inam, qürur və gələcəyə nikbin baxmasına inam yaratdı. Hər sahədə olduğu kimi aparılan aqrar islahatlarda özünü doğrultmaqdadır. Bu da Heydər Əliyevin gərgin əməyinin bir nəticəsidir. Prezidentimizin hakimiyyətə qayıdışı Azərbaycanın beynəlxalq təşkilatlar tərəfindən nüfuzla qarşılanmasına gətirib çıxardı. 1993-cü ilin iyun ayında Bakıya gəlişi, yaranmış çətin vəziyyətin yaxşılığa doğru inkişaf etməsindən xəbər verirdi. Məhz onun ağıllı, müdrik siysəti nəticəsində Azərbaycanda gedən hərc-mərcliyə, son qoyuldu.

"Qurtuluş" günü Prezidentimiz Heydər Əliyevin qayıdışı ilə bağlıdır. Bu bayram münasibətilə xalqımıza xoşbəxtlik arzu edirəm. Hörmətli Prezidentimizə cansağlığı və möhkəm iradə arzu edirəm.



**Gəncə şəhər musiqi texnikumunun müdiri Mirzəyev Vahid Abuzər oğlu 1932-ci ildə anadan olubdur. Azərbaycan Dövlət Konservatoriyasının nəfəsli alətlər fakültəsini bitiribdir. Ailəlidir. 3 övlad atası, 7 nəvə babasıdır. YAP-ın üzvüdür.**



Hamımıza aydındır ki, hakimiyyətə yenidən qayıdışından sonra Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü, uğurlu daxili və xarici siyasətin nəticəsində Azərbaycan müstəqil ölkə kimi demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə yedərək, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə dağıdılmış iqtisadiyyatın dirçəldilməsinə, beynəlxalq aləmdə tanınmasına nail oldu. Böhtan və iftiralardan, yalanlardan, öz çirkin əməllərindən bezməyən radikal müxalifət unudur ki, xalq özü seçdiyi prezidentə ürəkdən inanır və ətrafında sıx birləşərək onu dəstəkləyir. İnanıram ki, nə vaxtsa müxalifət də, dünya siyasətçiləri də cənab Heydər Əliyev fenomeninin öz dövrü üçün nə qədər dəyərli olduğunu dərk edəcəklər.

Düşmən üzərində çalınacaq qələbə uzaqda deyil. İnanırıq ki, hakimiyyətə qayıdışı ilə xalqın iqtisadi, siyasi, mədəni, mənəvi həyatında inkişafa, tərəqqiyə doğru dönüş yaratmış Heydər Əliyev Cənabları bu məqsədlə də xalqın mənafeyinə, istəyinə uyğun nəticə əldə edə biləcək.

Biz də kolektivimiz adından möhtərəm Prezidentimizə "Qurtuluş" günü və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə təbrik edir, uzun ömür, cansağlığı arzulayırıq.

**Xanlar rayon 21 saylı Yol İstismar İdarəsinin rəisi Dilənov Dilqəm Məhər oğlu 1950-ci ildə Göyçə mahalında anadan olubdur. 1988-ci ildə Göyçə mahalından qaçqın düşmüşdür. Azərbaycan Pedaqoji İnistitutunu bitirib. Ailəlidir. 4 övlad atasıdır.YAP-ın üzvüdür.**



İndi Azərbaycan ən çətin və mə'suliyyətli bir dövrünü yaşayır. Təbii ki, söhbət son aylar dünya ictimaiyyətinin müzakirə obyektinə çevrilmiş Dağlıq Qarabağ problemindən gedir. Hazırda respublikamız böyük dövlətlərin, tanınmış siyasətçilərin diqqət mərkəzindədir. Və bu diqqət möhtərəm prezidentimiz Heydər Əliyevin apardığı siyasətin, gərgin əməyinin nəticəsidir. İnanırıq ki, müdrik rəhbərimiz Qarabağ münaqişəsini sülh yolu ilə həll edə biləcək. Qaçqın və köçkünlərimiz öz el-obalarına qayıdacaqlar. Çünki onun ağlı, təcrübəsi buna imkan verir. İqtisadiyyatımızda dirçəlişimizin hiss olunması, Azərbaycanın dünyada böyük neft ölkəsi kimi tanınması, xarici iş adamlarının neftə olan marağı xalqımızın xoşbəxt gələcəyindən xəbər verir. Bütün bunlara görə möhtərəm prezidentimizə minnətdar olmalıyıq. Tanrı onu bizə xilaskar simasında göndərib. Allah özü onu qorusun.

**Cəlilabad rayonun Günəşli kənd bələdiyyəsinin sədri Abdullayev Əvəz Məmmədsaleh oğlu.**



1943-cü ildə Cəlilabad rayonunun Günəşli kəndində anadan olub. 1961-ci ildə Lənkəran Pedoqoji Texnikumunu, 1968-ci ildə N.Tusi adına Pedoqoji İnstitutunu bitirib. 1986-cı ildə qabaqcıl maarifçi xadim, 1988-ci ildə isə metodik müəllim adına layiq görülüb.

Qeyd edim ki, Azərbaycanda bələdiyyə orqanı Heydər Əliyevin adı ilə bağlıdır. Bizlər onun təşəbbüsü ilə yaranan diqqəti ilə inkişaf edən bir qrupun üzvləriyik. Möhtərəm prezidentimizin yeritdiyi istər daxili, istər xarici siyasətinin müsbət nəticəsidir ki, Müstəqil Azərbaycan dövləti günü-gündən çiçəklənir, inkişaf edir. Cənab prezidentimizin layiqli davamçısı, Heydər Əliyev ocağının yetirməsi İlham Əliyevin də Azərbaycanın ictimai-siyasi həyatındakı fəaliyyəti göz qabağındadır. Hörmətli prezidentimizn hakimiyyətə qayıdışı xalq tərəfindən yaxşı qarşılandı. İndi hamı həmin günü bayram edir. Mən də xalqımızı və ümumdünya Azərbaycanlılarını bu "Qurtuluş" bayramı münasibətilə təbrikedirəm. Hörmətli prezidentimiz Heydər Əliyev cənablarına gələcək işlərində böyük nailiyyətlər arzu edirəm.

**Xanlar rayonu Topalhəsənli bələdiyyəsinin sədri Abbasov Xudayət Nəriman oğlu 1958-ci ildə anadan olub. Ailəlidir, 3 övladı var. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının Zoomühəndislik fakültəsini bitiribdir. YAP-ın üzvüdür.**



Mənim Heydər Əliyev haqqında deyiləsi sözlərim çoxdur. Onun haqqında saatlarla danışmaq olar, çünki, Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı xidmətləri çox böyükdür. Onu unutmaq, danmaq ən azı vicdansızlıqdır, düşmənin dəyirmanına su tökməkdir. Azərbaycan xalqının əksəriyyətinin ona böyük məhəbbəti var. Xalqımız onu sevir və sevəcək. Yəqin ki, dar çərçivədə düşünən bədxahlar bir müddətdən sonra başa düşəcəklər ki, onlar səhv ediblər. Ancaq inanın, bir vaxt gələcək, onlar başa düşəcəklər ki, H.əliyevə qarşı haqsızlıq ediblər. Onlar mütləq bunu dərk edəcəklər. Əlbəttə, onlar səhv etdiklərini etiraf edəcəklər və H.əliyev də onları bağışlayacaq. Çünki, onun ürəyi çox böyükdür. Dahi bir insanın ürəyi necə ola bilər ki? Ona görə mən xalqımızın rifahı, Azərbaycanımızın çiçəklənməsi naminə möhtərəm prezidentimizin 79 illik yubileyini, siyasi fəaliyyətinin 33 illiyi və hakimiyyətə qayıdışının 9 illiyini təbrik edirik. Ona uzun ömür, can sağlığı arzulayırıq. Biz inanırıq ki, möhtərəm prezidentimiz torpaqlarımızı sülh yolu ilə geri qaytaracaqdır.Bu mənim və xalqımızın arzusudur.

# Heydər Əliyev zəkası, düşüncəsi, siyasəti Azərbaycan xalqı üçün məktəb proqramıdır

AYGÜN RAFİQ QIZI ŞİRİNOVA
AĞCƏBƏDİ RAYON PEDAQOJİ TEXNİKUMUNUN DİREKTORU



**Azərbaycan Respublikasının prezidenti Zati-aliləri cənab Heydər Əliyev!**

Azərbaycanda elmin və təhsilin inkişafı, yeni-yeni ali məktəblərin yaradılması Sizin uzaqgörən siyasətinizlə bağlıdır.

Azərbaycan öz ali təhsil məktəbləri ilə dünyada məşhurdur. Qonşu dövlətlərdən gələn tələbələr müxtəlif ali məktəblərimizdə təhsil alırlar.

Yeni özəl məktəblərin yaranması və təhsil proqramının genişlənməsi, təhsildə rəqabət bütövlükdə Sizin siyasətinizlə bağlıdır. İndi Azərbaycanda olan təhsil demək olar ki, xarici ölkələrin təhsil sistemiylə muqayisədə təqdirə layiqdir. Azərbaycan elmi dövlətimizə çoxlu ziyalı və alim yetişdirmişdir. Elə alimlərimiz var ki, onların səsi xarici ölkələrdən gəlir. Tələbələrimizin xarici ölkələrdə oxumaları dövlətimizin şərəfidir. Bütün bunlar məhz Sizin adınızla bağlıdır.

Xalqımızın əsrlərdən bəri öz tarixi nailiyyətləri, böyük şəxsiyyətləri ilə fəxr etdiyi kimi bu gün də Sizin gərgin əməyiniz nəticəsində əldə edilmiş nailiyyətlərlə qürur hissi duyur, görkəmli siyasi xadim, xalqımızın təkrarsız lideri Heydər Əliyevlə fəxr edirik. Əminik ki, Sizin rəhbərliyinizlə ölkəmiz bundan sonra da çiçəklənəcək və inkişaf edəcək, dövlətimizin ərazi bütövlüyü bərpa olunacaq və xalqımız xoşbəxt gələcəyə qovuşacaqdır.

Hörmətli prezidentimiz!

Mən, Azərbaycandakı çoxminli müəllim və şakirdlər adından və şəxsən öz adımdan Sizə, xalqımızın xilasına yetişərək, Azərbaycanı Azərbaycan üçün qoruyaraq "Qurtuluş günü"nü tariximizə qızıl hərflərlə yazmağınız münasibətilə səmimi və dərin təşəkkürümü bildirirəm. Sizə uzun ömür, cansağlığı, dövlətimizə əminamanlıq və tərəqqi arzulayıram.



ŞAHLAR HÜMBƏT OĞLU ƏYYUBOV
BƏRDƏ RAYON KƏND TƏSƏRRÜFATI TEXNİKUMUNUN DİREKTORU

Ulularımız gözəl deyiblər: "Adam var ev üçün, adam var el üçün doğulur". İndiki zamanda bunu başqa çür də ifadə etmək olar; "Adam var evi üçün, adam da var eli üçün yaşayır". Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev kimi. Bu şəxsin həyatı xalqına misilsiz xidmətin, elinə-obasına həddsiz məftunluğun bariz nümunəsidir. Son otuz ildə Heydər Əlirza oğlunun Azərbaycan üçün gördüyü əzəmətli işlər haqqında cild-cild kitablar yazılsa, epopeyalar yaransa belə onların bütünlüklə əks olunması mümkünsüz işdir.

Heydər Əliyev heç bir çərçivəyə sığmayan, öz xalqının, Vətəninin xoşbəxtliyi və azadlığı uğrunda canından belə keçməyə hazır olan fədakar insandır. Belə şəxsiyyətləri tarix nadir hallarda yetişdirir və onların qədrini bilmək, zəngin həyat təcrübəsindən mütəmadi bəhrələnmək, bu məktəbin dərslərini yaxşı mənimsəmək və adamlarla işlərkən istifadə etmək bizlərə hörmət və şöhrət gətirdi.

Təkcə Azərbaycan və postsovet məkanında deyil, həm də beynəlxalq aləmdə sayılıb-seçilən, ən görkəmli dövlət başçıları arasında öz çəkisi, sambalı olan Heydər Əliyevin əzəməti nədədir? Bu sual məni həmişə düşündürüb. Həmişə də cavab birmənalı olub: sadəliyində, fenomenal yaddaşında, hər kəsi öz dili ilə dindirə bilməsində, son dərəcə yüksək natiqlik məharətində, sözlərinin səmimiyyəti və cazibəsilə müsahiblərini özünə cəlb etməsində... Təkcə bunlardımı? Yox, sadaladıqlarım onun insani keyfiyyətləridir. Heydər Əliyev güclü siyasətçidir, mahir diplomatdır. Müdrik sərkərdədir. Əgər müstəqillik qazandığımız qısa dövrün son 7 ilinə nəzər salsaq dövlətçiliyin qurulması, sabitliyin təmin edilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması, super dövlətlər qarşısında Azərbaycanın mənafeyinin qətiyyətlə qorunması, iqtisadiyyatımızın inkişafı ilə bağlı nəhəng quruculuq planlarının həyata keçirilməsi möhtərəm prezidentimizin fəaliyyət dairəsinin nə qədər geniş olmasının şahidi olarıq. İnana bilmirsən ki, bu qədər işi çox qısa zaman kəsiyində bir adam görüb. Bu ancaq Heydər Əliyev kimi fövqəlbəşər şəxsə nəsib olar ki, onun məktəbində tərbiyə alıb mətinləşmiş kadrların qüvvəsi ilə həyata keçirilə bilər.

Bu gün Vətənimizin siyasi, ictimai və iqtisadi həyatında Heydər Əliyevin həyat təcrübəsi, onun yaratmış olduğu idarəetmə məktəbinin bəhrələri daha aydın görünür. Sirr deyil ki, dünyanın inkişaf etmiş ölkələrindən Azərbaycana gələn böyük siyasətçilər, dövlət idarəetmə orqanlarında çalışan tanınmış xadimlər, Hətta neft maqnatları belə nə isə öyrənmək üçün Heydər Əliyevlə görüşmək, onun məktəbinin bəhrəsindən yararlanmaq istəyirlər. Uzağa niyə gedək? Əhalisinin sayına, ərazisinin böyüklüyünə, elmi-iqtisadi potensialına görə Azərbaycandan qat-qat üstün olan Ukraynanın paytaxtı Kiyevdə Heydər Əliyev adına Sosial Elmlər İnstitutunun açılışının səbəb və mənasını hamımız dərindən dərk edirikmi?

Bu bir daha Heydər Əliyev məktəbinin gücünü göstərir. Bax, bütün bunlara görə geçikmədən Heydər Əliyevin idarəçilik, dövlətçilik təcrübəsini əks etmək üçün onu gənclərə öyrətmək lazımdır. Və nə yaxşı ki, son üç-dörd ildə bu sahədə faydalı işlər görülür.

Heydər Əliyev irsini öyrənmək təkcə siyasəti, iqtisadi idarəetməni, təsərrüfat quruculuğunu, bədii gerçəkliyi, ədəbi yaradıcılığı mənimsəmək yox, həm də onun yaşadığı bütün dövrlərdə Azərbaycanın, onun tarixinin öyrənilməsi deməkdir.

ƏHMƏD RAMAZANOV
BAKI MƏDƏNİ-MAARİF TEXNİKUMUNUN SABİRABAD RAYON ŞÖBƏSİNİN MÜDİRİ



Azərbaycan dövlətinin müstəqilliyinin qorunub saxlanılması və dünya dövlətlərinə tanıdılması məhz möhtərəm prezidentimiz Heydər Əliyev diplomatiyasının nəticəsidir.

möhtərəm prezidentimiz Heydər Əliyevin təhsilə yüksək səviyyədə maraq göstərməsi və diqqət yetirməsi biz təhsil işçilərini və bütün ziyalıları sevindirir, işimizdə ruh yüksəkliyi yaradır.

Təhsil sahəsində möhtərəm prezidentimiz cənab Heydər Əliyevin 15 iyun 1999-ci ildə təhsil islahatlarına dair fərmanı təhsilin inkişafında böyük irəliləyişə səbəb oldu. Və biz də çalışırıq ki, fərmanda qarşımıza qoyulan vəzifələri layiqincə yerinə yetirək.

Möhtərəm prezidentimiz cənab Heydər Əliyevin təhsil sahəsində ikinci uğurlu addımı dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi sahəsində verdiyi fərmandır. Bu bizim dilimizə dövlət başçısı tərəfindən verilən ən layiqli qiymət və hörmətdir.

Azərbaycan xalqını uzun müddət düşündürən və narahat edən mənəvi dəyərimiz və milli mentalitetimiz haqqında cənab prezidentimizin verdiyi bəyannamədir. Bu bəyannamə Azərbaycan ziyalılarının və zəhmətkeş xalqın ürəyincə oldu. Biz bu bəyannaməni qürurla müdafiə etdik.

Təhsil sahəsində atılan bu uğurlu addımlar təhsildə çox böyük dəyişikliklərə və inkişafa səbəb oldu. Doğrudan da hər bir xalq ən birinci təhsil sahəsində böyük nailiyyət qazanmalıdır. Çünki, güclü kadrları olan dövlət parlaq ulduz kimi əbədi olaraq yanacaq.

Müharibə birinci növbədə xalqın mədəniyyətinə, təhsilinə zərbə vurur. Ancaq cənab prezidentimizin sülh sevər siyasəti və siyasət arenasında atdığı uğurlu addımlar sayəsində bizə bunlar yad oldu. Biz inanırıq ki, möhtərəm prezidentimiz, dünya şöhrətli siyasətçi, fenomen bir şəxsiyyət olan cənab Heydər Əliyev necə ki, bütün problemləri mərhələ-mərhələ aradan qaldırır və Azərbaycanı Azərbaycana qaytarıb, müstəqillik adını şərəflə qoruyub dünya dövlətləri arasında nüfuz qazandırıb, eləcə də Qarabağ problemini sülh yolu ilə aradan qaldıracaq. Qaçqın soydaşlarımız öz torpaqlarına qayıdacaq. Biz hamımız inanırıq ki, həmin işlər yaxınlarda həyata keçiriləcək və bütün dünya Heydər Əliyev şəxsiyyətinin hansı bacarığa malik olduğunu açıq-aydın biləcək. Mən Bakı mədəni-maarif texnikumunun Sabirabad rayon şöbəsinin müdiri kimi bütün kollektivimiz və Sabirabad rayon ziyalıları adından Heydər Əliyevi və Azərbaycan xalqını "Qurtuluş günü"münasibətilə təbrik edirəm və bu yolda mətinlik diləyirəm.

FƏRMANOV AYƏDDİN AYDIN OĞLU
"ARAZ-ŞÖHRƏT" ŞİRKƏTİNİN SƏDRİ

## Xoşbəxt xalq o xalqdır ki, onun prezidenti müharibə olmadan xalqının gələcək həyatını düzkün istiqamətləndirməyə nail olsun



Möhtərəm prezidentimiz cənab Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin möhkəm bünövrəsini qurmuş dahi şəxsiyyətdir. Dövlətçiliyimizi parlaq gələcəyimizə uyğun quran böyük zəka sahibi, ömrünün qalan hissəsini də xalqına həsr edən, dünya siyasətçiləri arasında yüksək səviyyədə qəbul edilən cənab prezidentimiz gecəgündüz yorulmaq bilmədən xalqımız, Azərbaycanımız üçün bütün imkanlarından istifadə edir. Azərbaycan xalqı bunu bilir. Bilir ki, bizim xalq üçün canını əsirgəməyən, xalqının xoşbəxt gələcəyi naminə bütün inkişaf etmiş dövlətlərin diqqətini Azərbaycana yönəltməsi üçün varlığı ilə çalışan rəhbəri və xalqını sevən prezidenti var.

Xoşbəxt xalq o xalqdır ki, prezidenti öz fəaliyyəti ilə, siyasəti ilə, bütün varlığı ilə çalışıb heç bir münaqişə, müharibə olmadan xalqının gələcək həyatını düzkün istiqamətləndirməyə nail olsun. Tarix belə müdrikləri, dahiləri, fenomen şəxsiyyətləri, analoqu olmayan böyük zəka sahiblərini tək-tək yetişdirir.

Doğrudan da Heydər Əliyev zəkası, düşüncəsi, siyasəti Azərbaycan xalqı üçün məktəb proqramıdır. Bu bir həqiqətdir, reallıqdır.

Möhtərəm prezidentimiz Heydər Əliyevin fərmanı ilə çox ədalətli, savadlı, layiqli kadrlardan ibarət iqtisadiyyat sistemi formalaşıb və onların hamısı bu sahədə vicdanla faaliyyət göstərir. Qarşısına qoyulmuş vəzifəni layiqincə yerinə yetirir. Kollektivimiz adından möhtərəm prezidentimiz cənab Heydər Əliyevi və Azərbaycan xalqını "Milli qurtuluş günü" münasibəti ilə təbrik edirəm. Tanrı Heydər Əliyevi Azərbaycan xalqının üstündən əskik etməsin.

# Möhtərəm prezidentimizin bütün türkdilli xalqlar içərisində birinci şəxs kimi qiymətləndirilməsi başımızın ucalığıdır



**Yengibar Məmmədov 1948-ci ildə anadan olub 1989-cu ildə Daşkənd Xalq Təsərrüfatı İnstitutunu bitirib Roza çörək zavodunun müdiri vəzifəsində işləyir. YAP-ın üzvüdür.**

Bütün varlığı ilə xalqa bağlı olan Heydər Əlirza oğlu Əliyev Azərbaycana rəhbərlik etdiyi 30 ildən çox müddətdə gücünü, qüvvətini dövlətçiliyimizin möhkəmlənməsinə, demokratiyanın inkişafına Azərbaycanın hüquqlarının qorunmasına həsr etmişdir.

Möhtərəm prezidentimizin bütün türkdilli xalqlar, dövlətlər, içərisində birinci şəxs kimi qiymətləndirilməsi başımızın ucalığıdır. Bütün MDB dövlətlərinin vətəndaşları arzulayır ki, onlara da belə müdrik siyasətçi rəhbərlik edəydi. Təbii ki, bizim də xalqımız daim Heydər Əliyevin rəhbərliyini arzu edib və 1993-cü ildə bu arzunuzu ifadə edərək, dahi siyasətçinin hakimiyyətə dəvət etdi. İndi Azərbaycanın Qarabağ problemindən başqa ikinci böyük problemi yoxdur. Ölkəmiz nə qədər inkişaf etsə də, xalqımız nə qədər firavan yaşasa, necə deyərlər, yaddan çıxmaz Qarabağ.

Qarabağ məsələsinin həlli prezidentimizin də ən ümdə vəzifəsidir. O özü nitqində belə bildirmişdi: Mənim arzum budur ki, torpaqlarımızı azad edim. Mən isə demək istədim ki, hörmətli prezident, siz o torpaqları azad edəcək, xalqımızın qələbə bayramında iştirak edəcək və bütün azad, sülh şəraitində olan Azərbaycan da bu yolda sizə cansağlığı uğurlar arzu edirik və mən də "Qurtuluş" günü və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə xalqımızı və hörmətli prezidentimiz Heydər Əliyevi təbrik edirəm.

## HEYDƏR BABAYA

Bu yeni il, bizə düşərli oldu
Xoş müjdə yayıldı, elə obaya
Dahilər, fikrinə nöqtə qoyuldu.
Dühalıq qoyuldu Heydər babaya.

Dünya miqyasında, bir şimşək çaxdı.
Bu şimşək göydən yox, torpaqdan qalxdı.
"İlin adamısan" bu məğrur sözə,
Bütün türk dünyası ayağa qalxdı.

Sevindi ziyalı, sevindi fəhlə,
Dünya bu ünvanı gəzdi, aradı.
Gündoğandan, günbatana hamısı,
Bildilər ki, bu söz Azərbaycandı.

Namərd qonşuların dili tutldu.
Haçansa, özlərin bir az dandılar.
"Bu ilin adamı" adlanan sözə
Kökdən alışdılar, qəlbən yandılar.

Xeyir-dua verdi istəyən dostlar
Heydər baba, Allah sənə yar olsun
Dünyaya tanıtdın sən bu torpağı
Dedin Azərbaycan bəxtiyar olsun!

**Heyvagül XƏLİLOVA**

**Şəmkir rayon Dəllər Çırdaxan Bələdiyyəsinin sədri Hüseynov Xəqani Məhəmməd oğlu 1954-cü ildə anadan olub. Azərbaycan Dövlət Universitetini bitirib. İxtisasca iqtisadçıdır. Ailəlidir, 2 övladı var. YAP-ın üzvüdür.**



Ölkəmizdə baş verən hadisələr son zamanlar dünya üçün anoloqu olmayan tarixin bəhrəsidir. Bunu bizlərə bəxş edən fədakar insan Azərbaycanın, son zamanlar öz dəsti xətti, siyasi uzaqgörənliyi ilə xalqımızın yaddaşında xüsusi yer tutmuş Heydər Əliyev cənabları idi.

Azərbaycan xalqının öz rəhbəri barədə təsəvvürləri, millətimizin fantaziyasından deyil, məhz Heydər Əliyevin gərgin və effektli zəhmətinin reallığından doğur. Çünki, ateşkəsi əldə etməyimiz cəmiyyətimizin həyatını iflic vəziyyətə salmış problemlərin aradan qaldırılması üçün xeyli imkanlar qazanmağımız deməkdir.

Azərbaycan dövlətçiliyini, onun ərazi bütövlüyünü, müstəqilliyini müdafiə etməklə yanaşı, xalqımızın xilas yolunu yalnız Tanrının köməyi, Heydər Əliyevin əli ilə həyata keçirmək bizə nəsib oldu. 15 iyun "Qurtuluş" günü münasibətilə xalqımızı təbrik edirəm.



**Sabirabad rayon Dövlət Yol Polis bölməsinin inzibati təcrübə inspektoru, polis kapitanı Əkbərov Əziz.**

Bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmlənir, onun iqtisadi qüdrəti, siyasi nüfuzu artır. Artıq Azərbaycan dünya arenasında özünəməxsus yer tutur. Heydər Əliyev dühası Azərbaycanı dünyaya tanıtdı. Dünyanın aparıcı dövlətləri Azərbaycan adlı bir məmləkətin varlığını etiraf etdilər. Ümumiyyətlə, XX əsrin son onilliyində Azərbaycan dövlətçiliyi Heydər Əliyevin adı ilə bağlıdır. Bir neçə il istisna olmaqla, 33 ildir ki, bu müddət ərzində dövlətə rəhbərlik etmək heç də asan deyil və möhkəm iradə, güclü siyasi, mənəvi, hətta fiziki keyfiyyətlər tələb edir. Məhz bu dövrdə demokratik dövlət quruluşunun əsas prioritetlərindən birini təşkil edən insan hüquq və azadlıqlarının təmin olunması Azərbaycanda vahid dövlət proqramı əsasında həyata keçirilməsində başladı. Möhtərəm prezidentimizin hakimiyyətə ikinci dəfə qayıdışı gününü xalqımız bayram edir. Mən də bu "Qurtuluş" günü və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə xalqımızı səmimi qəlbdən təbrik edirəm, prezidentimiz Heydər Əliyev cənablarına uzun ömür, möhkəm iradə arzu edirəm.

**İbadov Yaşar 1966cı il aprelin 18-də Hacıqabulda anadan olmuşdu. 1986-cı ildə Maşınqayırma Texnikumuna qəbul olunub, 1989-cu ildə bitirmişdir. 1989-cu ildə Hacıqabulda Qaz idarəsində fəhlə işləyib, 1990-cı ildən 1996-cı ilədək XIIə firmasında rəhbər işləyib. 1996-cı ildən indiyədək Əlibayramlı şəhərində "Koka-kola" firmasının rəhbəri işləyir.**



Hörmətli prezidentimiz hakimiyyətə 2-ci dəfə qayıdışı xalqın ürəyindən gələn hisslər idi. Azərbaycan o vaxt yəni 1993-cü ilin əvəllərində ən ağır və faciəli günlərini yaşayırdı. Həm torpaqlarımız günü-gündən işğal olurdu, həm də daxildə gedən çəkişmələr hakimiyyət davası dövlətimizi fəlakətə sürükləyirdi. Möhtərəm prezidentimiz 1993-cü ilin iyun ayının 15-i Bakıya gəlmiş, hakimiyyət davası edən separatçıların məkrli siyasətinin üstündən xətt çəkdi. Xalqın böyük oğlu Heydər Əliyevin uzaqgörən müdrik siyasəti Azərbaycanda qısa müddətdə sabitlik yaratmasına imkan verdi. İndi də iyunun 15-i xalqımızın "Milli Qurtuluş" günü kimi qeyd olunur. Bu bayram günü münasibətilə xalqımıza həmişə sülh və əminamanlıq, Prezidentimiz Heydər Əliyev cənablarına isə uğurlu və məsul işlərində böyük nailiyyətlər arzu edirəm.

**Kərimov Vaqif 1943-cü ildə Kəlbəcər rayonunda anadan olub. Azərbaycan Dövlət Tibb İnstitututnun "müalicə-profilaktika" fakultəsini bitirib, Kəlbəcər rayon mərkəzi xəstəxanasının baş həkimidir. YAP-ın üzvüdür. YAP-ın rayon şö'bəsinin şura üzvüdür. YAP-n 1-ci və 2-ci qurultayının nümayəndəsi olmuşdur.**



Qurtuluş günü-15 iyun ömrümüzə, gələcək həyatımıza daxil olan tarixi bir hadisədir. Gənc, müstəqil respublikamız parçalanma təhlükəsində idi. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Bu çətin vaxtda xalqın ziyalılarının arzusu, istəyi, də'vəti ilə Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı. Bu qayıdışla ölkədə hökm sürən xaosun qarşısı alındı. Millətimiz fəlakətdən xilas oldu. O gündən indiyə qədər Azəabaycan məhz Heydər Əliyevin rəhbərliyi ilə onun gərgin zəhməti və əməyi sayəsində irəliyə doğru inamla addımlayır. Məhz bu inkişafın təməlini qoyan 15 iyun-tariximizə Milli Qurtuluş günü kimi daxil oldu. Bu bizim üçün önəmli bir tarixdir.

Kəlbəcər rayonunun sakinləri adından sevimli rəhbərimizi Qayıdış günü münasibəti ilə təbrik edir, ona möhkəm cansağlığı, əbədi ömür, işıqlı günlər diləyir, millətimizə gözəl gələcək arzulayıram.



**Xanlar rayon Raquf Rzayev adına Qızılca kənd orta məktəbinin direktoru Haqverdiyev Vahid Aslan oğlu 1950-ci ildə anadan olub. Ali təhsillidir. Ailəlidir. 2 övladı var. YAP-ın üzvüdür.**

Qədim Çin müdrikləri demişlər: "Güclü şəxsiyyət xalqı zülmətdən işığa aparan və xoşbəxt gələcəyə çatdıran bir şəxsdir". Bu şəxsiyyətləri tanrı yerə göndərmişdi ki, onlar cəmiyyət qarşısında öz vəzifəsini yerinə yetirsinlər. Və Tanrı özü onları qorusun, hifz etsin. Belə şəxsiyyətlərdən biri də möhtərəm Prezilentimiz Heydər Əliyevin ikinci dəfə xalqın təkidi ilə hakimiyyətə qayıtması xoş təssurat yaratdı. Siyasi hakimiyyətsizliyə, ididalı siyasətbazların naşı eksperimentlərinə cinayətkar dəstələrin qətl və qarətlərinə özbaşınalıq və dərəbəylik əməllərinə son qoyuldu. Bu zəka sahibinin kim olduğunu xalq yaxşı bilirdi. ABŞ-ın sabiq Prezidenti Bill Klintonun bir fikrini xatırladım. "Heydər Əliyev təkcə Azərbaycanı Amerikanı yox, bütün dünyanı idarə etməyə bacaran siyasi xadimdir". Təsəvvür edək ki, dünyanın super dövlətinin Prezidenti tərəfindən belə bir fikir səslənirsə, deməli, Heydər Əliyev dühasının işığı okeanın o tərəfinə də çatır.

Mən məktəbimizin kollektivi adından möhtərəm Prezidentimizə bütün arzularına yetməyini ulu tanrıdan diləyirik.

# Dünya azərbaycanlılarının ümidi sizə, yalnız və yalnız sizədir!

**Şükürov Rafiq 1952-ci ildə Şəki rayonunun Aşağı Küngüt kəndində anadan olub. APİ-nin riyaziyyat fakültəsini bitirdikdən sonra öz doğma yurdunda yüksək dərəcədə pedoqoji fəaliyyət göstərib. Təhsil sistemində rəhbər vəzifələrdə çalışıraq İctimaiyyətin və rayon rəhbərliyinnin rəğbətini qazanmışdır. Hal-hazırda, yəni 1995-ci ildən isa Şəki şəhər Pedoqoji Texnikumunun direktoru vəzifəsində işləyir.**



Çox hörmətli prezidentimiz, möhtərəm Heydər Əlirza oğlu!

Sizi doğum gününüz və ikinci dəfə hakimiyyətə gəlişinizin, 9-cu ili münasibətilə şəxsən öz adımdan, və rəhbərlik etdiyim 80 illik tarixi olan ŞPT-nun pedoqoji kollektivi adından səmim qəlbədən təbrik edir, sizə uzun ömür, cansağlığı, şəffaf həyat, Doğma Azərbaycanımızın çiçəklənməsi naminə daha böyük uğurlar arzulayıram.

Cənab prezident!

Sizin müdrik rəhbərliyiniz sayəsində 30 ildən artıqdır ki, Ana vətənimiz Azərbaycan iri addımlarla irəliləyir, gələcəyə böyük inamla baxır.

Yer kürəsi ərazisində yaşayan azərbaycanlıların ümidi sizə, yalnız və yalnız sizədir!

Şəxsən sizin gərgin əməyiniz və əvəzsiz fəaliyyətiniz sayəsində həyata keçirilən "Əsrin müqaviləsi", Bakı-Ceyhan neft və Bakı-Ərzurum qaz kəmərlərinin çəkilişinin reallaşdırılması daha böyük uğurlardan xəbər verir.

Möhtərəm prezident!

Bu gün yurdumuzun üzərindən qara buludların götürülməsi sahəsində apardığınız müdrik Sülh siyasətini ürəkdən bəyənirik. Hesab edirik ki, torpaqlarımızın azad edilməsi sahəsində ən müsbət variant elə budur.

İnanırıq ki, O Böyük Sülh müqaviləsini şəxsən siz imzalayacaqsınız və həmin gün o qədər də uzaqda deyil!

Əziz Heydər Əlirza oğlu!

Sizin hakimiyyətə ikinci dəfə gəlişiniz Doğma Azərbaycanımızın çox ağır bir dövrünə təsadüf edirdi. Hamımız çox yaxşı dərk edirik ki, Vətənimiz faktiki olaraq parçalanmışdı. Hər tərəfdən düşmən öz mənfur niyyətlərini uğurala həyata keçirirdi. Xalqımızın "Olum, ya ölüm" məsələsi həll olunurdu. Bu məsələni müsbət istiqamətdə həll etməyi yalnız bir nəfər bacardı - Heydər Əliyev!

O da həll etdi.

Bu, məhz Heydər Əliyev dühasının uğurudur!

Heydər Əliyev zəhmətinin bəhrəsidir!

Möhtərəm Prezidentimiz!

Məhz sizin atalıq qayğınızın nəticəsidir ki, bu gün 80 illik tarixə malik ŞPT-u fəaliyyət göstərir.

Bölgəmiz üçün çox əhəmiyyət kəsb edən texnikumumuz bir zamanlar səriştəsiz rəhbərlərin məhdud siyasəti sayəsində bağlanmışdı. Yalnız siz ikinci dəfə hakimiyyətə gəldikdən sonra və şəxsi qayğınız sayəsində texnikumumuz öz fəaliyyətini yenidən davam etdirir. Bu böyük diqqət və qayğınızı bütövlükdə bölgə əhalimiz, o cümlədən, pedadoji kollektivimiz yüksək qiymətləndirir və heç bir zaman unutmayacaqdır.

Biz gözəl dərk edirik ki, bu gün estafet çox layiqli əllərdədir. Və bu gün daha iri-iri addımiarla irəliləyən Azərbaycanımıza başçılıq edəcək yeganə şəxsiyyət kimi Heydər Əliyev cənablarını görən bizlər gələcəkdə həmin kürsüdə bu gün Azərbrycan gəncliyinin rəğbətini qazanmış olan İlham Əliyevi görəcəyik.

Ulu tanrıdan bir daha sizlərə böyük uğurlar, doğma Azərbaycanımızın çiçəklənməsi naminə həyatda ən şirin ne'mət olan cansağlığı arzulayırıq.

**Nemətov Ədalət Əlövsət oğlu Masallı Rayon Təhsil Şö'bəsinin müdiri.**



Azərbaycan Respuplikası müstəqillik əldə etdikdən sonra, xüsusən Heydər Əliyev cənabları yenidən hakimiyyətə gəldikdən sonra ölkəmizin siyasi və iqtisadi həyatında mühüm əhəmiyyətə malik islahatların həyata keçirilməsinə başlandı. Bəli, təhsil sistemində də islahatlar həyata keçirilir. Təhsilin inkişafı üçün möhtərəm prezidentimizin 13 iyun 2000-ci il tarixli "Azərbaycan Respublikasının təhlil sisteminin təkmiləşdirilməsi" haqqında fərmanı və digər qəbul olunmuş qərarlarının tətbiqi nəticəsində təhsil sistemində də bgyük uğurlar əldə olunmuşdur. Sevinirəm, fəxr edirəm ki, ali məktəbə olunduğum vaxt Heydər Əliyevin ilk dəfə hakimiyyətə gəldiyi dövrdə - 1969-cu ildə olub. Masallı Rayon Təhsil şö'bəsində rəhbərlik etdiyim vaxt isə dahi rəhbərimizin hakimiyyətə ikinci dəfə qayıdış dövründə olub.

Əvvəlcə bu bayram münasibətilə bütün xalqımızı səmimiyyətlə təbrik edirəm. 15 iyun-Milli Qurtuluş Günü Azərbaycan dövlətinin ən parlaq, ən şanlı səhifələrindən biridir. Böyük tarixi zərurət nəticəində yaranan dövlətçiliyimizin yaşanmasında xüsusi əhəmiyyəti olan bir zaman kəsiyinin təlatümlərlə dolu olan anlarının qalibiyyət səlnaməsidir. Bir birinin ardınca baş verən hadisələrin Azərbaycanı məhvə sürükləməsi, get-gedə güclənən xaos ölkənin əsl sahibini tələb edirdi. Hüdudsuz "demokratiyanın", müxtəlif mərkəzlərdən idarə olunan hərc-mərcliyin, hakimiyyət uğrunda mübarizənin mahiyyəti, iç üzü ortaya çıxdıqca və nəhayət, Heydər Əliyevin min zəhmət bahasına yaratdıqları xalqın gözləri qarşısında dağıldıqca böyük dövlət qurucusuna, ictimai harmoniya ustasına ehtiyac da güclənirdi. O, Azərbaycan xalqına idarəedici, dövlət qurucusu kimi hava, su qədər lazım idi. 1993-cü ilin ortalarında Azərbaycan cəmiyyəti artıq demokratiyanı anarxiyadan xilas etmək uğrunda mübarizə aparmaq üçün özündə qüdrət tapdı. Bu birinci növbədə onda təzahür etdi ki, xalq uzun illər ərzində yetirmiş olduğu ümummilli tarixi liderə inamını sonsuz enerji ilə ifadə etdi. Bu inam xırda "hərəkatçıların","cılız siyasət, fəallarının","obrazlarını ictimai təfəkkürdən bütünlüklə silib atdı. Dövlət böhranı, vətəndaş qarşıdurması, ictimai xaəs nəticəsində insanların Xilaskara-möhtərəm Heydər Əliyevə üz tutması tarixin qaçılmaz tələbi idi. Məhz cənab prezidentin hakimiyyətə ikinxi qayıdışı dövlətimizi, xalqımızı hər chr bəlalardan xilas etdi. Azərbaycanın qurtuluşu Heydər Əliyevin şəxsində təzahür edən böyük bir milli, ictimai-siyasi enerjinin fəaliyyəti nəticəsində mümkün oldu. Azərbaycanın xilası üçün onun gördüyü işlərin miqyası ölçüyəgəlməzdir. Onun fəaliyyəti xalqımızın yalnız bu gününü müəyyən etmir, onun gələcəyini müəyyənləşdirir. Bu mənada qurtuluşumuz bu günlə məhdudlaşmayan, gələcəkdə məzmunu daha yaxşı dəyərləndiriləcək bir tarixi hadisədir. Heydər Əliyev qədər böyük dövlətçilik təfəkkürünə,zəngin idarəçilik təcrübəsinə *malik ikinci* bir şəxs olmamışdır. O, *milli ləyaqət* hissinin, bəşəri dəyərlərin ən böyük daşıyıcısıdır. Heydər Əliyev müstəqil dövlətimizin əsaslarını yaratmış, onun demokratik inkişaf yolunu insanın fərdi qabiliyyətinin deyil, bütövlükdə xalqımızın iradəsinin ifadəsidir. O, müstəqil Azəabaycan dövlətini elə bir özül üzərində qurur ki, illərin sınağına davam gətirə bilsin. Cəsarətlə demək olar ki, dövlətimizin sütunları möhtərəm prezidentimizin çiyinləri üzərində dayanır. Xalqımız öz liderini sevir, ona inanır və güvənir.

Öz ziyalı kollektivimiz adından "Babadağ" qəzetinin bütün əməkdaşların öz təşəkkürümü bildirirəm.

**Şəmkir rayon Qaranüy bələdiyyəsinin sədri Verdiyev Oruc Fərman oğlu 1963-cü ildə anadan olub. Orta təhsillidir. Ailəlidir, 3 övladı var. YAP-ın üzvüdür.**



Heydər Əliyev bəşər tarixinin çox nadir hallarda yetirdiyi dühalardan biridir. Həyat mövqeyinin formalaşmasında Heydər Əliyevin həyat və fəaliyyətinin mühüm tə'siri olmuşdur. Bu dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı üçün həyata keçirdiyi işləri görməmək ən azı insafsızlıqdır. Heydər Əliyevin siyasi fəaliyyəti nəticəsində xalqımız böyük nəaliyyətlər əldə edib.

Mən inanıram ki, Allahın köməkliyi ilə Prezidentimizin rəhbərliyi altında xalqımız tezliklə işğal olunmuş torpaqlarımızı azad edəcək, məcburi köçkünlərimiz öz dədə-baba yurdlanna qayıdacaqlar. Biz bələdiyyələr və kəndimizin sakinləri möhtərəm prezidentimizin anadan olmasının (79 illik) yubleyinin və hakimiyyətə qayıdışının 9 illiyini səmimi qəlbdən təbrik edirik. Ona uzun ömür, cansağlığı arzulayırıq.

**Xanlar Rayon Mərkəzi Xəstəxanasının Baş həkiminin müavini Muradov Eldar. YAP-ın üzvüdür.**



Möhtərəm prezidentimiz Heydər Əliyevin sülhsevər siyasəti hamıya məlumdur. Heydər Əliyev məktəbi dünyanın ən böyük siyasət məktəbidir. Qədirbilən xalqımızın böyük oğlu Heydər Əliyev bəşər tarixinin çox nadir hallarda yetirdiyi dühalardan biridir. Bu dahi şəxsiyyətin Azərbaycan dövləti, xalqı üçün həyata keçirdiyi işləri görməmək mümkün deyil. Cənab Heydər Əlyevin siyasi fəaliyyəti nəticəsində xalqımız böyük nailiyyətlər əldə edib. Ölkəmizdə yaranmış böyük sabitliyi nailiyyətimizin ən böyük bəhrəsi hesab edirəm. Prezidentimizin səhiyyəyə göstərdiyi qayğı həkimləri daha da ruhlandırır. Prezidentimizin rəhbərliyi altında xalqımız tezliklə işğal olunmuş torpaqlarımızı azad edəcək, məcburi köçkünlərimiz öz dədə-baba yurdlarına qayıdacaqlar. Azərbaycan inkişaf etmiş dünya dövlətləri arsında özünəməxsus yer tutacaqdır. Azərbaycan xalqı buna layiqdir.

**Dövlət torpaq və xəritəçəkmə komitəsinin Astara şöbəsinin müdiri Caniyev Hacəli 1956-cı ilin dekabrın 3-də Siyaku kəndində anadan olmuşdu. Kənd Təsərrüfatı İnstitutunu bitirib. İlk əmək fəaliyyətinə təsərrüfatdan başlayıb. Az sonra Torpaq və Xəritə çəkmə Komitəsinin müdiri seçilib. Hal-hazırda həmin vəzifədə işləyir. Ailəlidir, 5 övladı var. YAP-ın üzvüdür.**



Möhtərəm prezidentimiz Heydər Əliyev barəsində saatlarla danışsaq, yəni onun fəaliyyətini Azərbaycan xalqı qarşısında xidmətlərini söz ilə ifadə edə bilmərik. Təkcə onun hakimiyyətə 2-ci dəfə qayıdış dövrünü təsəvvür etsək görərik ki, həmin dövrdə Azərbaycanda yaranmış ictimai-siyasi böhrandır. Azərbaycanın parçalanma təhlükəsi reallaşdığı dövrdə Möhtərəm Prezidentimizin hakimiyyətə qayıtması dövlətimizə, xalqımıza bir bariz nümunədir. Ömrünü xalqa həsr etmiş hörmətli prezidentimizin uzaqgörənliyi və müdrikliyi sahəsində torpaqlarımız düşmən işğalından azad olacaq. Bu gün onun siyasi fəaliyyətinin 33 ili tamam olur. Xalqımız tərəfindən bu günkü bayram ümumdünya azərbaycanlılarının ən sevimili günüdür. Mənim də bir azərbaycanlı kimi sevincimin, fərəhimin həddi hüdudu yoxdur. Bütün rayonlarda olduğu kimi, bizim rayonda da bu bayramı İH-nin başçılığı ilə qeyd edilir. Mən də bu bayram münasibətilə xalqımı, başda Möhtərəm Prezidentimiz Heydər Əliyev olmaqla təbrik edirəm.

# HEYDƏR ƏLİYEV-UCALIQDIR!



KAMİL ZEYNALOV
AZƏRBAYCAN RESPUBLİKASI BUS BANK İMİŞLİ RAYON ŞÖBƏSİNİN MÜDİRİ

Məlum həqiqətdir ki, 1990-cı illərin əvvəllərində SSRİ adlı imperiyanın dağılması nəticəsində həmin imperiyadan müstəqil Respublikamız üçün də çoxlu problemlər miras qalmışdır. Mərkəzləşdirilmiş idarəetmə sisteminin dağılması gənc respublikamız qarşısında olduqca vacib olan problemlərin həllinin sürətlədirilməsini tələb edirdi.

Məhz XXI əsrin astanasında respublikamızın yenidən müstəqillik qazanması azadlıq ideyalarına sadiqliyinin bariz nümunəsidir. Lakin, müstəqilliyin və azadlığın qorunub saxlanılması üçün bütün ölkə iqtisadiyyatının bütün sahələri dinamik inkişaf etməli, respublika daxilində makrosabitlik əldə edilməli və ölkənin potensial imkanlarından səmərəli istifadə olunmalıdır.

İnkişaf etmiş ölkələrin həyat təcrübəsi göstərir ki, müstəqilliyin ilk dövrlərində iqtisadiyyatın dircəlməsində təbii ehtiyatlardan istifadə olunması dövlətlərin qısa bir müddətdə tənəzzüldən çıxaraq intensiv inkişaf yolu ilə irəliləməsinə səbəb olmuşdur. Bu baxımdan Amerika Birləşmiş Ştatlarının keçdiyi həyat yolu daha səciyyəvidir. Belə ki, 1776-cı ildə ABŞ özünün müstəqilliyini elan etmişdir. Bu ildə məşhur alim və iqtisadçı Adam Smitin "Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında" klassik əsəri nəşr olunmuşdur və bu əsərlərdəki elmi mülahizə və fikirlərin tədbiqi ABŞ-ın iqtisadi inkişafında əhəmiyyətli rol oynamışdır.

Müstəqil Azərbaycan dövlətinin iqtisadiyyatının hər tərəfli inkişaf etdirilməsində neft amilindən istifadə olunması möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının uzaqgörən, düşünülmüş siyasətinin əyani təcəssümüdür.

Məhz, Heydər Əliyevin 70-80-ci illərdə yeritdiyi müdrik iqtisadi siyasət Azərbaycanda çox iri zavod və fabriklərin tikintisinə imkan verdi. O dövrdə keçmiş SSRİ məkanında analoqu olmayan neft sənaye komplekslərinin tikintisi və istismarı Xəzərin kontinental sahəsində yerləşən "Günəşli" yatağının açılması və istismara verilməsinin əsasını qoymuşdur. Dahi rəhbərimizin 70-80-cı illərdə gördüyü fədakar əməyinin nəticəsinin respublikamızın iqtisadiyyatında oynadığı rolun bu gün canlı şahidiyik.

XX əsrin sonuncu onilliyi Azərbaycan üçün bir sıra mühüm amillərlə səciyyələnir. Ölkəmizin müstəqilliyinin ilk dövrlərində, 1991-1993-cü illərdəki siyasi, iqtisadi və sosial sahələrdə hökm sürən hərcmərclik, özbaşınalıq və çəkişmələr dövlətin tam süquta uğramasına kətirib çıxarmışdır. Xalqımız çətin bir anda fövqəltəbii düşüncəyə və iradəyə malik olduğunu bütün dünya xalqlarına sübut etdirərək, millətin xilaskarını-Heydər Əliyev cənablarını hakimiyyətə kətirdi. Dövlət müstəqilliyinin qorunub saxlanılmasının təminatı olan möhtərəm Heydər Əliyev cənablarının ölkənin siyasi və iqtisadi sisteminin yeniləşdirilməsi, arzu olunmaz böhranın tezliklə aradan qaldırılması istiqamətində apardığı məntiqi və fədakar işi nəticəsində xalq təsərrüfatının bütün sahələrində dirçəlişə güclü təkan verdi. İnanırıq ki, gələcəkdə də Heydər Əliyevin dərin zəkası və siyasi bacarığı sayəsində Azərbaycanımız daha da inkişaf edərək Avropa mədəniyyətinə, iqtisadiyyatına tam inteqrasiya edəcəkdir.

Mən, kollektivimiz adından Azərbaycan xalqını "Milli qurtuluş günü" münasibətilə təbrik edir, dahi rəhbərimiz Heydər Əlirza oğlu Əliyevə dövlətçiliyimizin qorunaraq inkişaf etdirilməsi işində uğurlar arzulayıram.

YAQUB QULİYEV
BƏRDƏ ŞƏHƏR 2-Cİ NOTARİAL KONTORUN NOTARİUSU



Tarixən döyüş meydanı, mübarizə məkanı olan Azərbaycandan minlərlə ordular səfər etmiş, üzərinə od yağdırılmış, sinəsi üstündə milyonlarla şəhidin qanından al lalələr baş qaldırmışdır. Hər-hansı bir vaxt kəsiyində baş qaldıran mübarizələrdə, azadlıq hərəkatlarında xalq öz dahi şəxsiyyətini, rəhbərini önə çıxarır və onun ardınca getməyə hazır olduğunu bildirir.

Bu kimi liderlər haqqında tariximizdə kifayət qədər nümunələr var və olmaqdadır.

Bütün faktlar içindən yalnız birini misal gətirmək istərdim, XX əsrin əvvəllərində bütün dünyanı bürümüş 1-ci dünya müharibəsi Osmanlı İmperiyası üçün acınacaqlı sonluqla nəticələndi. Çoxəsrlik dövlətçilik ənənələri məhv olmaq təhlükəsi ilə üzləşmişdir. Demək olar ki, Türk xalqı kölə vəziyyətinə düşmək, vassal olmaq təhlükəsi qarşısında əlacsız qalmışdır. Mustafa Kamal Atatürkün dahiliyi türk xalqını yenidən mübarizəyə qaldırdı və son nəticədə Türkiyənin müstəqilliyi və bütövlüyü bərqərar edildi.

Bütün bunları deməkdə məqsədim odur ki, biz yaşadığımız son 20-30 ili düzgün, sağlam məntiqə əsaslanan təhlillərlə dərk etməliyik. Ataların misalı var, deyərlər ki; Dağın ətəyində olarkən onun ucalığını hiss etmirsən.

Ancaq bü gün bizlər Heydər Əliyev şəxsiyyəti ilə bir dövrdə yaşasaq da, artıq onun ucalığı hiss olunmaqdadır.

1969-cu ildə Azərbaycan SSR KP MK-nın birinci katibi vəzifəsinə təyin edilən Heydər Əliyev milli quruculuq işlərinin başlanğıc təməlini qurdu. Xalqımızın adət-ənənələrinə söykənən tədbirlər vüsət aldı. İlk dəfə olaraq erməni daşnaklarına qarşı əsaslı mübarizə başlandı. Azərbaycanlıların deportasiyası siyasətinə son qoyuldu.

Sənayedə və kənd təsərrüfatında ağlasığmaz uğurlar əldə olundu. Daşınmaz əmlak olan nəhəng neft-kimya zavodları inşa edildi, ən əsası isə, Azərbaycan dilinin təmizliyi və müqəddəsliyi qorundu və inkişaf etdirildi.

1993-cü ildə Heydər Əliyevin yenidən Respublika rəhbərliyinə qayıtması başlanmış işləri tamamlamağa zəmin yaratdı. Son onillikdə Heydər Əliyev fəaliyyəti gözümüz önündə cərəyan etdiyi üçün mən son illərdə görülən işlər barəsində çox danışmaq istəmirəm. Sadəcə sonda onu bildirmək istəyirəm ki, Heydər Əliyev fenomeni bizim üçün əlçatmaz ucalıqdır. Bu ucalığın şərəfini qorumaq bizim borcumuzdur.

Fərman QƏHRƏMANOV, Qazax Şəhər Bələdiyyəsinin sədr müavini



Həyat məktəbini keçməyən, əmək cəbhəsində bərkdən-boşdan çıxmayan, halal zəhmətin nə olduğunu bilməyən adam xalqımızın ümummilli lideri Heydər Əliyevə layiqincə qiymət verə bilməz. Bir xatırlayın. 1988-ci ildən bəri xalqımızın başına nə zülmlər gəlmədi. Həyat bizi sınadı. Zaman bizi çox bərkə-boşa çəkdi. Ulu yaradanın könlü ilə belimiz bükülmədi. Qəddimiz, qamətimiz qırılmadı. Polad kimi sındıq, əyilmədik. Torpaqlarımızdan bir qismini itirdik, mənliyimizi itirmədik. Göydə Tanrının, yerdə Heydər Əliyevin ətəyindən yapışdıq. Dahi şəxsiyyətə olan ümidimiz itmədi, tükənmədi, ruhdan düşmədik. Əldə etdiklərimiz isə göz qabağındadır. Tökülən qan isə kəsildi. Lakin bütün bunlar başlanğıc idi. Məhz, O, böyük şəxsiyyətin sayəsində Azərbaycanı öncə özümüzə, daha sonra isə dünya ictimaiyyətinə tanıtdıq. Bu gün isə, dünya ictimayyəti ilə yanaşı olaraq yeni əsrə, yeni minilliyə Heydər Əliyevin, onun ucaldıb daim uca saxladığı bayrağın, böyük liderimizin şəxsiyyətinin, Heydər Əliyevin zirvəsinin kölgəsi altında irəliləyirik. Bunu mən möhtərəm prezidentimizin varlığına, Onun nüfuzuna verilən qiymət kimi dərk edirəm.

Novruz ABDULLAYEV
Qazax Rayon Maliyyə İdarəsinin Rəisi



Heydər Əliyev ucalığına dəlalət edən xüsusiyyətlərdən biri odur ki, o, mətanət və dəyanət sahibi olan bütöv şəxsiyyətdir. Həyat və fealiyyətinin bütün dövründə öz doğma xalqına və doğma torpağına tam varlığı ilə bağlı olan Heydər Əliyev hakimiyyətdə olduğu müddətdə heç kəs Azərbaycan torpağının bir qarışını belə ələ keçirə bilməmişdir. Tarix boyu Azərbaycan torpaqları iddiasında olan erməni millətçiləri Heydər Əliyev qarşısında bu mövzunu dillərinə gətirə bilməmişlər. Lakin danılmaz faktdır ki, üzü Şah İsmayıldan bəri, o cümlədən, Sovet Hakimiyyəti illərində Azərbaycanın başında duran bütün rəhbərlərin dövründə ərazilərimiz az və ya çox dərəcədə əldən verilib. 1988-93-cü illərdə Heydər Əliyevsiz Azərbaycan daha dəhşətli itkilərə məruz qaldı. Düşmən üstümüzə ayaq aldı, torpaqlarımız işğal edildi, insanlarımız didərgin düşdü, soydaşlarımız həlak oldular, qırıldılar. Ən dəhşətlisi isə o oldu ki, ölkədə özbaşınalıq yarandı. Məhz bu vaxt ölkədaxili silahlı qruplaşmalar xalqı vətəndaş müharibəsi həddinə gətirib çıxardılar. Özbaşınalıq və xaos Azərbaycan müstəqilliyini təhlükə altında qoydu. Öz müstəqilliyinə yenicə qovuşan Azərbaycan xalqının müqəddəratı xarici və daxili düşmənlərin nəzarətinə keçməyə başladı. Tarixin belə bir mürəkkəb məqamında xalq yenə də öz xilaskarını axtarıb tapdı, onu-Heydər Əliyevi israrla tələb etdi. O, həmişə olduğu kimi, xalqın çağırışına doğma münasibət bəslədi - Naxçıvandan Bakıya gəldi. Xalq öz sevimli rəhbərini, tarixin sınağından məğrur çıxmış xilaskarını böyük sevinclə qarşıladı, insanların gözlərindən axan sevinc yaşları tarixin yaddaş səhifələrinə hopdu. Heydər Əliyev ölkədə yaranmış gərgin, mürəkkəb durumu - vətəndaş müharibəsi alovunu söndürmək vəzifəsinin öhdəsindən gəlmək üçün gecəli-gündüzlü məhsuldar fəaliyyətə başladı. Vətəndaş müharibəsinin dəhşətini dərindən duymaq üçün bir anlığa gözlərimiz qarşısında Əfqanıstan, Tacikistan kimi respublikalarda axıdılan qardaş qanına diqqət yetirmək kifayət edər. Zəngin dövlətçilik təcrübəsi, yaranmış mürəkkəb vəziyyəti müdrikliklə təhlil etdi və incə siyasi gedişləri ilə, o, qısa müddətdə ölkədə baş qaldırmış dağıdıcı prosesləri öz nəzarətinə götürə bildi.

Heydər Əliyev böyüklüyü burada da özünü göstərdi.

O, xalqın sağlam qüvvəsindən səlistliklə istifadə edərək dövlətçiliyimizin qorunması məqsədinə yönəltməyə nail oldu, xalqın sel kimi coşub-daşan gücünü cəmləyərək dağıdıcı qüvvələrin qarşısını almağa istiqamətləndirdi. Ölkə gündə gün sanki ağır yükün gərginlik dolanbacından çıxdı. Ölkənin müstəqillik yükü, xalqın öz sabahına inamı Heydər Əliyevin vətən sevgisinin odu ilə döyünən böyük ürəyində, nəbzində narahatlıqla vurdu. Taleyüklü problemin həlli çözümündə iki mühüm amil- Heydər Əliyev dəyanəti və əqidəsi ilə xalqın öz rəhbərinə inamı və sonsuz məhəbbəti kimi mənəvi tellər xilaskarlıq nöqtəsində birləşdi.

Azərbaycan xalqına arzu edirəm ki, daima Heydər Əliyev dəyanətinin ətrafında sıx birləşsinlər, onun dahi zəkasından layiqincə bəhrələnsinlər.

# ONUN QÜDRƏTİ BİZİM QÜDRƏTİMİZDİR

**GÖVHƏR RƏHİMOVA**
**QAZAX RAYON SƏMƏD VURĞUN ADINA UŞAQ YARADICILIQ MƏRKƏZİNİN DİREKTORU**



1993-cü ilə kimi respublikamız elə bir acınacaqlı vəziyyətə düşmüşdü ki, heç kim inanmırdı ki, bu faciəli vəziyyətdən çıxmaq mümkün olsun. Amma Heydər Əliyev cənablarının Bakıya qayıdışından sonra hər şey nəinki öz axarına düşdü, hətta respublikamız tərəqqiyə doğru uğurlu addımlarla irəlilədi. Mən bütün sahələrdə aparılan islahatları yüksək qiymətləndirir, həmişə Heydər Əliyev siyasətinə arxalanacağımı bildirirəm və bu siyasətin bütün istiqamətlərii ilə fəxr edirəm.

Möhtərəm prezidentimizin çox müdrik bir sözünü qeyd etmək, vurğulamaq yerinə düşərdi. O demişdir: "Uşaqlar bizim gələcəyimizdir". Bu deyilənlərə əməl etmək, uşaqlara diqqət və qayğıgöstərmək hər birimizin insanlıq borcudur. Mən Uşaq Yaradıcılıq Mərkəzinin direktoru kimi, möhtərəm prezidentimizin bu sahəyə olan diqqət və qayğısını xüsusi ilə qeyd edib, onun müdrik siyasətini həmişə dəstəkləyirəm. Fürsətdən istifadə edib qəzetiniz vasitəsilə xalqımıza olan arzularımı çatdırmaq istəyirəm. Qoy Ulu Tanrı bizim xoşbəxt gələcəyimiz olan uşaqlarımıza xoşbəxt gələcək bəxş etsin.

**NEMƏT ƏLİYEV**
**QAZAX RAYON TƏHSİL ŞÖBƏSİNİN MÜDİRİ**

Müstəqilliyimiz əbədidir, müstəqilliyimiz daimidir. Çünki bu müqəddəs yolumuz "Milli Qurtuluş" günü kimi şərəfli bir gündən özünə başlanğıc götürmüş və bu yolu özünə cığır etmişdir. Sovetlər İmperiyasının işğalçı siyasəti nəticəsində nəinki bizim dövlətçiliyimiz işğal edilmiş, xalqın azadlığı ayaqlar altında tapdanmışdır.

Artıq tarixin bu ztllətli günləri geridə qalmış, unudulmamış, əksinə olaraq, yaddaşlara yazılmışdır.Özü də şanlı bir tarix kimi. Bu gün yaşadığımız müstəqil Azərbaycan dövləti özünün gələcəyə doğru inkişaf estafetini götürmüş, sabahı inamla açır. Möhtərəm rezidentimiz Heydər Əliyev cənablarının səyi və istedadı sayəsində dövlətimizin qüdrəti daha da artmış, dünya dövlətləri tərəfindən nüfuzlu bir dövlət kimi qəbul olunmaqdadır. Tarix 100 illər ərzində nadir hallarda belə şəxsiyyətlər yetirir. Onun qüdrəti bizim qüdrətimizdir.

Azərbaycanın müstəqilliyi, azadlığı bizlər üçün qurur, qeyrət, şan-şöhrət rəmzidir. Müstəqil respublikada müstəqil vətəndaş kimi yaşamaq və gələcəyimiz olan gənclərimizi azad fikirli böyütmək bizim borcumuz, vəzifəmizdir. Azərbaycanın hər bir vətəndaşı tutduğu vəzifənin icrasından başqa, eyni zamanda, vətənpərvərlik vəzifəsini də dərk etməlidir. Ola bilsin ki, keçid dövrü ilə əlaqədar hər hansı bir çətinliklər olsun. Ancaq onu da yaddan çıxarmaq lazım deyil ki, bütün işlər çətinliklərlə başlanır. Şükürlər olsun ki, "Milli Qurtuluş" günündən başlanan azadlıq yolumuz Heydər Əliyev şəxsiyyətilə vəhdət təşkil etdi və bu yol öz əzəmətini göstərdi. Möhtərəm prezidentimizin uğurlu daxili və xarici siyasəti ilə Azərbaycan Respublikası daima inkişafa doğru addımlayacaq. Bu şərəfli inkişaf yolu bizi də gələcəyə ümidlə və inamla baxmağa sövq edir. Çətin, lakin əzəmətli yollarda xalqımıza uğurlar diləyirəm.

**AKİF İBRAHİMOV**
**GORANBOY RAYON SUBARTEZİAN QUYULARI İSTİSMARI İDARƏSİNİN RƏİSİ**



Mənim Hedər Əliyev haqqında deyiləsi sözlərim həddən artıq çoxdur. Onun barəsində saatlarla yorulmadan danışmaq, dünyanın ən dahi şəxsiyyəti kimi barəsində ən maraqlı və məntiqli mülahizələr yürütmək olar. Bu mənada Heydər Əliyev şəxsiyyəti haqqında deyilən sözlər, yürüdülən fikirlər təqdirə layiqdir. Onun Azərbaycan xalqı qarşısında xidmətləri böyükdür. Çünki, onun özü də böyük şəxsiyyətdir. Heydər Əliyevin xidmətlərini unutmaq, danmaq ən azı vicdansızlıqdır, ən çoxu isə düşmən dəyirmanına su tökməkdir. İndi bəzi üzdəniraq müxalifətçilər bu mövqedən çıxış edirlər. Lakin bir qrup adam xalqın fikrini ifadə edə bilməz, yaddaşlardan həqiqəti silə bilməz. O xalq ki, ən çətin anlarda düzgün seçim edərək Heydər Əlirza oğlu Əliyevi yenidən hakimiyyətə gətirdi. Azərbaycan xalqının bütöv bir nəsli, bütün təbəqələri o dahi şəxsiyyəti sevir və sevəcəkdir. Möhtərəm prezidentimizin bütün türk dilli xalqlar, dövlətlər içərisində birinci şəxs kimi qiymətləndirilməsi başımızın ucalığıdır. Bütün MDB dövlətlərinin vətəndaşları arzulayırlar ki, onlara da belə müdrik siyasətçi rəhbərlik eləsin. Təbii ki, bizim xalqımız daim Heydər Əliyev rəhbərliyini arzu edib və 1993-cü ildə bu arzunu ifadə edərək, dahi siyasətçini hakimiyyətə dəvət etdi.

İndi Azərbaycanın Qarabağ problemindən başqa ikinci böyük problemi yoxdur. Ölkəmiz nə qədər inkişaf etsə də, xalqımız nə qədər firavan yaşasa da, necə deyərlər, yaddan çıxmaz Qarabağ.

Qarabağ məsələsinin həlli prezidentimizin ən ümdə vəzifəsidir. O, öz çıxışında belə bildirmişdi: "Mənim arzum budur ki, işğalda olan torpağlarımızı azad edim və ölüm". Mən isə demək istərdim ki, hörmətli prezident! Siz torpaqları azad edəcək, xalqımızın qələbə bayramında iştirak edəcək və bütöv, azad, sülh şəraitində yaşayan Azərbaycanın prezidenti olacaqsınız. Çünki, mən inanıram ki, bu xalqın xoşbəxtliyi Sizin əlinizdədir.

Bu yolda Sizə cansağlığı və uzun ömür arzu edirəm.

**SİYAVUŞ SÜLEYMANOV**
**QAZAX RAYON DÖVLƏT TEXNİKİ İNVENTARLAŞDIRMA VƏ MÜLKİYYƏT HÜQUQLARININ QEYDİYYAT İDARƏSİNİN RƏİSİ**

**1993-cü il iyun ayının 15-də hörmətli prezidentimiz Heydər Əliyev cənablarının Bakıya qayıdışı bir daha Azərbaycanın çiçəklənməsinə səbəb oldu. Bu danılmaz faktdır ki, 1993-cü ilin iyununa qədər hərc-mərclik ölkədə baş alıb gedirdi. Gənc, müstəqil respublikamız parçalanmaq təhlükəsində idi. Ölkədə vətəndaş müharibəsi ərəfəsindəydi. Bu çətin vaxtda, xalqın ziyalılarının arzusu, istəyi, dəvəti ilə Heydər Əldiyev yenidən hakimiyyətə qayıtdı.**

**Bu qayıdışla ölkədə hökm sürən xaosun qarşısı alındı, millətimiz fəlakətdən xilas oldu. Və elə o gündən indiyə qədər də Azərbaycan məhz Heydər Əliyev rəhbərliyi ilə, onun gərgin zəhməti və əməyi sayəsində irəliyə doğru inamla addımlayır. Məhz bu inkişafın təməli 15 iyun tariximizə "Milli Qurtuluş" günü kimi daxil oldu. Bu bizim üçün həyatı bir gün, önəmli bir tarixdir. Bu gün mən xalqımızın görkəmli, dəyirli oğlu, dünya miqyaslı böyük siyasətçi Heydər Əliyevə ilk öncə möhgəm cansağlığı, uzun ömür arzu edirəm. Müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi, çiçəklənməsi naminə gördüyü müqqəddəs və tarixi işlərdə yeni-yeni uğurlar diləyirəm. Xalqımıza isə xoş sabahlar, gözəl gələcək arzulayıram.**

# BÖYÜK XALQIN DAHİ LİDERİ

**SƏMƏDOV NATİQ MİRZƏXAN oğlu**
**BAKI ŞƏHƏR 22-ci NOTARİAL KONTORUN NOTARİUSU**

Hər bir xalq azadlığı, xoşbəxtliyi, firavan yaşayışı üçün nəyi isə qurban verməlidir. Düzdür, bunlara nail olmaq üçün bütün mərhələlərdən keçirlər və axır ki, öz istəklərinə çatırlar. Azadlığı qazanmaq çətindir. Ancaq onu qorüyub saxlamaq, bütün dövlətlərə tanıtmaq daha çətindir.

Hər cəhətdən azadlığı itirmək astanasında dayanmış Azərbaycan xalqı nəhayət özünün xilas yoluna tapındı və xalq bildi ki, daxildə gedən çəkişmələrdən, keçmiş iqtidarda olan məmurların bir vaxtda, nankor ermənilərin bu hərc-mərclikdən istifadə edib Azərbaycanımızı işğala məruz qoyduğu bir məqamda onları möhtərəm prezidentimiz Heydər Əliyev xilas edəcək və xalq kütləvi surətdə onu tələb etdi. Xalq bildi ki, müstəqilliyə təzə qədəm qoymuş, parçalanmaq iqtidarında olan Azərbaycan dövlətini həmin vəziyyətdən yalnız və yalnız Heydər Əliyev siyasəti qurtara bilər.

Doğrudan da Heydər Əlirza oğlu Əliyevin bu 9 ildə Azərbaycan tarixində güclü, heç bir ölçüyə sığmayan rolu var.

Hakimiyyətə gələndən sonra birinci növbədə atəşkəsin əldə olunması, qardaş qırğınının və parçalanmanın qarşısının alınması, iqtisadiyyatda olan irəliləyişlər, Azərbaycanın Avropa Şurasına qəbul olunması, neft sahəsində atdığı uğurlu addımlar, bir sıra birliklərə Azərbaycanın üzv olması möhtərəm prezidentimiz Heydər Əliyevin sülhsevər siyasəti və dünya şöhrətli fenomen bir şəxsiyyət olmasından irəli gəlir. Heydər Əliyev analoqu olmayan dahi bir insandır və biz sevinirik ki, Tanrı Azərbaycan xalqı üçün göndərib bu xilaskar insanı. Çünki, biz azərbaycanlıların böyük ümüdü və ehtiyacı var Heydər Əliyev diplomatiyasına, Heydər Əliyev zəkasına, Heydər Əliyev dühasına. Tarix belə şəxsiyyətləri tək-tək yetişdirir.

Dövlət başçısının böyüklüyü onun əməlləri ilə, xalqını qırğına verməyən sülhsevər siyasəti və misilsiz xidmətləri ilə ölçülür.

Yorulmadan, gecə-gündüz bilməyib, bütün varlığını xalqına həsr edən möhtərəm prezidentimiz artıq istəyinə nail olub. Qüdrətli, dünyanın hegemon dövlətlərilə eyni səviyyədə durmaq qabiliyyəti olan Azərbaycan dövləti yaradıb. Bütün inkişaf etmiş xarici dövlətlərin diqqətinin Azərbaycana tamamilə yönəlməsi məhz bu uğurlu siyasətin bəhrəsidir.. İnanırıq ki, Azərbaycan dövləti inkişaf edib ən yüksək zirvəyə çatacaq və bu Heydər Əliyevin uzaq görən siyasətinin nəticəsi olacaq.

Biz azərbaycanlılar möhtərəm prezidentimiz Heydər Əliyevlə fəxr edirik və öz kollektivimiz adından Azərbaycan xalqını "Milli Qurtuluş" günü münasibətilə təbrik edirəm.

Tarixə qızıl hərflərlə yazılan 33 il

# Qurtuluş

"Babadağ" qəzetinin xüsusi buraxılışı



**Bərdə rayonunun Təhsil şöbəsinin müdiri İsmayılova Rəhilə Mustafa qızı. 1955-ci ildə Bərdə rayonunda anadan olub 1976-cı ildə Bakı Dövlət Universitetini bitirib. 1988-ci ildə Azərbaycan Yazıçılar birliyinin üzvü seçilib. Müxtəlif məsul vəzifələrdə çalışıb. YAP-ın üzvüdür.**

Hörmətli prezidentimiz müdrik siyasətçi Heydər Əliyev cənabları hakimiyyətə 2-ci dəfə gəlişi xalq tərəfindən rəğbətlə qarşılandı. Xalqımızın tarixi salnaməsinə ən yaddaqalan səhifələri yazan bu insan ölkəmizi bütün dünyada tanınması sosial-iqtisadi və mədəni həyatının yeni zirvəyə çıxması üçün yorulmadan fəaliyyətdədir.

Möhtərəm prezidentimizin Azərbaycanda təhsil sisteminin dünya standartları səviyyəsində yenidən qurulmasında, islahatlar aparılmasında əvəzsiz xidmətlər vardır.

Hər birimiz bilirik ki, möhtərəm prezidentimiz H.Əliyevin tərifə ehtiyacı yoxdur. Çünki o bütün fəaliyyətini xalqın taleyinə bağlayıb. Hər birimizin dinclik, əmin-amanlıq şəraitində yaşamağımıza çalışıb və bu gündə çalışır. Mən də rayonumuzun Təhsil şöbəsinin müdiri kimi kollektivimiz adından qarşıdan gələn "Qurtuluş" günü və siyasi fəaliyyətinin 33 illiyi münasibətilə xalqımızı və prezidentimizi Heydər Əliyev cənablarını təbrik edirəm. Möhtərəm Prezidentimizə gələcək işlərində yeni-yeni uğurlar arzulayıram.

## DAHİ RƏHBƏRİN XALQLA BİRLİYİ HƏLƏ ÇOX-ÇOX UĞURLAR QAZANACAĞIMIZDAN XƏBƏR VERİR

Bəzi qənaətlərə görə dünyada qeyri-adi qüvvəyə malik "Günəş adam"lar mövcüddurlar. Müqəddəs qüvvə bəxş edərək yer üzünə göndərdlyi çox nadir olan belə "Günəş adam"lardan birini də bizim ölkəmizə bəxş edib. Xalqına, vətəninə xidmətdə keçirdiyi narahat, təlatümlü, mənalı ömrünün 79-cu baharına qədəm qoymuş dünya şöhrətli müdrik prezidentimiz Heydər Əliyev səmada parlayaraq Günəş kimi aramsız olaraq xalqımızın taleyini isidir. Müdrik rəhbərimizin fenomen ömrünün təfərrüatını canlandırmaq mümkün olsaydı, bəlli olardı ki, onun hər bir anı nümünə və örnəkdir. Heydər Əliyev ucalığına dəlalət edən xüsusiyyətlərdən biri odur ki, O, mətanət və dəyanət sahibi olan bütöv şəxsiyyətdir.

Bəli, Heydər Əliyevdə bu kimi saydıqca qurtarmayan yüksək keyfiyyətlərin olması yenicə müstəqillik qazanmış dövlətimizin olum və ya ölüm müqəddəratının həll olunduğu bir vaxtda xalqın ona üz tutmasına səbəb oldu.

Onu da qeyd etmək lazımdır ki, 1988-93-cü illərdə Heydər Əliyevsiz Azərbaycan daha dəhşətli itkilərə məruz qaldı. Düşmən üstümüzə ayaq aldı, torpaqlarımız işğal edildi, xalqımız didərkin düşdü, soydaşlarımız həlak oldular. Ən dəhşətlisi isə o oldu ki, ölkədə özbaşnalıq yarandı.

Elə o vaxt ölkədəki silahlı qruplaşmalar xalqı vətəndaş müharibəsinə gətirib çıxardılar. Özbaşınalıq və xaos Azərbaycan müstəqiliyini təhlükədə qoydu.

Tarixin belə bir mürəkkəb məqamında xalq yenə də öz xilaskarını axtarıb tapdı və Heydər Əliyevi israrla tələb etdi. Dahi şəxsiyyət həmişə olduğu kimi, xalqın çağırışına doğma münasibət bəsləyərək Naxçıvandan Bakıya gəldi. Xalq öz rəhbərini sevinclə qarşıladı.

Heydər Əliyev ölkədə yaranmış gərgin, mürəkkəb durumu, vətəndaş müharibəsi alovunu söndürmək vəzifəsinin öhdəsindən gəlmək üçün gecəli-gündüzlü məhsuldar fəaliyyətə başladı. Zəngin dövlətçilik təcrübəsi yaranmış mürəkkəb vəziyyəti müdrikliklə təhlil etdi və incə siyasi gedişləri ilə qısa müddətdə ölkədə baş qaldırmış dağıdıcı prosesləri öz nəzarətinə götürə bildi.

Bu gün həmin qayıdışdan 9 il keçir. Bu illər ərzində Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində dövlətimiz bir çox dünya birliklərinə üzv olub, üçrəngli bayrağımız Avropa Şurasında dalğalanır. Dahi rəhbərin xalqla birliyi hələ çox-çox uğurlar qazanacağımızdan xəbər verir. Mən buna xalqını sevən bir vətəndaş kimi tam şəkildə əminəm.

**AZƏRBAYCAN PEDOQOJİ UNİVERSİTETİNİN PEDOQOGİKA VƏ PSİXOLOGİYA FAKÜLTƏSİNİN DEKANI, FİLOLOGİYA ELMLƏRİ NAMİZƏDİ, DOSENT ALLAHVERDİ HACIYEV**

**Cəlilabad Maşlıq kənd bələdiyyəsinin sədri Qafarov Dadaş İbrahim oğlu.**



Hamımıza bəllidir ki, təzəcə müstəqiliyə qədəm qoymuşdur. Dövlətin özülü möhkəm qoyulmalıdır ki, onun gələcəyi xalqın gələcəyi üçün ümidverici olsun. Həm də bu dövlətə elə bir uzaqgörən görkəmli siyasi xadim rəhbərlik etməlidir ki, onu sivil dövlətlər sırasına çıxara bilsin. Çünki millətin gücü və nüfuzu dövləti təmin edən rəhbərin şəxsiyyətindən, diplomatiyasından mövqeyindən asılıdır. Məhz Azərbaycan dövlətinin hazırki dövrdə beynəlxalq aləmdə tanıdan yeganə şəxsiyyət Möhtərəm prezidentimiz Heydər Əliyev oldu. Məndə öz növbəmdə hörmətli prezidentimiz Heydər Əliyevi bu "Qurtuluş" günü münasibətilə təbrik edirəm və Tanrı köməyiniz olsun! Allah sizi qorusun! - deyirəm, xalqımıza isə bu gündə xoşbəxtlik gözəl yaşayış arzu edirəm.



**Şəmkir rayon Qaracəmilli Bələdiyyəsinin sədri Bayramov Əmiraslan Məstan oğlu 1935-ci ildə anadan olub. Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının mexanikləşdirmə fakültəsini bitiribdir. Ailəlidir, 3 övladı var. YAP-ın üzvüdür.**

**Şəmkir rayon Qaracəmilli Bələdiyyəsinin baş mühasibi Hüseynov Saleh Qəmbər oğlu 1947-ci ildə anadan olub. Ailəlidir, 5 övladı var. YAP-ın üzvüdür.**



Qartal vüqarlı, dağ əzəmətli, dünya şöhrətli prezidentimiz möhtərəm Heydər Əliyevin ətrafında sıx birləşmək Azərbaycan xalqının ən ümdə vəzifəsidir. Hamıya məlumdur ki, dövlətin dirçəlişi, müstəqilliyi, inkişafının təminatçısı Heydər Əliyevdir. 1993-cü ilə kimi Respublikamız dərin uçurumlar qarşısında dayanmışdı. Bu vəziyyətdən xalqımızı çıxarmaq, dövlətdə asayişi bərpa etmək üçün bizə müdrik, uzaqgörən və ağıllı bir rəhbər lazım idi. Bu həm dövrün tələbi idi, həm də xalqımızın. Bəli! 1993-cü ildən möhtərəm prezidentimiz Heydər Əliyev cənablarının Bakıya qayıdışı bizi nəinki bu siyasi burulğandan çıxardı, hətta mən deyərdim ki, bizi özümüzə qaytardı. Ona görə də, bu bayram Azərbaycan xalqının və onun müdrik rəhbərinin uzaqgörən tarixi nailiyyətidir. Mən kollektivimizlə birlikdə Prezidentimizə uzun ömür, cansağlığı arzu edirəm. Biz Qaracəmillilər hörmətli Heydər Əliyevi ömürlük Prezident kimi görmək istəyirik.

**Gəncə şəhəri 7 saylı Zona Tibbi sayal ekspert komissiyasının sədri Məlikova Nurlana Məlik qızı 1951-ci ildə anadan olubdur. Ailəlidir, 3 övlad anasıdır. N.Nərimanov adına Tibb İnstitutunun müalicə profilaktika fakültəsinin bitiribdir.**



Respublikamız müstəqillik qazandıqdan sonra ilk illər bütün sahələrdə oduğu kimi, səhiyyədə də özbaşınalıq tüğyan edirdi. Yaranmış bu vəziyyət Azərbaycan səhiyyəsini məhvə doğru aparırdı. Bəşəriyyət üçün zəruri olan bu sahə öz xilaskarını gözləyirdi. Hörmətli prezidentimiz cənab Heydər Əliyev düzgün kadr siyasəti yeridərək səhiyyənin taleyini tibb elmləri doktoru Əli İnsanovun şəxsində gördü. Bu isə xalqın ürəyincə oldu. O, bir çox səhiyyə ocaqları rəhbərlərinin iştirak etdiyi Iclasda səhiyyə sisteminin, tibb xidmətinin vəziyyət və bu vəziyyəti doğuran səbəblər barədə danışdı. Səhiyyənin yenidən qurulmasının nazirlik tərəfindən nəzərdə tutulan perspektivlərini və yollarını açıqladı. Yeni hazırlanmış milli səhiyyə siyasəti konsepsiyasının əsas müddəaları ilə tanış olduq. Konsepsiyada səhiyyənin dövlətçilik xarakteri daşıması, idarəetmə sisteminin demokratikləşdirməsi, yerli səhiyyə orqanları və mütəxəssislərinin səlahiyyətinin artırılması, səhiyyənin inkişafının ekstensiv prinsipindən intensiv prinsipinə keçirilməsi, səhiyyədə sərf olunan xərcləri alternativ mənbələrdən daha geniş istifadə olunması və başqaları nəzərdə tutulmuşdur.

Biz tibb işçiləri Möhtərəm Prezidentimizin daxili və xarici siyasətini bəyənirik və onu dəstəkləyirik.

Prezidentimizi hakimiyyətə qayıdışının 9 illiyini təntənəli surətdə qeyd etdik, ona həyatda uzun ömür, can sağlığı, işində müvəffəqiyyətlər arzu edirik. Və arzumuz budur ki, erməni tapdağı altında olan 20% torpaqlarımız sülh yolu ilə geri alınsın, qaçqın və köçkünlərimiz öz el-obalarına qayıtsınlar. Bu işində möhtərəm Prezidentimizə uğurlar diləyirik.

**BAKI ŞƏHƏRİ, BİLƏCƏRİ QƏSƏBƏSİ 300 N-Lİ ORTA MƏKTƏBİN İDMAN MÜƏLLİMİ CƏLİLOV MƏFTUN İSA OĞLU.**



Hörmətli prezidentimizin hələ o vaxtkı SSRİ rəhbərliyində işlədyi vaxtları yada salıb, xatırlamaq istəyirəm ki, o vaxtı rəhbərliyin Heydər Əliyev haqqında ədalətsiz qərarları onu vəzifəsindən azad edib ev dustağına çevirməsi bu böyük insanı sarsıtmadı. O yenə xalqının xoşbəxtliyi naminə mübarizədən çəkinmədi.

Heydər Əliyev Respublikaya başçılığı öz üzərinə götürməli idi, götürdü də. Bu əslində bütöv bir xalqın ürək sözləri idi. Xalq öz rəhbərinə yenidan qovuşdu. Xarici və daxili düşmənlər yerində oturduldu.

Surətlər, Rəhim Qazıyevlər layiqli cəzalarını aldı. Atəşkəs əldə olundu. Uzun zamandır qan axıdılmır, insan qırğını yoxdur, torpaqlarımız mərmi yağışına düşmür. Bu həqiqətən, cənab Heydər Əliyevin qələbəsidir.

15 iyun "Milli Qurtuluş" günüdür. Bu bayram münasibətilə bir Azərbaycan vətəndaşı kimi xalqımızı və prezidentimizi təbrik edirəm.

**Xanlar rayon Topalhəsənli inzibati ərazi vahidliyi üzrə icra nümayəndəsinin sədri, şəhid atası Cəfərov Məsim Məhəmmədəli oğlu 1937-ci ildə anadan olub. Ailəlidir. 3 övladı var. YAP-ın üzvüdür və Topalhəsənli kəndi üzrə YAP-ın sədridir.**



Hamımızın yaxşı xatirindədir ki, ölkədə çətinliklər baş alıb gedirdi. Belə bir vaxtda xalq qəti olaraq bildirdi ki, xalqı bu fəlakətdən yalnız Heydər Əliyev xilas edə bilər. Beləliklə, xalqı və ölkəni təhlükədən xilas etmək zərurəti 1993-cü ilin iyun ayında onu Bakıya gətirdi və elə həmin gündən Azərbaycan tarixinin yeni bir səhifəsi, Heydər Əliyevli günləri başladı. Azərbaycan xalqının bəxti gətirib, çünki, bu xalqın yeni tarixini möhtərəm Prezidentimiz kimi müdrik siyasətçi, yeganə və əsl lider yazır. Yeni əsrə dahi şəxsiyyət, əvəzolunmaz lider olan Heydər Əliyevlə birgə qədəm qoyuruq. Biz buna sevinir və fəxr edirik. Çünki, Heydər Əliyev uzaqgörən siyasətçi olmaqla yanaşı həm də polad iradəli, əsl hərbçi simasında Ali Baş Komandandır. Bu gün müstəqil dövlətimizin ərazi bütövlüyünü qoruyan, onun keşiyində duran, Azərbaycan ordusu öz sərkərdəsi ilə əl-ələ verib irəliləməkdən qürur hissi duyur. Biz inanırıq ki, tezliklə möhtərəm Prezidentimizin, Ali Baş Komandanımızın rəhbərliyi ilə doğma Qarabağ torpaqlarımızı azad edəcəyik. O gün uzaqda deyil.

**Baş redaktor:**
**Eldar BƏYLƏROĞLU**
**Baş redaktorun müavini,**
**Xüsusi buraxılışlara məsul:**
**Həzi Zeynallı**
**Xüsusi müxbir:**
**Elnarə İsmayılova**
**Qəzənfər Gəncəli**
**Müxbirlər:**
**Elmira Xankişiyeva**
**Elşən Abdullayev**
**Ünvanımız: Mətbuat pr-ti 529, "Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə.**
**Tel. 312-23-48, 372-35-43**
**dax:2-95**
**Tiraj 300 Sifariş: 3073**
**Şəhadətnamə 241**
**"Babadağ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmişdir.**
**"Azərbaycan" nəşriyyatında çap olunmuşdur**